# 22 İyul Milli Mətbuat və Jurnalistika Günüdür

Xalq qəzeti

Xalqın qəzeti!

№ 149 (30843) 22 iyul 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azad Qarabağda qlobal medianın Azərbaycan maraqları cavablandırıldı

## III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş keçirilib

*Prezident İlham Əliyev görüşdə iştirak edib*



**İyulun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü keçirilib.**

Prezident İlham Əliyev Forum iştirakçılarının suallarını cavablandırıb.

**Moderator** - "Euronews"un Yaxın Şərq bürosunun rəhbəri xanım **Ceyn Viterspun:** Zati-aliləri cənab Prezident.

Xanımlar və cənablar, hörmətli qonaqlar.

III Şuşa Qlobal Media Forumuna xoş gəlmisiniz. Biz Azərbaycanın mədəni mərkəzinin bir hissəsi olan Xankəndi şəhərində sizi görməkdən şadıq. Bizim üçün xüsusi olaraq bu gün burada hörmətli media peşəkarlarını, fikri formalaşdıran rəhbərləri və dünyanın müxtəlif yerlərindən gəlmiş insanları görmək şərəfdir. Bu Forum, əslində, dialoq, şəffaflıq və daimi inkişaf edən media mühitində əməkdaşlığa yönəlib.

**(ardı 2-ci səhifədə)**

# Azərbaycan gücün yeni modelini dünyaya göstərdi



səhifə ⇨ 11

# Bakı–Pekin əlaqələri hərtərəfli strateji tərəfdaşlıq mərhələsində

## Ölkələrimiz arasında əməkdaşlıq bütün sahələrdə güclənir



**Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. Ötən müddət ərzində bu əlaqələr sabit və qarşılıqlı etimada əsaslanan şəkildə inkişaf edir. Təqdirəlayiq haldır ki, iki ölkə arasında indiyədək heç bir siyasi və ya diplomatik gərginlik qeydə alınmayıb. Tərəflər daim bir-birinin daxili işlərinə qarışmamaq, eləcə də ərazi bütövlüklərini dəstəkləmək prinsipinə sadiq qalaraq, əməkdaşlıq münasibətlərini qarşılıqlı maraqlar əsasında davam etdirirlər.**

İki ölkə arasında ticarət dövriyyəsi də ilbəil artır. Çin Azərbaycanın əsas iqtisadi tərəfdaşlarından birinə çevrilib. Uzaq Şərq ölkəsinin şirkətləri Azərbaycanda enerji, tikinti və texnologiya sahələrində mühüm layihələrdə iştirak edirlər. Azərbaycan isə Çinə xam neft və neft məhsulları ixrac edərək ölkənin enerji təchizatında vacib rol oynayır. Bakı və Pekin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində nəqliyyat və logistika sahəsində də son illərdə əməkdaşlığı gücləndirirlər. Mədəniyyət və təhsil sahəsində də əməkdaşlıq genişlənir, tələbə mübadiləsi və birgə tədbirlər təşkil olunur. Bütövlükdə, Çin–Azərbaycan münasibətləri qarşılıqlı hörmət, suverenliyə dəstək və strateji tərəfdaşlıq prinsiplərinə əsaslanır.

**(ardı 8-ci səhifədə)**

# III Şuşa Qlobal Media Forumu



səhifə ⇨ 7

# "Rusiyada əvvəlimci türk qəzetəsi"



səhifə ⇨ 14

# ABŞ–Azərbaycan: yalnız yüksəlişə doğru

*Səmimi münasibət, hərtərəfli dəstək uğurlu gələcəyin müjdəçisidir*

**2025-ci il Azərbaycanın dövlət olaraq qüdrətinin beynəlxalq platformada təsdiqinin əyani sübutları ilə zəngindir. İlin ikinci yarısı indi başlasa da, ölkəmiz yüksək səviyyədə təşkil olunan beynəlxalq tədbirlərə, ciddi qlobal forumlara ev-sahibliyi etməkdə davam edir. XII Qlobal Bakı Forumu, XXX "Baku Energy Week", İƏT-in Sammiti, eləcə də III Şuşa Qlobal Media Forumu məhz bu siyahıda yer alır.**



Sadaladığımız tədbirlərin ən vacib cəhəti ondan ibarətdir ki, bu forumlar qüsursuz təşkilatçılıqla yanaşı, dünyada gedən mənfi təmayüllərin, böhran həddinə çatmış qlobal vəziyyətin aradan qaldırılmasına yönəlik vacib ideyaların irəli sürüldüyü, problemlərin həlli yollarının axtarıldığı diskussiya meydanına, çağdaş fikirlərin səsləndiyi tribunaya çevrilir. Bu baxımdan iyulun 19-dan 21-dək keçirilən III Şuşa Qlobal Media Forumu da istisnalıq təşkil etmədi.

**(ardı 10-cu səhifədə)**

# Naxçıvana quru yolumuz – ədalətin Zəngəzur dəhlizi marşrutu

səhifə ⇨ 11

# III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş keçirilib

(əvvəli 1-ci səhifədə)

Bu il keçirilən Forum 52 ölkədən 140 qonağı, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələrini bir araya gətirib. Builki Forum rəqəmsal keçidlər, süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi mövzusuna həsr olunub. Aparılacaq müzakirələr məhz medianın çağırışlar və imkanlar qarşısında müqavimətinin gücləndirilməsinə, o cümlədən rəqəmsal transformasiyanın təsirinə və müstəqil jurnalistikanın, sülhün, inkişafın, qarşılıqlı anlaşmanın daha da artırılmasına yönələcək.

İndi isə mən böyük şərəf hissi ilə sözü Zati-aliləri cənab İlham Əliyevə - Azərbaycan Respublikasının Prezidentinə vermək istəyirəm.

**Prezident İlham Əliyev:** Çox sağ olun, Ceyn. Sağ olun.

Mən bütün qonaqlarımızı Qarabağda salamlamaq istəyirəm. Çox sağ olun ki, bizimləsiniz. Üçüncü dəfədir ki, belə bir mühüm tədbir Qarabağda keçirilir. Şuşa Media Forumu artıq ənənəvi xarakter alıb. Ümid edirəm ki, bu ənənə davam edəcək və vaxt keçdikcə qonaqların sayı artır, coğrafi əhatə daha da genişlənir. Bütün bunlar bir daha göstərir ki, ən mühüm mövzuların mehriban şəraitdə açıq müzakirələrinə böyük ehtiyac var. Söhbət təkcə mediadan deyil, həmçinin qlobal gündəlikdən gedir. Dünyada vəziyyət sürətlə dəyişir. Əgər ötən il Şuşada keçirilmiş Forumdan başlasaq görərik ki, nə qədər çox dəyişikliklər baş verib.

Əlbəttə ki, ilk növbədə, mətbuat belə tədbirlərə qatılır, bütün hekayələri söyləyir, bu dəyişiklikləri, hadisələri təsvir edir və öz cavabını, rəyini bildirir. Bir sözlə, çox məmnunam ki, biz burada - Xankəndidə bu cür böyük tədbirə toplaşmışıq. Bugünkü görüşü burada, yeni tikilmiş Konqres Mərkəzində, Xankəndinin Zəfər meydanında keçirmək qərarına gəldik. Beləliklə, əminəm ki, bura qonaqlar üçün maraqlı olacaq, yenidənqurma, eləcə də 30 ildən artıq bu yerlərdən didərgin düşmüş insanların qayıtması baxımından ərazilər azad olunandan sonra görülmüş işlərə baxmaq cəlbedici olacaq. Bununla şərhimi yekunlaşdırıram ki, müzakirə üçün daha çox vaxt qalsın. Bir daha bizimlə olduğunuz üçün təşəkkür edirəm.

**Moderator Ceyn Viterspun:** Cənab Prezident, Sizə suallarımızın sayı xeyli çoxdur. Hamı hazırlaşıb gəlib. Gəlin, indi elə birbaşa başlayaq. Birinci sual verən cənab Klaus Piter Ralf Yurgensdir, Londonda yerləşən "Economyfirst Limited"in direktorudur. Buyurun.

**Klaus Piter Ralf Yurgens: Çox sağ olun Zati-aliləri, cənab Prezident.**



**Yenidən burada olmağıma çox şadam. Dəvətə görə minnətdaram. Ümumiyyətlə, növbədə birinci sualı vermək hər zaman çətindir və ötənilki mövzuya qısaca qayıtmaq istəyirəm. Biz COP29 haqqında çox danışdıq. İndi, düşünürəm, o, böyük uğura çevrildi. Həmin konfrans ilə növbəti konfrans arasında yarı yoldayıq. Siz COP29 tədbirinin irsini necə təsvir edərdiniz? Azərbaycanın bu sahədə formalaşdırdığı siyasətin davamı digər ölkələrdə olacaqmı? Söylədiyiniz kimi, COP29 xüsusi tədbir oldu. Onun irsini necə görürsünüz? Yəni, COP30, 31 və ya 32 də olacaq. Şəxsi təəssüratınızı bölüşsəniz, yüksək dəyərləndirərik. Çox sağ olun.**

**Prezident İlham Əliyev:** Çox sağ olun. Həqiqətən bu, ölkədə ilin tədbiri oldu. Ötən il 197 ölkənin iştirakı ilə keçirilmiş belə bir mühüm iqlim dəyişmələri konfransında bütün dünyada çox böyük auditoriya var idi. Qeydiyyatdan keçmiş 77 min iştirakçı oldu. Qeyd etdiyim kimi, təxminən 200 ölkədən nümayəndə gəlmişdi. Onların sırasında 70 dövlət və hökumət başçısı var idi. Bu, həmin mövzunun əhəmiyyətini aydın şəkildə göstərdi. Həmçinin bir çox insan Bakıya, Azərbaycana ilk dəfə idi ki, səfərə gəlmişdi. Düşünürəm ki, onlar üçün maraqlı tanışlıq idi. Qlobal iqlim gündəliyinə töhfəmizə gəldikdə deyərdim ki, Azərbaycan ekologiyaya hörmətlə yanaşan ölkədir. Biz elektrik enerjisinin istehsalında nə kömürdən, nə də ki, yanacaqdan istifadə edirik. Biz yalnız su və təbii qaz ehtiyatlarından istifadə edirik və bu yaxınlarda Günəş enerjisindən istifadəyə başlamışıq.

Yeri gəlmişkən, yaşıl gündəliyimiz çox genişdir. 2030-cu ilə qədər artıq imzalanmış investisiya müqavilələri əsasında biz ən azı 6 giqavatlıq yaşıl enerjini, o cümlədən Günəş, külək və su elektrik enerjisini istehsal edəcəyik. Su elektrik enerjisi Qarabağ və Şərqi Zəngəzurda əsas yer tutur. Biz ümumi 280 meqavat gücündə 30 kiçik su elektrik stansiyasını artıq istismara vermişik. Beləliklə, yaşıl gündəliyimiz həqiqətən çox genişdir. Eyni zamanda, mənim mesajım, ev sahibi olan Azərbaycanın mesajı ondan ibarət idi ki, biz həmin məsələyə realist və praqmatik yanaşmalıyıq. Hamımız anlayırıq ki, biz planeti qorumalıyıq. Lakin ətraf mühit böhranına ən çox rəvac verənlər, yəqin ki, bu yükü öz üzərinə götürməlidirlər.

İqlim dəyişmələri ekzistensional əhəmiyyət daşıyan, inkişaf edən kiçik dövlətlərə gəldikdə, onlara güclü dəstək lazımdır. Biz bunu planlaşdırırdıq və etməyə çalışırdıq. İnkişaf etməkdə olan kiçik ada dövlətləri ilə bağlı xüsusi sessiyamız oldu. Azərbaycan ən az inkişaf etmiş ölkələrdə iqlim dəyişmələri məsələlərinin həlli üçün xüsusi fonda 10 milyon ABŞ dolları ayırdı. Lakin düşünürük ki, siz faydalı qazıntıları diqqətdən kənarda qoya bilməzsiniz. Çünki yaxın gələcəkdə onlarsız dünya yaşaya bilməz, iqtisadiyyat işləyə bilməz, təyyarələr uça bilməz və hər bir şey dayanar. Beləliklə, biz reallığın bu tərəfini də görməliyik.



Biz "Yaşıl Keçid Proqramı"nı həyata keçiririk. Lakin, eyni zamanda, anlayırıq ki, neft və qaz olmadan inkişafı, gələcəyimizi planlaşdırmaq, vətəndaşlarımız üçün lazımi şəraitləri təmin etmək mümkün olmayacaq. Bizim üçün çətin an və mürəkkəb müzakirələr oldu. Lakin düşünürəm ki, sədrliyimiz yaxşı anlaşmanı təmin etdi. Bir sözlə, öz rolumuzu Qlobal Cənub və Qlobal Şimal arasında körpü kimi gördük. Düşünürəm ki, bunun öhdəsindən gələ bildik.

COP29-da mühüm nailiyyətlərdən biri ondan ibarətdir ki, biz elə konstruktiv mühit yaratdıq və şəxsi töhfə verdik ki, karbon bazarlarının fəaliyyəti ilə bağlı 6-cı maddə üzərində razılıq əldə olunsun. Bu məsələ ən azı son 10 il ərzində müzakirədə qalmışdır. Beləliklə, o, COP29-un ən mühüm və tutarlı nəticəsinə çevrildi. Düşünürük ki, digər mühüm nəticə iqlim dəyişmələri məsələlərinin həlli ilə bağlı vəsaitlərin əvvəlcədən COP29-da nəzərdə tutulmuş 100 milyard ABŞ dollarından 300 milyard ABŞ dollarına qədər artırılması oldu. Bilirik ki, bəzi ölkələr bundan razı qalmadı. Lakin ədalət naminə söyləməliyik ki, biz vəsaitlərin üç dəfə artırılmasına nail olduq. Əlbəttə ki, bizdən sonra öhdəliyi öz üzərinə götürən tərəflər həmin vəsaitlərin artırılması üçün öz işlərini görməli olacaqlar. Çünki həmin və bir çox digər məsələlər irsimiz kimi qalacaq. Biz ondan artıq təşəbbüs irəli sürdük. Ölkələrin tam əksəriyyəti həmin təşəbbüslərə qoşuldu. Düşünürəm ki, təşəbbüslərimizin heç birinə qoşulmayan cəmi iki ölkə oldu. Lakin bu, təşəbbüslərin münasibliyinə deyil, sırf siyasi səbəblərə bağlı idi. İndi isə sual belədir – gələcəkdə nə baş verəcək? Xüsusən də iqlim dəyişmələri ilə bağlı ABŞ Administrasiyasının mövqeyini nəzərə alaraq, nə olacaq? Əlbəttə ki, ABŞ-ın qlobal lider, iqlim dəyişmələrinə ən böyük töhfə verən tərəf və ən böyük investor kimi məsələləri nəzərdə tutulur. Onun rolu, əlbəttə ki, diqqətdən kənarda qala bilməz. Bir sözlə, çox məsələ onlardan asılı olacaq. Buna görə, hamımız böyük ümidlə və müəyyən narahatlıqla bu ilin sonunda keçiriləcək COP30-u gözləyirik.

Bir daha qeyd etmək lazımdır ki, Azərbaycana gəldikdə, təsəvvür edə bilərsiniz, biz karbon emissiyalarına ən böyük töhfə verən tərəf deyilik. Lakin bununla belə, yaşıl gündəliyimiz və körpü salmaq, müxtəlif tərəflər arasında anlaşma yaratmaq kimi məsələlərdə göstərdiyimiz səylər BMT və bir çox beynəlxalq tərəfdaşlar tərəfindən lazımınca dəyərləndirilir. Bizə gəldikdə, bir daha qeyd edim ki, yaşıl gündəliyimizə sadiq qalacağıq. Lakin COP30, 31 və 32 necə olacaq, bu, əlbəttə ki, açıq sual olaraq qalır.

**Moderator Ceyn Viterspun:** Peter, təşəkkür edirəm sualınıza görə. İndi isə biz dərhal növbəti suala keçirik. Professor Şerzodxon Kudratxuca. O, Özbəkistan Jurnalistika və Kütləvi Kommunikasiyalar Universitetinin rektorudur.

**Şerzodxon Kudratxuca: Salam, hörmətli cənab Prezident. İcazə verin, əvvəlcə Sizi iyulun 4-də Xankəndinin ilk dəfə çox yüksək səviyyədə ev sahibliyi etdiyi İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün uğurla keçirilməsi münasibətilə təbrik edim. Biz bunun şahidi olduq. Həmçinin burada Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevin dövlət səfəri uğurla keçdi. Bizim jurnalistlərin çoxlu təəssüratı var. Biz üçüncü ildir ki, gəlirik, ancaq Xankəndidə ilk dəfə olduq.**

**Mənim bir neçə sualım var. İcazənizlə, Sizə birinci sualı verim: Keçən həftə Əbu-Dabidə Ermənistanın Baş naziri Nikol Paşinyanla Sizin aranızda tarixi görüş oldu. Bu, niyə vacibdir? Niyə bu, son dərəcə mühümdür? Çünki iki ölkə qlobal təlatümlər zamanı, belə bir çətin vaxtda dost olmağın hər halda daha yaxşı olduğunu dünyaya nümayiş etdirdi. Bu, günümüz üçün çox gözəl bir nümunədir. Sizdən soruşmaq istərdim: bir çox suallar arasında**



**Zəngəzur dəhlizi məsələsi də qaldırıldı. Mən bilirəm ki, bu dəhliz, ilk növbədə, Azərbaycan və Ermənistan üçün, həmçinin bizim bütün böyük Xəzər regionumuz üçün çox vacibdir. Amma istərdim ki, bunun böyük Türk dünyası üçün nə qədər əhəmiyyətli olması, onun qarşısında hansı perspektivlər açması üzərində dayanasınız. Çünki aramızda körpü yox idi, inşallah, indi biz birləşəcəyik. Bu, çox maraqlıdır. Keçən il də burada idim, amma təəssüf ki, sual verə bilmədim. Sizə çox şəxsi sualım var. Üçüncü dəfədir ki, Qarabağa gəlirəm və burada maşın sürərkən dönə-dönə müşahidə etdik ki, hər şey əbədiyyətlə nəfəs alır, burada hər daş, hər dağ zikr edir, hər ağac şükür edir. Çünki bu, baş verdi. Burada müşahidə etdim ki, üç il ərzində çoxlu dəyişikliklər baş verib: yollar əladır, avtomobil heç vaxt silkələnmir, çoxlu müasir tikinti var, məscidlərin çoxu təmir olunub. Amma kilsələrin də bərpa olunduğunu görmək məni sevindirdi. Bu, bütün dünyaya Sizin tolerantlığınızı, səbrinizi, nəcibliyinizi göstərir. Ona görə də demək istəyirəm ki, yəqin ki, Uca Tanrımız da bunu bəyənir. Özbəkistan Azərbaycanın dahi Prezidenti Heydər Əliyevi çox yüksək qiymətləndirir və onu çox yaxşı tanıyır. O və bizim Şərəf Rəşidoviç Rəşidov dost olublar. Bunu Özbəkistanda hər kəs bilir. Belə bir sualım var, ona görə də şəxsi dedim. Təəssüflər ki, bugünkü Qarabağı görmək ona nəsib olmadı. Çox çətin bir yol keçsə də, onu görə bilmədi. Amma deyək ki, Uca Tanrının iradəsi olsaydı, 2023-cü ildən sonra bu günü görə bilsəydi, Azərbaycan Prezidentinə yox, təkrar edirəm, Prezidentə yox, Azərbaycan xalqının böyük oğluna nə deyərdi? Onun baxışı, bugünkü əhvali-ruhiyyəsi necə olardı? Sağ olun.**

**Prezident İlham Əliyev:** Sağ olun. İlk növbədə, ölkəmiz haqqında, Qarabağ haqqında və burada gördüyümüz işlərlə bağlı xoş sözlərinizə görə sizə çox təşəkkür etmək istərdim. Özbəkistanlı qardaşlarımızın dəstəyi bizim üçün həmişə çox dəyərli olub. Bildiyiniz kimi, Qarabağın bərpası üçün ilk hədiyyəni Özbəkistan verib. Hörmətli Prezident Şavkat Miromonoviçin təşəbbüsü ilə Füzuli şəhərində özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyan 960 şagird yerlik məktəb tikilib. Biz Şavkat Miromonoviç ilə bu məktəbi Füzuli şəhərində açdıq. Bir-iki gün əvvəl yenə Füzulidə oldum, maraqlandım, məncə, orada artıq 500-dən çox uşaq oxuyur. Nəzərə alsaq ki, Füzuliyə keçmiş köçkünlərin qaytarılması prosesi hələ ilkin mərhələdədir, yəni, bu qədər uşaq artıq orada təhsil alır. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, Özbəkistan Prezidentinin səmimi qardaşlıq jesti, ərazilərin bərpasında Azərbaycana köməyidir. Qeyd etdiyiniz kimi, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçılarının artıq burada, Xankəndidə Zirvə görüşü keçirilib. O görüş bu binada, yeni Konqres Mərkəzində keçirildi. Biz həmin Zirvə görüşünü məhz bu zalda keçirdik. Bunun böyük rəmzi mənası var idi. Çünki bu, həyatın buraya, o cümlədən Xankəndiyə geri qayıtdığını göstərir. Biz təşkilata üzv olan ölkələrin, həmçinin digər ölkələrin səkkiz dövlət və hökumət başçısının yüksək səviyyədə iştirakını Azərbaycana, torpaqlarımızın qaytarılmasından sonra və indi gördüyümüz işlərə, dağıdılanları yenidən həyata qaytarmağa verilən dəstək kimi qiymətləndiririk.

Yeri gəlmişkən, deməliyəm ki, işğal zamanı məhz bu yerdə separatçılar tərəfindən "Parlament" adlandırılan bina tikilmişdi. Mənim buraya ilk səfərlərimdən birində biz bu "şeytan yuvası"nı dağıtmaq qərarına gəldik, məncə, tamamilə düzgün qərar verdik və onun yerində dövlət başçılarını qəbul edən belə gözəl Konqres Mərkəzi tikdik. Yaxınlıqda isə sovet vaxtı orada olan, işğal zamanı dağıdılan otel tikilir. Konqres Mərkəzinin qarşısındakı meydan indi Qələbə meydanı adlanır. Separatizmin mərkəzi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş vilayət komitəsinin binasında Qələbə muzeyi yerləşəcək. Hazırda orada tikinti işləri görülür.

Zəngəzur dəhlizinə gəlincə, bu arteriya sözsüz ki, bir çox ölkələri birləşdirəcək. Biz isə daşımaların bu dəmir yolu və ya avtomobil yolu ilə həyata keçirilməsinin zəruriliyindən danışarkən, təkcə Azərbaycanın əsas hissəsinin onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsini nəzərdə tutmuruq. Söhbət beynəlxalq tranzit dəhlizdən gedir. Biz nəqliyyat və logistika infrastrukturuna çox fəal sərmayə qoyuruq. Son illər milyardlarla dollar sərmayə qoyulub, Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanı tikilib, indi biz onu genişləndiririk, onun yükqaldırma qabiliyyətini 25 milyon tona çatdırırıq. Gürcüstandan keçməklə Azərbaycanı Türkiyə ilə birləşdirən dəmir yolu xətti çəkilib. Müasir infrastrukturun qurulması nəticəsində Azərbaycan ərazisindən tranzit daşımaların həcmi artır. Həmçinin rəqəmsallaşma prosesi gedir, gömrük inzibatçılığı sadələşdirilir. Bu, həm də regionumuzda baş verən geosiyasi dəyişikliklər, digər tranzit marşrutların problemli hala gəldiyi bir vaxtda baş verir. Ona görə də bütün bunları nəzərə alaraq, Zəngəzur dəhlizinin potensialını ilkin mərhələdə 15 milyon ton yük səviyyəsində qiymətləndiririk. Biz demək olar ki, Ermənistan və İranla sərhədimizin qovuşuğuna qədər dəmir yolunun tikintisini başa çatdırırıq və yəqin ki, bir ildən az müddətdə, bəlkə də gələn ilin yazında bu dəmir yolunun Azərbaycan hissəsi hazır olacaq.

Bu dəmir yolunun Ermənistan hissəsinə gəlincə deməliyəm ki, sovet dövründə bu dəmir yolu Azərbaycan dəmir yolunun tərkib hissəsi olub. Ermənistanın dəmir yolu şəbəkəsinin qalan hissəsi ilə dəmir yolu əlaqəsi olmadığına görə ermənilərin dəmir yolu strukturuna daxil olmayıb. Bu yol Azərbaycanı Ermənistan ərazisindən keçərək Naxçıvan Muxtar Respublikası ilə birləşdirir və oradan Körfəzə çıxış yolu ilə İran ərazisinə keçir. Yəni, Zəngəzur dəhlizinin reallaşması ilə biz mahiyyət etibarilə Şimal-Cənub dəhlizinin başqa istiqamətini açacağıq. Təkcə hamının haqqında danışdığı bir istiqamətə - Rusiyadan Azərbaycan vasitəsilə İrana, Rəştə deyil, həm də Şərqi Zəngəzur və Zəngəzur bölgəsinin digər hissələrindən İrana, oradan da Türkiyəyə. Ona görə də yük axınının həcminin artırılması üçün böyük perspektivlər açılır.

Özbəkistan Prezidentinin səfəri zamanı biz müzakirə etdik ki, yükdaşımaların həcmini artırmalıyıq. Bu gün Çindən Azərbaycan ərazisi vasitəsilə yükdaşımaların həcmi sürətlə artır. Eyni zamanda, Xəzər dənizinə çıxacaq Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan dəmir yolu yenidən tikilir. Yəni, görürsünüz ki, artıq hansı böyük axınlar gedir və bu, bizim istiqamətimizdə davam edəcək. Ona görə də biz təkcə Bakı limanında yüklərin qəbuluna və onları işləməyə deyil, həm də Bakı-Tbilisi-Qars dəmir yolu ilə Gürcüstandan keçməklə Türkiyəyə və daha sonra Aralıq dənizi limanlarına Zəngəzur vasitəsilə göndərməyə hazır olmalıyıq ki, bu, eyni zamanda, əsas nəqliyyat marşrutu olacaq. Amma təəssüflər olsun ki, son beş ildə Ermənistan tərəfində heç bir iş aparılmayıb, bu məsələ qəsdən gündəmdən çıxarılıb. Amma belə olan halda Ermənistanın nə vaxtsa tranzit ölkəyə çevrilmək şansı sıfra yaxınlaşır. Bu prosesin qarşısını almaqda davam etsələr düşünürəm ki, özlərini nəinki bu gün düşdükləri nəqliyyat təcridində, həm də müəyyən dərəcədə siyasi təcriddə tapacaqlar.

Atamın mənə nə deyə biləcəyinə gəldikdə, əlbəttə, bunu bilə bilmərəm. Amma təxmin edə bilərəm. Məncə, siz də təxmin edirsiniz. Bu, yəqin ki, daha çox ritorik sualdır. Mənim üçün isə atamın vəsiyyətini yerinə yetirmək, eləcə də bu torpaqlardan didərgin düşən, ədalətin bu təntənəsini görmədən dünyadan köçənlərin vəsiyyətlərini yerinə yetirmək böyük şərəf və qürur mənbəyi idi. Mən son beş ildə bu qürur hissi ilə yaşayıram. İnşallah, mən və bütün Azərbaycan xalqı sona qədər bu hisslə yaşayacağıq.

**Moderator Ceyn Viterspun:** Təşəkkür edirəm. Növbəti sualı ABŞ-ın Beynəlxalq Siyasət İnstitutunun nümayəndəsi Paolo Liebl von Şirax verəcək. Buyurun, söz sizindir.

**Paolo Liebl von Şirax: Cənab Prezident, Sizi görməyə çox şadam. Bu gün bu tədbirdə iştirak etməyimdən çox məmnunam. Üçüncü dəfədir ki, mən bu Forumda iştirak edirəm və burada Sizinlə bu görüşün əhəmiyyəti hər kəs üçün olduqca vacibdir. Bu, çox rəmzi bir məkandır və hər kəsə məlumdur ki, bu, çox mürəkkəb bir hekayənin gözəl sonluğudur. Siz öz baxışınızla bağlı fikirlərinizi artıq bölüşdünüz, ölkəniz təkcə bu bölgə üçün deyil, region üçün, Avropa, Mərkəzi Asiya və Yaxın Şərq arasında da bir körpü ola bilər. Siz infrastruktur layihələrini artıq qeyd etdiniz. Mənim sualım ondan ibarətdir ki, Sizcə ən əsas əhəmiyyətli inkişaf vektorları həm ölkəniz, həm regionunuz üçün nədən ibarətdir? Xüsusilə də birbaşa xarici sərmayə baxımından. Biz bir neçə dəfə**



**bu barədə danışmışıq. Artıq bir müddət keçib. Sizin hökumətiniz bu sahədə fəal çalışır. Eyni zamanda, xarici sərmayələrin təşviqi baxımından hansı əlavə tədbirlər ola bilər və sizin iqtisadiyyatınızda ən perspektivli sahələr hansılardır? Bu işdə sizin etibarlı tərəfdaşlarınız hansı ölkələr və şirkətlər ola bilər? Təşəkkür edirəm.**

**Prezident İlham Əliyev:** Daxili gündəliyimizə gəldikdə aydındır ki, Azərbaycan öz inkişafına hansı istiqamətdə davam edəcəkdir. Əsas prioritet faydalı qazıntı sahəsi ilə bağlı deyil. Burada IT, aparıcı texnologiyalar sektorunu qeyd etmək istəyirəm. Biz süni intellektlə bağlı aparıcı şirkətlərlə artıq əməkdaşlıq edirik. Ancaq regional inkişafa və regional əməkdaşlığa gəldikdə bağlılıq layihələri prioritetdir və bu məsələ region ölkələri üçün eyni dərəcədə əhəmiyyətlidir. Biz eyni mövqedən çıxış edirik. Burada söhbət təkcə tranzitdən getmir. Biz dəhlizlər, dəmir yolları haqqında danışanda tranzit və tranzit ödəmələri haqqında danışdığımız düşünülə bilər. Tranzit ödəmələri, əlbəttə ki, vacibdir, o, ölkəni gücləndirə bilər. Ancaq əsas məsələ tranzit marşrutu boyu infrastrukturun və sahələrin yaradılmasıdır ki, o sahələr əlavə sərmayə cəlb edə bilər. Bu səbəbdən də bir neçə əsas şərtin təmin edilməsi vacibdir. Bunun biri sabitlik və təhlükəsizlikdir. Bu gün regionumuz, Mərkəzi Asiya regionu, Cənubi Qafqaz, ondan Şərqdə və Qərbdə yerləşən ölkələr sabit dövlətlərdir. Xüsusilə də Qarabağ münaqişəsi başa çatandan sonra sabitlik, təhlükəsizlik və inkişaf üçün perspektivlər daha aydın və genişdir. Yəni bu, bağlılıq layihələrinin təşviqi baxımından mühüm amildir. İkinci amil qonşularla xoş münasibətlərdir. Bu olmadığı təqdirdə ölkə tranzit ölkə ola bilməz və biz burada qonşularımızla deyil, qonşularımızın qonşuları ilə də yaxşı münasibətlərə malik olmalıyıq. Bu sahədə də fəal diplomatik fəaliyyət aparılır və bizim etibarlı tərəfdaş imicimiz var. Biz son 10 il ərzində etimad qurmağa çalışmışıq. Biz nümayiş etdirməyə çalışmışıq ki, ölkəmiz etibarlı tərəfdaşdır və sözümüzün imzamız qədər dəyəri var. Bu, bu günə qədər də məhz belə olmuşdur.

Bağlantı layihələrinə gəldikdə, biz, ilk növbədə, Orta Dəhlizi qeyd etməliyik. Bu, bu gün çox geniş coğrafiyanı birləşdirən bir layihədir. Mən artıq bir neçə dövləti qeyd etdim. Həmin dəhliz Şərqdən Qərbi Avropaya qədər uzanır və bu da müxtəlif aktorlar arasında anlaşmaya səbəb olacaq. Burada daha çox anlaşmaya ehtiyac var.

COP29 haqqında danışarkən məndə elə bir təəssürat yarandı ki, inkişaf etmiş və inkişaf edən ölkələr arasında bir etimad böhranı var. Hər biri özünün haqlı olduğunu hesab edir. Ancaq burada etibar olmadığı və bir-birinə şübhə ilə yanaşma mövcud olduğu təqdirdə vahid hədəflərə nail olmaq çətin olacaqdır. Ona görə də təhlükəsizlik, sabitlik, milli maraqlara praqmatik yanaşma və qonşularla yaxşı, konstruktiv əlaqələr vacibdir.

Regional gündəliyə gəldikdə, onu da qeyd edə bilərəm ki, biz yaşıl enerji layihələri üzərində çalışırıq. Çünki təkcə Azərbaycanda deyil, Mərkəzi Asiya ölkələrində də Günəş və külək elektrik enerjisi stansiyaları yaradılır. Ötən ilin noyabrında Bakıda COP29 çərçivəsində Özbəkistan, Qazaxıstan və Azərbaycan prezidentləri arasında yaşıl enerji ilə bağlı Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi imzalandı ki, Mərkəzi Asiyada istehsal olunan yaşıl enerji Azərbaycanın infrastrukturuna birləşdirilsin. Ona qədər Azərbaycan, Gürcüstan, Rumıniya, Macarıstan arasında da buna bənzər sənəd imzalandı ki, belə bir yaşıl enerji kabeli Qara dənizin dibi ilə çəkilsin. Yəni, region təkcə Cənubi Qafqazı əhatə etmir. Biz daha geniş coğrafiyanı əhatə edirik. Ancaq burada mərkəzi nöqtə məhz Azərbaycandır. Çünki siz coğrafiyanı dəyişə bilməzsiniz. Amma coğrafiya heç də hər zaman o demək deyil ki, coğrafi mövqeyiniz sizə tərəqqi gətirəcəkdir. Siz coğrafiyanızdan yaxşı məqsədlər üçün istifadə etməlisiniz. Biz artıq bunu proqnozlaşdıra bilərik ki, Azərbaycan, Mərkəzi Asiya və Avropa ölkələri arasında imzalanmış sənədlər Azərbaycanın bir növ qovşaq olacağını nümayiş etdirir. Azərbaycan nəqliyyat, istehsal və paylama nöqtəsi olacaqdır. Bizim çox böyük artım potensialımız var.

(ardı 3-cü səhifədə)

# III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş keçirilib

(əvvəli 2-ci səhifədə)

Ənənəvi enerji infrastrukturu layihələrinə gəldikdə deyə bilərəm ki, biz bütün planlarımıza nail olmuşuq. Bəli, biz bilirik ki, bu gün Avropanın daha çox Azərbaycan qazına ehtiyacı var və biz bu həcmi artırmağa hazırıq. 2021-ci ildə bu həcm 8 milyard kubmetr idi. Bu gün 13 milyard kubmetrdir. Bu, bizim ümumi hasilatımızın və ixracımızın yarısıdır. Əlavə həcmlər üçün isə Avropa institutları ilə bağlı yenidən praqmatik yanaşma olmalıdır.

Yaşıl enerjiyə gəldikdə, Avropa bankları artıq faydalı qazıntı enerji növlərinə maliyyələşmə ayırmır. Avropa Yenidənqurma və İnkişaf Bankı maliyyələşməni demək olar ki, dayandırmışdır. Buna görə isə əlbəttə ki, biz imkanlarımızı genişləndirmək üçün vəsait cəlb edə bilmərik. Bu gün Cənub Qaz Dəhlizi maksimal həcmdə fəaliyyət göstərir. Yeni məkanlar üçün biz interkonnektorlardan istifadə edirik. Ancaq əsas boru kəməri tam həcmdə doludur. Onu genişləndirmək üçün bizim əlavə maliyyə vəsaitinə ehtiyac var. Ona görə Avropa institutları bunu nəzərə almalıdırlar və siyasətlərində dəyişiklik etməlidirlər ki, biz əlavə vəsait cəlb edə bilək. Bu şəraitdə bu gün bizim üçün artıq tamamlanmış kimi görünən bir məsələ yenidən inkişaf etdirilə bilər. Avropanın Azərbaycan qazına daha çox ehtiyacı var. Onların Azərbaycanın yaşıl enerjisinə ehtiyacı var. Bəli, biz bilirik ki, Avropada olan külək elektrostansiyalarının sayı nə qədərdir və onların planları nədən ibarətdir. Ancaq biz bir yerdə çalışmağı avropalı tərəfdaşlarımıza təklif etdik. Azərbaycanın coğrafi olaraq Avropa və Asiya arasında yerləşən bir məkan kimi nəhəng meqalayihələrin icrasında təcrübəsi, şaxələndirilmiş xarici siyasəti və xarici siyasət gündəliyi sayəsində biz əhəmiyyətli və həlledici rol oynaya bilərik. Burada bir çox digər məsələləri qeyd edə bilərdim, ancaq vaxtınızı çox almaq istəmirəm.

**Moderator Ceyn Viterspun:** Ukraynadan "Gordon" media qurumunun təsisçisi jurnalist Dmitro Qordon.

**Dmitro Qordon: Hörmətli cənab Prezident, biz Ukraynada Sizin rəhbərliyinizlə Azərbaycanın öz torpaqlarını, öz ərazisini geri qaytarmasını heyranlıqla izləyirdik. Bu, bizim üçün son dərəcə ruhlandırıcı bir nümunədir. Ukraynalılar Sizə minnətdardırlar ki, dəfələrlə açıq şəkildə Ukraynanın dövlət suverenliyinə və ərazi bütövlüyünə dəstəyinizi ifadə etmisiniz. Bu, unudulmur. Artıq neçə ildir ki, biz Ukrayna dövlətinin varlığı uğrunda çox ağır müharibə şəraitində yaşayırıq. Siz qalib xalqın Lideri kimi Ukraynaya və ukraynalılara hansı tövsiyələri verə bilərsiniz?**



**Prezident İlham Əliyev:** Ölkəmiz haqqında dediyiniz xoş sözlərə, suverenliyin və ərazi bütövlüyünün bərpası üçün görülmüş işlərlə bağlı fikirlərinizə görə təşəkkür edirəm. Bir neçə il əvvəl tədbirlərin birində Ukrayna nümayəndəsinin oxşar sualına cavab vermək imkanım olmuşdu. İndi verdiyim cavab ozamankı cavabımdan fərqli olmayacaq və düşünürəm ki, bu, Ukrayna xalqının istəkləri ilə də səsləşir – heç vaxt işğalla barışmamaq. Bu, əsas tövsiyədir. Bizim etdiyimiz də bu idi. Daha doğrusu, biz bu prosesi belə görürdük.

Birinci Qarabağ müharibəsi dövrü çox çətin, faciəli idi – çoxsaylı qurbanlar, Xocalıda azərbaycanlıların soyqırımı. Yeri gəlmişkən, Xocalı buradan cəmi bir neçə kilometr məsafədədir. Münaqişəsonrası dövr də mənəvi və iqtisadi baxımdan az ağır deyildi. Bizim bir milyona yaxın insanımız var idi ki, onlar yaşamaq imkanlarından məhrum olmuşdular. Onlardan 700 min nəfəri Qarabağ regionundan idi, 250 min nəfəri isə Ermənistandakı azərbaycanlılar idi ki, oradan deportasiya olunmuşdular. O zaman bizim ölkəmizin əhalisi 8 milyon idi. Yəni bu, adambaşına düşən qaçqınların sayı baxımından ən yüksək göstəricilərdən biri idi.

Pul yox idi, xəzinə boş idi, bizi demək olar ki, heç kim dəstəkləmirdi. Heç kimdən heç bir əhəmiyyətli beynəlxalq dəstəyimiz yox idi, iqtisadiyyat dağılmışdı, inflyasiya min faiz idi, kütləvi işsizlik, yoxsulluq isə demək olar ki, 100 faiz səviyyəsində idi. Bax, belə bir Azərbaycan var idi. Həmin vaxt Heydər Əliyev hakimiyyətə gəldi. Xalqımızın bəxti onda gətirdi ki, çətin bir zamanda ona müraciət etdi və o da bu ağır yükü öz üzərinə götürdü. Halbuki o, gənc deyildi, artıq 70 yaşı var idi, səhhəti o qədər də yaxşı deyildi, ağır xəstəlik keçirmişdi. Amma məhz onun sayəsində vəziyyəti sabitləşdirmək mümkün oldu. Üstəlik, o vaxt vətəndaş müharibəsi də gedirdi. Biz tədricən ayağa qalxmağa, necə deyərlər, dirçəlməyə başladıq. Yalnız bir şeyi düşünürdük. Mən əminəm, vətəndaşlarımızın əksəriyyəti də mənim dediyimi bölüşür ki, işğal olunmuş torpaqlarımızı necə qaytarmağı fikirləşirdik. Biz başa düşürdük ki, bu, çətin olacaq. Birincisi, relyef. Siz Füzulidən buraya gəlmisiniz. Füzuli şəhəri oktyabrın 17-də azad olunmuşdur. Bundan sonra bizim Silahlı Qüvvələrimiz yol olmayan ərazilərdən piyada keçərək Xankəndi ətrafına, Şuşa qayalarına doğru hərəkət etdilər. Biz döyüş meydanında sübut etdik ki, hər şeyə hazırıq və ölümə gedirdik, irəlidə 5-6 müdafiə xətti var idi. Biz hamımız əzəli torpaqlarımızı qaytarmaq arzusu ilə yaşamışıq.



Relyef, beynəlxalq vəziyyət bizim əleyhimizə idi. ATƏT-in Minsk qrupunun həmsədrlərinin hər biri şəxsi səbəblərə görə Ermənistanın tərəfində idi və hər biri bu vəziyyətin əbədi davam etməsinə çalışırdı. Ona görə də bu status-kvo dəyişmirdi. Hətta bəzən inanılmaz diplomatik səylərlə həmsədr ölkələr adından hansısa bəyanatla çıxış etməyə müvəffəq olanda, bir müddət sonra bu, təkzib edilirdi.

Xatırlayıram ki, ABŞ, Fransa və Rusiya prezidentləri səviyyəsində status-kvonun qəbuledilməz olduğu bəyan ediləndə biz bunu böyük həvəslə qarşılamışdıq. Bu, ciddi bəyanat idi, buna nail olmaq üçün çox çalışmışdıq. Amma bir müddət sonra həmin bəyanatda cəmi bir söz dəyişdirildi – "qəbuledilməz" əvəzinə "dayanıqsız" dedilər. Yəni, bizə mesaj verdilər ki, əslində, bu vəziyyət qəbuledilədir. Yəni, maskalar açıldı, bəli, qəbuledilədir. Bu, Ermənistan üçün qəbuledilən idi, Minsk qrupunun həmsədrləri və bir sıra ölkələr üçün də qəbuledilən idi. Təkcə bizim üçün qəbuledilməz idi.

Mən 2003-cü ilin sonlarından etibarən danışıqlar prosesində iştirak edirdim. 17 il ərzində çoxlu təkliflər, çoxlu görüşlər oldu, – bəlkə də heç də faydalı olmayan, – və çoxlu mesajlar alırdıq ki, reallıqla barışmaq lazımdır. "Reallıq budur, siz bununla barışmalısınız". Mən deyirdim ki, xeyr. Bu, dünya güclərinə bir çağırış kimi qəbul olunurdu, qeyri-adekvat reaksiya kimi dəyərləndirilirdi. Əsas narrativ isə bu idi – görürsünüz, onlar razılaşmır, onlara separatçılara şərti müstəqillik verilməsi müqabilində nəsə təklif olunur, amma onlar razılaşmırlar.

Bizim beynəlxalq hüquqa əsaslanan arqumentlərimiz – BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən 4 qətnaməsi, Minsk qrupunun həmsədrlərinin bu qətnamələrə səs verməsi – bunların hamısı reallıqla barışmaq tələbini ehtiva edən təkəbbürlü bəyanatlar fonunda cavabsız qalırdı. Biz də qərar verdik ki, yeni reallıqlar yaradacağıq və siz onlarla barışmalı olacaqsınız. Elə də oldu. Biz yeni reallıqları 2020-ci ildə 44 gün ərzində yaratmağa başladıq. Onlar bununla barışmağa məcbur oldular. Daha sonra 2023-cü ilin sentyabrında bir gün ərzində. Bununla da barışmağa məcbur oldular.

Ona görə də sualınıza bir qədər geniş cavab verirəm ki, əvvəldə dediyim məqamı izah edim. Əvvəldə dediklərim sadə və ya bəhanə kimi görünə bilər. Amma bunun arxasında bizim həm müharibədə, həm danışıqlar masasında, həm də suverenliyimizi tam bərpa etdikdən sonra yaşadıqlarımız dayanır. Əgər xarici aktorların bizə qarşı təhdidləri, təzyiqləri, şantajları barədə danışsam, bu, çox da xoş mənzərə olmaz. Bunu danışmaq üçün ayrıca görüşə ehtiyac var.

Amma əvvəl dediyimə qayıdıram: heç vaxt təslim olmamaq və heç vaxt ərazi bütövlüyünün pozulması ilə barışmamaq. Baxın, Özbəkistandan olan dostumuz atam haqqında sual verdi. Bilirsiniz, o da bizim hamımız kimi bu günü - Qarabağa qayıtdığımız günü görmək istəyirdi. Amma bu, ona nəsib olmadı. Bu əraziləri azad etməzdən əvvəl mən 17 il Prezident olmuşam. Əgər imkan yaranmasaydı, bəlkə də daha 17 il gözləyəcəkdik. Burada məsələ mənlik deyil. Hesab edirəm ki, bu da ukraynalılar üçün vacibdir. Məsələ şəxsiyyətdə deyil, məsələ ambisiyada deyil. Məsələ ondadır ki, bizdən əvvəl yaşamış nəsillər və bizdən sonra yaşayacaq nəsillər qarşısında məsuliyyət hiss etməliyik.

Əgər bilsəydim ki, torpaqları geri qaytara bilməyəcəyik, biz bəlkə də daha 17 il gözləyəcəkdik, sonra yenə 17 il. O zaman artıq mən olmayacaqdım və bu, vacib olmayacaqdı. Mən mənəvi baxımdan hazır idim ki, bunu kimsə başqa biri edəcək. Amma başa düşürdüm ki, əgər mən etməsəm, yəqin ki, bunu heç kim edə bilməz. Bu, bəlkə də çox iddialı səslənə bilər, amma bu, sadəcə, mənim fikirləşdiyim idi və xatirələrimi bölüşürəm.

Daha bir son fikir. Ədalətə inamım demək olar ki, itmişdi, keçmiş köçkün vətəndaşlarımız kimi. Onlarla daim görüşür və deyirdim ki, "inanın, biz qayıdacağıq". Amma hər il onların gözlərində inamın azaldığını görürdüm. Axı, gözlər hər şeyi deyir. Onlar mənə deyə bilərlər ki, bəli, inanırıq, amma gözlər hər şeyi deyir. Mənim də inamım az idi, ədalətə inamım. Amma bizim Qələbəmiz, – bu, ədalətli və tam qələbədir, – göstərdi ki, ədalət var, sadəcə, ona nail olmaq lazımdır. Bu ədaləti əldə etmək üçün hər gün işləmək, hər gün qələbəyə yaxınlaşmaq lazımdır. Əgər son qərar səndən asılıdırsa, həyatını bu işə həsr etməlisən. Yalnız bu halda bu, baş verə bilər.

Əlbəttə, ən vacib amil cəmiyyətin həmrəyliyidir. Həmrəyliyin Prezident, Ali Baş Komandan olaraq mənə verdiyi mənəvi güc çox böyük idi. Əmin idim ki, xalq mənim arxamda dayanacaq. Bu da yəqin ki, həlledici amillərdən biri oldu.

Odur ki, əvvəldə dediyimə qayıdıram – heç vaxt təslim olmamaq!

**Moderator Ceyn Viterspun:** Mixail Qusman, Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini.

**Mixail Qusman: Hörmətli İlham Heydər oğlu, hər vaxtınız xeyir. Sizi salamlamaq istəyirəm. Təşəkkür edirəm ki,**



**bu gün biz Xankəndidəyik. Forum Şuşa adlansa da, mən qırx il əvvəl sonuncu dəfə bu şəhərdə olmuşam. Yəqin ki, həmkarlarım, həmyerlilərim vəziyyətimi başa düşərlər.**

**Bilirsiniz, axırıncı Forumda Siz dəqiq müəyyən etdiniz, çünki mən Miluokidən təzəcə qayıtmışdım. Siz yanvarın 20-də Ağ evdə kimin olacağını dəqiq müəyyən etdiniz. O vaxt dəqiq dediniz və belə də oldu. Siz hətta Azərbaycanın ABŞ-la, bu administrasiya ilə münasibətlərinin daha yaxşı olacağını ehtimal etdiniz. Bu barədə Prezident Trampın ölkənin Müstəqillik Günü münasibətilə təbriki əsasında da fikir yürütmək olardı.**

**Sualım bir az genişdir. Bu gün Azərbaycan, fikrimcə, tamamilə nadir xarici siyasət yürüdür. Başqa hansı dövlətlə müqayisə oluna biləcəyini də bilmirəm. Bütün beynəlxalq azimutlarda, mən Rusiyadan başlayacağam, son zamanlar nə Rusiyada, nə də Azərbaycanda geniş ictimaiyyətin müsbət reaksiyasına səbəb olma ehtimalı az olan, mənim dediyim kimi, son zamanların "çalxalanmalarına" baxmayaraq, 2022-ci il fevralın 22-də Moskvada imzaladığınız müqavilənin əsasları heç bir şübhə doğurmur. Bu, aydındır.**

**Mən ABŞ haqqında danışdım. Türkiyə ilə münasibətlər Şuşa Bəyannaməsinə əsaslanır. İran Prezidenti cəmi bir neçə gün əvvəl bu zalda idi. Avropa komissarları elə həftə olmur ki, burada olmasınlar. Mən bunları sadalaya bilərəm, o cümlədən Çinə səfəriniz, Qoşulmama Hərəkatındakı rolunuz və sairə. Bunda müəyyən bir fenomen var, onu dünyada heç də hamı başa düşmür. Mənə elə gəlir ki, dünyada heç də hamı bunu layiqincə qiymətləndirmir. Bununla bağlı sadə bir sualım var. Başa düşürəm ki, Sizin bunu necə bacardığınızı soruşmaq virtuoz skripkaçıdan skripkada necə ifa etdiyini soruşmaq kimidir. O deyəcək: "Mən skripkanı, onun yayını götürürəm və ifa edirəm". Amma Sizin siyasətiniz müəyyən, mənə elə gəlir ki, çox aydın, çox yaxşı düşünülmüş siyasi prinsiplərə əsaslanır ki, bu çoxvektorlu siyasəti həyata keçirməyə imkan verir.**

**Siz Prezident Əliyevin, zənnimcə, belə uğurlu xarici siyasət yürütməsini şərtləndirən 5-7 təməl siyasi prinsiplərini deyə bilərsinizmi? Sağ olun.**

**Prezident İlham Əliyev:** Sağ olun. Mən bir dəfə avropalı həmkarlarımla qapalı görüşdə, hələ 2020-ci ildən sonra, amma 2023-cü ildən əvvəl, vəziyyət müzakirə olunanda, burada, Xankəndidə hələ də separatçılar olanda bildirmişdim ki, - o qədər uzun söhbət gedirdi, - mən bir dəfə dedim ki, bunu açıq, üz-üzə demişəm, yəni, yox, xalqıma heç vaxt yalan söyləmirəm. Beləcə də dedim. Bu, əslində, doğrudur. Amma sualınıza cavab olaraq, mən beynəlxalq həmkarlarıma da heç vaxt yalan danışmamağa çalışıram. Əlbəttə, imkan daxilində. Hesab edirəm ki, biz obyektiv və dürüst olmalıyıq, yalan danışmamalıyıq. Düşünürəm ki, bu, yəqin ki, əsas prinsiplərdən biridir: ilk növbədə öz xalqıma həqiqəti söyləmək. İnternet və sosial şəbəkələr dövründə yaşadığımız üçün burada dediyiniz hər şey dərhal bütün dünyada rezonans doğurur.

Düşünürəm ki, bu, mənim Prezident vəzifəsində əldə etdiyim çoxillik əvəzsiz təcrübə ilə bağlıdır və onu başqa cür əldə etmək mümkün deyil. Həm də belə etibarlı münasibətlərin qurulduğu, etimad göstərə biləcəyiniz zaman. Güvənmək razılaşmaq demək deyil, etimad göstərmək nədənsə müəyyən dərəcədə narazı olmaq və ya müsbət gündəmdən başqa bir şeyə sahib olmaq demək deyil. Güvənmək, sadəcə olaraq inanmaq deməkdir ki, əgər bir insan bunu deyibsə, deməli belə olacaq.

Fikirləşirəm ki, bu, bizə beynəlxalq nüfuz qazanmağa imkan verən amillərdən biridir. İkinci amil, məncə, heç də az əhəmiyyət kəsb etmir. Bu, həmişə haqlı olaraq qeyd etdiyiniz kimi, prinsiplərə, konkret olaraq beynəlxalq hüququn universal prinsiplərinə riayət etməkdir. İstənilən vəziyyətdə, istər siyasi, istərsə də başqa üstünlüklərdən asılı olmayaraq, biz həmişə onlara sadiq olmuşuq. Biz özümüz də separatizmdən və işğaldan əziyyət çəkən bir ölkə kimi sadəcə olaraq dünyanın heç bir yerində analoji vəziyyətlərə münasibətimizi başqa cür ifadə edə bilmədik. Ona görə də beynəlxalq hüquqa və BMT Nizamnaməsinə sadiqlik həm də fundamental amildir və hesab edirəm ki, Azərbaycanın beynəlxalq aləmdə layiqli yer tutmasına imkan verib.

Düşünürəm ki, Azərbaycan coğrafiyası, - mən bu haqda artıq danışmışam, - bu, təbii ki, dərmanlar kimi, kimin əlində olmasından asılı olaraq, müəyyən dərəcədə bəlkə də təhlükəli, bəlkə də çox faydalı bir amildir. Buna görə də özlərini risklərdən qorumaq üçün coğrafiyadan istifadə edirlər. Azərbaycana gəlincə, ölkəmizdə risklərin daxili mənbələri yoxdur. Bütün potensial risklər bizim sərhədlərimizdən kənarda formalaşa bilər. Ona görə də sürprizlərdən, fəaliyyətimizlə bağlı olmayan bəzi risklərdən qorunmaq da vacib idi və bu məsələdə coğrafiyanın mühüm rolu olub. Azərbaycan, eyni zamanda, həm Avropa, həm də müsəlman təşkilatlarının üzvü olan və Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, ECO və bir çox başqa qurumlar vasitəsilə sammit formatlarında fəal iştirak edən azsaylı ölkələrdən biridir. Azərbaycanın nüfuzunu vurğulayan daha bir mühüm amil, deyərdim ki, D-8 Təşkilatına yeni üzv olan ilk və yeganə ölkə olmasıdır. Vaxtilə Türkiyənin, Pakistanın, Misirin təşəbbüsü ilə yaradılan və hazırda müsəlman dünyasının əhalisinə, potensialına görə ən böyük səkkiz dövlətini birləşdirən təşkilat hələ bir çox onilliklər əvvəl yarandığı gündən indiyədək yeni üzv qəbul etməyib. Azərbaycan yekdilliklə qəbul edilən yeganə ölkədir.

Düşünürəm ki, sualınıza sonsuz cavab vermək olar, ona görə də burada dayanacağam. Əlbəttə ki, hər kəs üçün vacibdir: öz maraqlarını nəzərə alanda qonşunun da maraqlarına baxmaq. Yəni, milli maraqların qorunması Azərbaycanın xarici siyasətində fundamental amildir, lakin regional və qlobal kontekstdən ayrılaraq bu amildən güclü sui-istifadə etmək olmaz. Həmişə vəziyyətə baxmaq lazımdır, vəziyyətə qonşunun prizmasından baxmağa çalışın. Onda çox şey aydınlaşır, belə olan halda anlaşılmazlığa səbəb olan bir çox məsələlər kifayət qədər səmərəli nizamlanır. Ona görə də belə bir suala görə sizə minnətdaram.

Yeri gəlmişkən, kiçik bir aydınlıq gətirmək istərdim. Mən Trampın qələbəsini proqnozlaşdırmırdım. Sadəcə dedim; onun bizim kimi fundamental dəyərləri, o cümlədən ailə dəyərlərini bölüşdüyünü nəzərə alsaq, Azərbaycan xalqı üçün daha yaxşı olardı. O, müharibələrə başlamamış yeganə ABŞ Prezidentidir. Həm də hakimiyyətdə olduğu qısa müddətdə müharibələrə son qoyan bir adam olduğu aydın görünür. Biz, həmçinin Azərbaycana və Ermənistana son nəticədə razılığa gəlməyə kömək etmək səylərinə görə ona çox minnətdarıq. O, beynəlxalq təhlükəsizik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır. Əlbəttə, onun qələbəsi bir sıra səbəblərdən Azərbaycanda bizi çox sevindirir. Təbii olaraq, arzulayırıq ki, o, işini sona çatdırsın, "Vaşinqton bataqlığı"nı dibinə qədər qurutsun.

**Moderator Ceyn Viterspun:** Çinin Sinxua agentliyinin Bakı ofisinin nümayəndəsi Zhong Zhong, buyurun.

**Zhong Zhong: Salam, cənab Prezident. Əvvəlcə Sizə təşəkkür etmək istəyirəm ki, Çinə səfəriniz ərəfəsində Sinxua agentliyinə müsahibə verdiniz. Bu müsahibə Çində çox böyük maraqla qarşılandı. Düzünü desək, Siz artıq Azərbaycanın ən parlaq şəxsiyyətinə çevrilmisiniz. Aydındır ki, səfərinizdən sonra ölkələrimiz arasında təmaslar daha da intensivləşdi. Demək olar ki, hər gün iki ölkə arasında yeni əməkdaş-**



**lığa dair xəbərlər eşidirik. Bu baxımdan sualım belədir: Azərbaycan ilə Çin arasındakı mövcud münasibətləri necə qiymətləndirirsiniz? Əməkdaşlığımızın perspektivləri nədən ibarətdir? Qarabağa Böyük Qayıdış çərçivəsində Çin şirkətləri hansı sahələrdə iştirak edə bilər? Çox sağ olun.**

**Prezident İlham Əliyev**: Təşəkkür edirəm. Mən ölkələrimiz arasında əməkdaşlıq səviyyəsini yüksək qiymətləndirirəm. Son dövrlərdə Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinlə dəfələrlə görüşmək imkanım olub. Bu il dövlət səfərim zamanı və ötən il beynəlxalq sammit çərçivəsində görüşlərimiz baş tutub, həmçinin iki mühüm sənədi qəbul etdik və imzaladıq. Ötən il bu sənəd "Strateji tərəfdaşlıq haqqında Bəyanat", bu il isə "Hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" olmuşdur. Bu sənədlər dövlətlərarası münasibətlərin ən yüksək formalarını əks etdirir. Çin Xalq Respublikası ilə bu səviyyədə qarşılıqlı etimada əsaslanan münasibətlər qurmağımız bizi çox sevindirir.

Həmçinin deməliyəm ki, cəmi bir neçə gün əvvəl ümumvətəndaş pasportları ilə Çinə səfər etmək istəyən Azərbaycan vətəndaşları üçün viza rejimi tamamilə aradan qaldırıldı. Biz isə öz növbəmizdə bir il əvvəl Çin vətəndaşları üçün viza rejimini ləğv etmişik. Düşünürəm ki, bu addım xalqlarımız, tələbələrimiz və iş adamlarımız arasında təmasların daha da intensivləşməsinə səbəb olacaq.

Azərbaycanla Çin hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib. Azərbaycan açıq şəkildə bildirir ki, Çin Xalq Respublikasının Tayvan və digər məsələlər ilə bağlı mövqeyini dəstəkləyir. Bizim mövqeyimiz olan "vahid Çin" siyasəti Çin rəhbərliyinə və xalqına yaxşı məlumdur.

Ticarət dövriyyəsinin artırılmasına dair böyük planlarımız var. Hazırda bu istiqamətdə böyük potensial mövcuddur. Artıq Çinin bir çox şəhərlərindən Azərbaycana və Azərbaycan ərazisindən Qərbə konteyner qatarları göndərilir. Bu qatarların sayı ildən-ilə hətta onlarla faiz artmaqdadır. Hesab edirəm ki, yaxın zamanda bu göstəricilər dəfələrlə artacaq. Biz cənab Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü əvvəldən dəstəkləmişik və bu məqsədlə ölkəmizdə uyğun nəqliyyat-logistika infrastrukturunu hazır etmişik.

Çin şirkətləri Günəş elektrik stansiyalarının tikintisi layihələrinin reallaşmasında podratçı qismində fəal iştirak edirlər. İnvestor şirkətlər tərəfindən alınan Günəş panelləri Çin istehsalıdır. Son dövrlərdə biz, həmçinin Çin şirkətləri ilə bərpaolunan enerji – Günəş və külək enerjisi sahəsində əməkdaşlığa başlamışıq. Artıq müvafiq sazişlər imzalanıb və düşünürəm ki, bu sahə də qarşılıqlı faydalı əməkdaşlığımıza mühüm töhfə verəcək.

Yəni, münasibətlərimiz çox möhkəmdir. Həm dövlət başçıları, həm də nazirlər səviyyəsində çox fəal siyasi dialoq aparılır. Çinin müxtəlif regionları ilə də çox sıx əməkdaşlıq qurulub. Artıq Çində Azərbaycanın bir neçə ticarət evi fəaliyyət göstərir. Bu istiqamətdə böyük perspektivlər görürük.

Nəqliyyat-logistika layihələri ilə bağlı dediyim kimi, Çin Xalq Respublikası tərəfindən Mərkəzi Asiyada maliyyələşdirilən yeni dəmir yolu arteriyaları Xəzər dənizindən Azərbaycana və daha sonra beynəlxalq marşrutlar üzrə yük axınlarının həcminin artmasına şərait yaradacaq.

Sualınıza görə təşəkkür edirəm. Xoş gəlmisiniz.

**Moderator Ceyn Viterspun:** Növbəti sual üçün sözü AnewZ-un Vaşinqton müxbiri Oubai Şahbandara veririk.



**Oubai Şahbandar: Cənab Prezident, mən Azərbaycanın Birləşmiş Ştatlarla münasibətlərinə dair sual vermək istəyirəm. Bir il əvvəl Siz Şuşa Forumunda Prezident Trampın birinci prezidentliyi dövründə onun müharibələrə getməmək irsini tərif formasında vurğuladınız. Təbii ki, Siz ənənəvi dəyərlər məsələsini qeyd etdiniz və bildirdiniz ki, o vaxt namizəd olan Prezident Tramp Sizin də şərik çıxdığınız xüsusi siyasətə önəm verir. Bir il keçdikdən sonra Prezident Tramp seçkidə birmənalı şəkildə qalib gəldi. Bu, Azərbaycan-ABŞ münasibətlərində potensial qaydada yeni era hesab edilə bilərmi? Amerika və Azərbaycan yenidən böyük dost ola bilərlərmi?**

*(ardı 4-cü səhifədə)*

# III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş keçirilib

(əvvəli 3-cü səhifədə)

**Prezident İlham Əliyev:** Əslində, biz buna ümid edirik və düşünürəm, hazırda Tramp Administrasiyasının nümayəndələri ilə qarşılıqlı fəaliyyətin bir neçə ayı aydın şəkildə göstərir ki, biz düz yoldayıq. Biz normal münasibətlərə qayıdırıq. Bilirsiniz, əvvəlki ABŞ Administrasiyası demək olar ki, ABŞ-Azərbaycan əlaqələrini heçə endirmişdi. Dövlət Departamentinin yüksəkrütbəli rəsmiləri açıq söyləyirdilər ki, Azərbaycanla bir daha işlər adi qaydada gedə bilməz və bu, suverenliyin və ərazi bütövlüyünün tərəfimizdən bərpa olunması ilə bağlı idi. Təsəvvür edə bilərsinizmi? Birləşmiş Ştatlar öz suverenliyini bərpa etmək üçün Ukraynanın səylərini güclü şəkildə dəstəkləyirdi və dəstəkləyir, lakin biz öz suverenliyimizi bərpa etdikdə onlar bəyan etdi ki, işlər artıq adi qaydada aparıla bilməz və bunları Dövlət Departamentinin yüksəkrütbəli rəsmisi deyirdi. Prezident Baydenin Administrasiyası tərəfindən atılmış və qeyri-dost hesab etdiyimiz bir çox digər addımlar münasibətlərin korlanmasında, əslində, əsas meyar idi. Əlbəttə, Prezident Bayden hər il etdiyi kimi, Azadlığa Dəstək Aktının 907-ci düzəlişinin dayandırılmasından uzaqlaşaraq, bu cür qərarı yenidən qəbul etmədiyini biz çox ciddi nəzərə aldıq, çünki biz onlara Əfqanıstanda lazım olduğumuz zaman, o və onun sələfləri həmin düzəlişin qüvvəsini əvvəllər dayandırırdı. Əfqanıstanda biz onlara artıq lazım olmadığımız dövrdə onlar 1992-ci ildə qəbul olunmuş sanksiyaları Azərbaycana qarşı yenidən tətbiq etdilər. Beləliklə, 1992-ci ildə ABŞ Konqresinin Azərbaycana qarşı qəbul etdiyi sanksiyalar onunla bağlı idi ki, Azərbaycan Ermənistanı blokadaya alır və bu, Prezident Trampın dediyi kimi, saxta xəbərlər əsasında olan məsələ idi. Biz Ermənistanı blokadaya almamışdıq. Ermənistan ərazimizi işğal etmişdir, lakin ABŞ Konqresində ermənipərəst lobbinin fəaliyyəti nəticəsində həmin sanksiyalar tətbiq edildi. 2001-ci ildə biz ABŞ-a Əfqanıstandakı missiyasında lazım olduğumuz zaman Prezident və ovaxtkı bütün prezidentlər həmin sanksiyanın qüvvəsini dayandırırdı. Amma Prezident Bayden onu yenidən tətbiq etdi. Beləliklə, indi biz hazırda Birləşmiş Ştatlarla güclü tərəfdaşlıq münasibətləri üçün böyük potensialı görürük. Biz Vaşinqtondan çox müsbət mesajlar almışıq və Azərbaycandan gedən mesajlar da çox müsbətdir. Bizim enerji təhlükəsizliyi və bütövlükdə, təhlükəsizlik və daşımalara aid sahələrdə güclü tərəfdaşlıq tariximiz var. Artıq dediyim kimi, biz ABŞ-la İraqda və Əfqanıstanda onlara lazım olduğumuz zaman olmuşuq və hərbi qulluqçularımız onlarla çiyin-çiyinə xidmət edib. Gözləntimiz böyükdür və ümid edirik ki, yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldıracaq mühüm hadisələr olacaq. Düşünürəm ki, bu, tamamilə təbiidir, çünki bir çox məsələlər bizi, xüsusən də cənab Trampın Administrasiyası ilə birləşdirir. Yeri gəlmişkən, onun ilk prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətləri çox müsbət olmuşdur. Fikrimcə, artıq gördüyünüz və söylədiyim həmin müsbət tendensiyaların davamı olacaq. Hazırda o, bütöv qlobal məsələlərlə və müharibələrin dayandırılması ilə çox məşğuldur. Lakin eyni zamanda o, Cənubi Qafqaz prosesində fəal iştirak edir və uzunmüddətli münaqişənin həllinin tapılması üçün Azərbaycana və Ermənistana yardım etməkdə əla iş görür. Beləliklə, düşünürəm ki, gələcəkdə daha çox yaxşı xəbərlərimiz olacaq.

**Moderator Ceyn Viterspun:** Sağ olun. Cənab Agha Iqrar Haroon, DND Xəbərlər Agentliyinin rəhbəri, buyurun.

**Agha Iqrar Haroon: Çox sağ olun. Cənab Prezident, əvvəlcə Pakistanın üzləşdiyi çətin anlarda gördüyünüz işlərə görə**



**Sizə təşəkkürümü bildirmək istəyirəm. Siz, bütün ölkəniz və xalqınız təcavüz zamanı Pakistanın yanında oldunuz. Bunu heç zaman yaddan çıxarmayacağıq. Buna görə çox sağ olun.**

**Sualım, əsasən, bizim rusiyalı və ukraynalı dostlarımız arasında olan məsələyə aiddir. Cavabınızı bilmək istərdim. Siyasi fəlsəfənin tədqiqatçısı kimi görürəm ki, Azərbaycan çox rəvan, lakin qəti şəkildə beynəlxalq danışıqların və vasitəçiliyin qovşağına çevrilir. Siz bu yaxınlarda İsrail və Türkiyə arasında vasitəçi oldunuz. Ondan əvvəl isə Rusiya ilə NATO arasında görüşə ev sahibliyi etdiniz. Düşünürəm ki, bu məsələlər çox əhəmiyyətlidir. Lakin Sizdən həmin uğur hekayəsinin arxasında dayanan meyarların düsturunu soruşmazdan əvvəl bir məsələni qeyd etmək istərdim. Siz ECO-nu qeyd etdiniz. ECO o qədər də operativ və ya qeyd etdiyiniz kimi, o qədər də uğurla çalışmadı. Belə mühüm regional təşkilatın süstlüyü arxasında nə kimi meyarlar dayana bilər? Ukrayna ilə Rusiya arasında münaqişənin heç olmasa dayanması üçün rol oynaya bilərsinizmi? Çox sağ olun.**

**Prezident İlham Əliyev:** Çox sağ olun. Biz yalnız dəvət olunan zaman məsələyə qoşuluruq. Əgər dəvət olunmuruqsa, biz öz yerimizdə qalırıq. Kiminsə dəvətsiz getdiyi kimi biz getmirik. Əgər dəvət olarsa, düşünürəm ki, biz lazımi vasitəçilik edə bilərik. Amma gərək xahiş edilsin.

ECO-ya gəldikdə, razıyam ki, bu təşkilatın çox böyük potensialı var və Xankəndidə Zirvə görüşündə biz bu təsisata yeni bir ölçü gətirmək istədik. Zirvə görüşündən əvvəl mən Baş katib cənab Xan ilə görüşdüm, - bildiyiniz kimi, o, pakistanlıdır, - razılığa gəldik ki, bu dəfə müxtəlif forumlar keçiriləcək. Onların hamısı burada, azad edilmiş ərazilərdə, biri Şuşada, digəri Ağdamda və üçüncüsü isə Laçında təşkil olundu. Biznes, Qadınlar və Gənclər forumları baş tutdu. Sonra isə həmin forumların təmsilçiləri Zirvə görüşündə dövlət başçıları qarşısında müzakirə etdikləri və razılaşdırdıqları məsələlər barədə hesabat verdilər.

Beləliklə, bizə lazımdır ki, ECO daha güclü və səmərəli olsun, çünki ölkələrin potensialını real qaydada bilirik. Üzv dövlətlər arasında daha fəal və o qədər fəal olmayan ikitərəfli münasibətlər var, lakin bizə çoxtərəfli yanaşma lazımdır. Bu baxımdan, düşünürəm ki, Azərbaycanın səyləri qiymətləndirildi. Həmin öhdəliyi biz sədr kimi üzərimizə götürdük və əminəm ki, işlər uğurlu olacaq. Bizim ECO-dan xeyli böyük olan təsisatlarda, o cümlədən Qoşulmama Hərəkatında zəngin sədrlik təcrübəmiz var. Üç il ərzində fəaliyyətimiz o qədər yaxşı oldu ki, üzv dövlətlər yekdil olaraq sədrliyimizi bir il də artırmaq qərarına gəldilər. Beləliklə, dörd il ərzində sədr olduq və Qoşulmama Hərəkatına çox dinamika gətirdik. Biz hazırda işləyən Parlament Şəbəkəsini yaratdıq, Qadınlar və Gənclər platformalarını təsis etdik. Bir sözlə, beynəlxalq təşkilatı daha güclü və hərtərəfli edən işlərin hamısını gördük. Bizdə həmin mexanizmlər var. Biz və bir çox digər ölkələr müxtəlif beynəlxalq təsisatlarda iştirak edirik, lakin bəzən həmin beynəlxalq təsisatlarda həmrəylik çatışmır. Bir sözlə, əlimizdən gələni edəcəyik.

Xarici siyasətimizə gəldikdə deyərdim ki, onun istiqaməti dəyişməyib, lakin forması dəyişib. Səbəb ondadır ki, Qarabağ münaqişəsi tarixdə qaldıqdan sonra bizim işğal zamanı etmədiyimiz məsələlərə indi daha çox vaxtımız var. Bir halda ki, münaqişə həll olunub, vaxt qalır. Bununla belə, bütün sonsuz danışıqlar, Minsk qrupu üçlüyünün bütün mənasız səfərləri çox vaxt aparırdı. O zaman vaxtımız qalmırdı və digər məsələni həll etmək potensialımız olsa da, onunla məşğul olmurduq. Bütün xarici siyasətimiz təbii olaraq ərazi bütövlüyümüzün bərpasına yönəlirdi. İndi məsələ həll olunduqdan sonra biz beynəlxalq arenada daha fəalıq və qeyd etdiyiniz kimi, müxtəlif ölkələr arasında vasitəçilik səylərimiz bunun yalnız bir hissəsidir. Biz beynəlxalq ictimaiyyətin həqiqətən fəal üzvünə çevrilmişik. Fərqli beynəlxalq iştirakçılarla güclü əlaqələrə malik olan ölkəmiz ən azı geniş regionda daha mühüm rol oynaya bilər və oynayacaq. Geniş region dedikdə, mən Cənubi Qafqazı, Orta Şərqi, Mərkəzi Asiyanı və Azərbaycanın yaxınlığında olan bütün yerləri nəzərdə tuturam. Həmçinin Avropa da ola bilər, çünki Avropa İttifaqı ilə gündəliyimiz deyərdim ki, yenidən başlama prosesindədir. Həmçinin əvvəlki Avropa Komissiyası ilə çətin anlar olub, lakin indiki yeni Komissiyadan, onun rəhbərliyindən müsbət mesajlar alırıq. Birmənalı olaraq, biz də müsbət cavab veririk.

**Moderator Ceyn Viterspun:** Sağ olun. "Berliner Verlag" qəzetinin redaktoru Holger Fridrix buyurun, sualınızı verin.

**Holger Fridrix**: **Təşəkkür edirəm, cənab Prezident və hörmətli həmkarlar. Dəvət üçün minnətdaram. Mən Almani-**



**yadan, Berlindən gəlmişəm və görünür ki, Avropanın Qərb ölkələrində Azərbaycanla bağlı bir az ziddiyyətli rəy var. Şəxsi müşahidəm göstərir ki, son bir neçə il ərzində bu regionda, Özbəkistanda, Qazaxıstanda və hətta Azərbaycanda tam başqa hadisələr gedir. Əksinə, region çox inkişaf edir, dinamikdir, yüksək mədəniyyətə və böyük planlara malikdir. Hətta Ermənistanla münaqişəyə gəldikdə məsələ çözülür. Avropaya baxsaq isə hələ əfsuslar ki, həll variantı yoxdur. Sualım belədir, Siz siyasi lidersiniz, Azərbaycana görə məsuliyyət daşıyırsınız. Əgər Siz Qərbi Avropada ictimai rəyə təsir etmək arzusunda olsaydınız, Azərbaycan haqqında hansı təəssüratın olmasını istəyərdiniz? Mən medianı yox, ictimai rəyi nəzərdə tuturam. Bu haqda nə düşünürsünüz?**

**Prezident İlham Əliyev**: Bəli, siz bunu məndən yaxşı bilirsiniz ki, ictimai rəyə əsasən media təsir edir, xüsusən də tanımadığınız ölkə haqqında təhlilə gəldikdə. Sizin rəyiniz media əsasında formalaşır və siz çox diplomatik söz işlətdiniz: "ziddiyyətli". Buna görə minnətdaram. Lakin tam açıq danışsaq, Qərbin ictimai rəyi və Qərb mediasının təsiri Azərbaycana gəldikdə çox mənfi və ədalətsizdir. Biz çalışdıq bunu dəyişək, amma alınmadı. Ona görə yox ki, biz fəal deyilik, biz çox fəalıq. Səbəb ölkəmiz haqqında müxtəlif saxta hekayətlərin söylənilməsi və şayiələrin yayılmasında, Azərbaycanı qara rəngdə təsvir etməsi üçün diktə edən Avropanın siyasi spektrində olan bəzi qaydalarda və prosedurlardadır. Bunun bir neçə səbəbi mövcuddur. Onlardan birini yaddan çıxarmalı deyilik. O, ABŞ-da çox fəal olan birləşmiş erməni lobbi qruplarıdır. Siz və biz bilirik ki, Qərbdə, o cümlədən Almaniyada bəzi media ABŞ-ın təsiri altındadır. Yəni, erməni mediasının təsiri ilə anti-Azərbaycan dairələrindən reportajlar daxil olanda, birmənalı olaraq, biz Azərbaycana qarşı ümumi media hücumunu görürük. Biz bununla artıq bir neçə dəfə rastlaşmışıq. Mən bunu böyük beynəlxalq tədbirlər ərəfəsində dəfələrlə görmüşəm. Birincisi, 2015-ci ildə Azərbaycanda ilk Avropa Oyunları keçiriləndə oldu. O vaxt biz saxta hekayətlər, hücumlar və Qərb mediasının müxtəlif qarayaxma cəhdlərinin hədəfinə çevrildik. Sonuncu misal COP29 idi. Həmin vaxt Qərbin aparıcı mediasında gündə ən azı, ola bilsin 7 və ya 10 məqalə çıxırdı. Prezident Tramp onları saxta xəbər adlandırır. Məsələn, "Washington Post", "New York Times", "Newsweek", yaxud Fransanın "Le Monde" və "Figaro" kimi mətbuat orqanları. Bunlar Azərbaycanı gözdən salmaq üçün əlaqələndirilmiş, təşkil olunmuş hücumlar idi. Birinci səbəb isə erməni lobbisinin ayaq alması oldu. İkincisi, bilirsiniz, biz ölkəmizin potensialını bilirik. Azərbaycanın müxtəlif sahələrdə əhəmiyyətini bilirik və vaxt keçdikcə gücümüz də artır. Əlbəttə, Qərbdə bəzi dairələrdə böyük məyusluq var idi ki, Azərbaycan həddindən artıq müstəqil siyasət aparır, təlimatlarımıza qulaq asmır, məsləhətlərimizə məhəl qoymur və istədiyini edir. Əgər biz həmin məsləhətləri dinləsəydik, ola bilsin, bu gün ölkəmiz ən azı iki qonşusu ilə müharibədə idi. Əgər məsləhətləri dinləsəydik, biz Qarabağı heç zaman qaytara bilməzdik. Əgər məsləhətləri dinləsəydik, bu gün ola bilsin BVF-dən və onun "parçala və hökm sür" strategiyasından asılı olardıq. Bir sözlə, biz məsləhətlərə qulaq asmadıq. Güclü ölkəni, güclü iqtisadiyyatı qurduq. Xarici borcumuzu ÜDM-in 6,9 faizinə qədər azaltdıq. Bizi tənqid edənlərin xarici borcu ÜDM-in 100 faizindən çoxdur. Biz yoxsulluğu 49 faizdən 5 faizə endirdik. Mən Fransada yoxsulluq haqqında danışmaq istəmirəm. Məncə, təxminən 16 faizdir. Bax, beləcə oldu. Biz öz həyatımızı yaşayırıq, öz iradəmizi təlqin etmirik. Biz avropalılara özünü necə aparmağı, necə evlənməyi və necə yeməyi öyrətmirik. Lakin eyni münasibəti də özümüz üçün istəyirik. Biz hörmət istəyirik. Biz istəyirik həyatımıza, torpağımıza anlayışla yanaşsınlar və biz Azərbaycan xalqının bizdən istədiyini edirik. Beləliklə, səmimi desək, biz Avropada ictimai rəyə təsir göstərmək səylərimizi də artıq kənara qoymuşuq. Biz bunun vaxt itkisi olduğunu düşünürük. Lakin ən yaxşı yol belə tədbirlərin keçirilməsidir. Burada jurnalistlər, media, 50-dən çox ölkədən liderlər toplaşıb və hər il auditoriya daha da böyüyür, yeni qonaqlar gəlir. Odur ki, ən yaxşı yol bizi tərifləmək deyil, ən yaxşı yol buraya gəlməyiniz və insanlarla danışmağınızdır. İnsanların mənim, hökumət, inkişaf haqqında nə düşündüklərini öyrənməkdir. Sonra yalnız bir şey lazım olacaq, auditoriyaya həqiqəti söyləmək. Düşünürəm ki, bu, qarşılıqlı anlaşmanı qat-qat yaxşılaşdıracaq. Təşəkkür edirəm.

**Moderator Ceyn Viterspun:** "Qafqaz xəbərləri" kanalının müəllifi və aparıcısı Qela Vasadze, buyurun.

**Qela Vasadze: Cənab Prezident, hər vaxtınız xeyir. Daha bir - artıq üçüncü**



**Şuşa Media Forumu adlanan tədbirə görə çox sağ olun. Həqiqətən də böyük zövq mənbəyi olan bir tədbirdir. Hazırladığım bir sıra suallar artıq verilib. Hər halda sual verəcəyəm. Mənim hələ də suallarım var, il ərzində onlar kifayət qədər yığılıb. Əbu-Dabidəki görüş haqqında. Əbu-Dabidəki görüşdən sonra, düzünü desəm, yanımda əyləşən dostum Fərhad Məmmədova davamlı olaraq deyirdim. Biz tanış olanda dedim ki, Fərhad, hər şeydən danışa bilərik, amma gəlin, bir məsələdə razılaşaq: Azərbaycanla Gürcüstanın milli maraqları, strateji maraqları tamamilə üst-üstə düşür. Əbu-Dabidəki görüşdən sonra düşündüm: necə olur ki, Ermənistanın və Azərbaycanın milli maraqları bir-birinə bu qədər ziddiyyət təşkil edir? Strateji cəhətdən ziddiyyət nədədir? Düzünü desəm, mən bu ziddiyyətləri görmədim. Çünki Ermənistanın maraqları Azərbaycanın maraqları ilə eynidir - normal qonşusu, tərəfdaşı olsun və bunu inkişaf etdirsin. Biz artıq o yerə gəlib çatmışıq ki, bu maraqlar dərk edilib. Əslində, bizdə belə bir mənzərə formalaşıb ki, xarici qüvvələr, - mən bəzi ölkələri nəzərdə tuturam, - sadəcə, konkret maraqları olan insanlardan ibarət qrup ölkələrimizə və adamlara burada – regionda yaşamağa mane olur. Sağ olun.**

**Prezident İlham Əliyev:** Sağ olun. Zənnimcə, bu kontekstdə, bu tarixi məqamda sualınız tamamilə qanunauyğundur və Ermənistan ilə Azərbaycanın maraqlarının üst-üstə düşə biləcəyinə heç bir etirazım yoxdur. Amma məsələ burasındadır ki, Ermənistan bunu həmişə başqa cür görüb. Əgər işğal olmasaydı, azərbaycanlıların vəhşiliklə, dağıntılarla, soyqırımları ilə deportasiyası baş verməsəydi, Cənubi Qafqazda vəziyyət tamamilə başqa cür olardı. Cənubi Qafqaz iqtisadi, siyasi, nəqliyyat və hər şeydən əvvəl, enerji baxımından çoxdan inteqrasiya olunmuşdu. Hər şey yaxşı olardı, bu qədər vaxt itirilməzdi. Səbəb bizdə deyil, səbəb Sovet İttifaqı dağılandan bəri Ermənistanı idarə edən rejimlərin işğalçı xarakterindədir. Onların heç biri azərbaycanofobiyası və Azərbaycana qarşı motivi olmayan təcavüzü ilə bir-birindən xüsusilə fərqlənmirdi.

Siz ilk dəfə deyil ki, burada olursunuz və yaqin dini ziyarətgahlarımızın həm dağıdılmasına, həm də təhqir olunmasına diqqət yetirmisiniz. Mən burada olanda tez-tez baş çəkirəm, vaxtaşırı öz-özümə sual verirəm: axı, biz sovet dövründə onlara pis heç nə etməmişik, qətiyyən. Onlar burada dinc yaşayırdılar, yarımuxtar quruma malik idilər. Respublika yox, amma muxtar vilayət idi. Bu muxtar vilayətə erməni millətindən olanlar rəhbərlik edirdilər. Bu bina ilə üzbəüz, dediyim kimi, keçmiş vilayət komitəsinin binası var. Orada vilayət komitəsinin birinci katibi oturardu - erməni idi. İcraiyyə komitəsinin sədri də erməni olub. Dağlıq Qarabağ Muxtar Vilayəti vilayət komitəsi bürosunun 9 üzvü var idi və onların arasında yalnız bir azərbaycanlı olub. O da ki, Şuşa rayon komitəsinin birinci katibi idi və sadəcə, vəzifəsinə görə orada olmalı idi, olmasaydı, onu da oraya daxil etməzdilər. Hansı sıxışdırma barədə danışırdıq? Heç bir sıxışdırma yox idi. Əksinə, o zaman sovet hakimiyyətinin olduğu Azərbaycan Respublikasının verdiyi bütün nemətlərdən istifadə edirdilər. Bu meydanda gördüyünüz hər şey istisnasız olaraq Azərbaycan memarları tərəfindən tikilib. Rayon komitəsinin binasını memar Həsən Məcidov, indi bərpa etdiyimiz "Qarabağ" otelinin binasını isə Memarlar İttifaqının indiki sədrinin atası, memar Ənvər Qasımzadə tikdirib. Hazırda bərpa olunan icraiyyə komitəsinin binası azərbaycanlı memar Kəngərli tərəfindən tikilib. Yəni, bütün bunlar olub. Bunların hamısı kindir. Ağdamı, necə deyərlər, Qafqazın Xirosimasına çevirmək nəyə lazım idi? Axı bu, müharibə bitəndən sonra edilib. Bu, Azərbaycanla, azərbaycanlılarla bağlı hər şeyin məhvinə yönələn səbəbsiz kin-küdurətdir.

İndi Əbu-Dabidən və İrəvandan eşitdiyimiz şərhlərdən danışsaq, bəli, bu, yaxşı şərhdir və mən baş nazir Paşinyanın Qarabağın daha əvvəl Azərbaycanın bir hissəsi kimi tanınmalı olması ilə bağlı dedikləri ilə tanış idim. Belə də olmalı idi. Mən bunu onlara dedim. 2018-ci ildə də, 2019-cu ildə də dedim, xəbərdarlıq etdim ki, pis olacaq. Yaxşı, əvəzində nə baş verdi? Buradan çıxanda bir az sola gedib daha sola baxsanız, bir futbol stadionu görəcəksiniz. Hazırda rekonstruksiya işləri aparılır. Stadion 1950-ci illərdə tikilib və bilirsiniz kimin adı verilib? Yox? Heç bir fikriniz yoxdur? Stalin adına stadion. Deməli, bu stadionda indi Qarabağın daha əvvəl Azərbaycanın tərkib hissəsi kimi tanınmalı olduğunu deyən baş nazir Paşinyan 2019-cu ilin yayında keçirilən böyük mitinqdə bildirib ki, "Qarabağ Ermənistandır və nöqtə". Beləliklə, necə deyərlər, özü üçün ağır həyata imza atıb. Hələ mən Şuşa çəmənliklərində baş verənləri, yaxud, yeri gəlmişkən, - mən burada parlament adlanan yerdən danışırdım, - cənab Paşinyanın qərarı ilə onu Şuşa şəhərinə köçürmək qərarına gəliblər və orada tikintiyə başlayıblar. Buraya gələndə, hətta o yerə gedib birbaşa xalq üçün çıxış etdiyimi də xatırlayıram, bu binanın qarşısında ona müraciət etmişdim. Biz onu dağıtdıq. İkinci sual: İndi bu binanın yerində nə olduğunu bilirsiniz? Bilin, qaldığınız "Şuşa" otelidir. Hekayə bundan ibarətdir.

İndi biz özümüzə məxsus olanı qaytarmışıq və hamı bununla barışıb, bəli, mən ciddi ziddiyyətlər görmürəm. Amma erməni həmkarımla uzun diskussiya zamanı müzakirə etdiyimiz mövzulardan biri də tərəflər arasında etimadın çox aşağı səviyyədə olması idi. Bu, tamamilə başadüşüləndir. Bizə gəlincə, mövqeyimiz heç vaxt dəyişməyib. 2003-cü ildə "Qarabağ bizim torpağımızdır!" dediyim kimi, bu 22 il ərzində də bunu demişəm və deyirəm. Amma ermənilərin mövqeyi dəyişib. Onun yenidən dəyişməyəcəyi ilə bağlı təminat varmı? Belə bir zəmanət var? Etimologiyanı, şüurun təkamülünü nəzərə alsaq, mənim belə bir təminatım yoxdur. Beynəlxalq hüququn normaları və Əbu-Dabidə dediyim kimi, separatçılığın tabutunun üzərini dəmir-betonla qapadacaq sənədlər zəmanət olmalıdır. Əgər erməni tərəfi Qarabağ münaqişəsinin bitdiyini hesab edirsə, Qarabağ münaqişəsinin həlli üçün yaradılmış Minsk qrupunu ləğv etmək lazımdır. Məntiq sadədir. Bunun üçün Ermənistan konstitusiyasına dəyişikliklər edilməlidir ki, oradan Azərbaycana qarşı ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsi çıxarılsın. Prinsipcə məsələ budur. Buna görə də sülh sazişinin mətni razılaşdırılıb. Bu sənədin paraflanması ideyası da Azərbaycan tərəfindən irəli sürülüb. Biz sadəcə olaraq, Əbu-Dabidə baş verənləri şərh etmədik. Fikirləşdik ki, kommünikenin birgə mətni üzərində razılığa gəldiyimiz üçün şərh ediləcək heç nə yoxdur. Amma erməni tərəfi həmişə olduğu kimi, öz şərhləri ilə təfərrüatları ortaya qoymağa çalışır. Prinsipcə, dediyim kimi, biz tabutun üzərini dəmir-betonla qapatmaqdan və bundan sonra normal yaşamaqdan uzaqda deyilik. Mən bunu əvvəlki görüşlərdə də demişəm: siz öz həyatınızı yaşayın, biz də öz həyatımızı yaşayaq. Ancaq belə olan təqdirdə Cənubi Qafqazda az-çox məqbul situasiya tədricən yarana bilər ki, üç ölkə nəhayət, heç olmasa, hər hansı əməkdaşlıq imkanlarını müzakirə etməyə başlaya bilsin.

Beləliklə, sualınıza görə təşəkkür edirəm və bir daha xoş gəlmisiniz deyirəm.

**Moderator Ceyn Viterspun:** "Reuters" agentliyindən Nailə Balayeva, buyurun, sualınızı verin.



**Nailə Balayeva: Cənab Prezident, mənim bir neçə sualım var. Avropa İttifaqının Rusiya qazından imtinası planına gəldikdə, 2027-ci ilə qədər Azərbaycan qaz ixracını artırmağa hazırdırmı? Zəngəzur dəhlizi ilə bağlı Ermənistanın baş naziri bəyan edib ki, bu barədə ABŞ-dan təkliflər daxil olub. Bununla bağlı Bakının rəsmi mövqeyi nədən ibarətdir?**

**Növbəti sualım Azərbaycan və Rusiya münasibətlərinə dairdir. Nə üçün Azərbaycan MDB-nin İqtisadi Şurasının iclasına qatılmadı, bu qərar hansı səbəbdən qəbul edilmişdi və bu gün Azərbaycan ilə Rusiya arasında münasibətlər hansı səviyyədədir? AZAL şirkətinə məxsus təyyarəsi ilə bağlı insidentlə əlaqədar Azərbaycanın şərtləri, tələbləri Rusiya tərəfindən qəbul edilibmi?**

**Prezident İlham Əliyev:** Avropa İttifaqı ilə əməkdaşlığa gəldikdə bilirsiniz ki, 2021-ci ildə biz energetika sahəsində strateji tərəfdaşlıq haqqında sənəd imzaladıq və o zaman biz ixracımızı 8 milyarddan 13 milyard kubmetrə qaldırdıq. Bu gün 12 ölkəyə qaz ixrac edirik. Onların 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqının üzvüdür. Yəni, Avropa İttifaqı Azərbaycanı etibarlı və ümum-Avropa qaz təchizatçısı adlandırır. Coğrafi əhatə baxımından maye qaz deyil, boru kəməri ilə nəql olunan qaza gəldikdə Azərbaycan qlobal səviyyədə aparıcı ölkələrdən biridir. Mən bu yaxınlarda Xəzər neft sərgisində neft hasilatı ilə bağlı planlarımız haqqında danışdım və bəyan etdim ki, bizim planımız 2030-cu ilə qədər qaz hasilatını daha 8 milyard kubmetr artırmaqdır. Yəni, bu gün biz 25 milyard kubmetr ixrac ediriksə, o zaman üçün təqribən 33 milyard kubmetr təşkil edəcək. Sual ondan ibarətdir ki, bu əlavə 8 milyard kubmetr hansı istiqamətdə ixrac ediləcəkdir? Mən bu haqda danışmışam. Artıq qeyd etdim ki, bizim neft kəmərimiz və interkonnektorlar tam həcmdə doludur və bu neft kəmərləri genişləndirilməsə, ixrac haqqında danışmaq çətin olar.

Avropa İttifaqı məsələsinə gəldikdə isə onlar Rusiya qazından imtina etmək niyyətindədir, biz bunu heç vaxt nəzərə almamışıq. Biz heç bir halda Rusiya ilə rəqabət aparmağa çalışmamışıq. Hətta o dövrdə ki, Rusiya Avropaya 150 milyard kubmetr qaz nəql edirdi. Biz heç vaxt deməmişik ki, buna alternativ ola bilərik. Biz sırf kommersiya prinsipləri əsasında fəaliyyət göstəririk. Bizim enerji siyasətimiz biznes məqsədli olub. Biz bunu heç vaxt siyasiləşdirməmişik, heç bir zaman qazın həcmini azaltmamışıq. Hətta o ölkələrə ki, onlar heç vaxt bizimlə razılaşmayıblar. Bu, sırf kommersiya prinsiplərinə əsaslanaraq öhdəliklərimizi rədd etdiyimiz mənasına gəlmir və heç bir ölkəyə qaz nəqlində indiyə qədər fasiləyə yol verməmişik. Budur, bizim məsələmiz belədir. Əlavə 8 milyard kubmetr üçün bazarlar müəyyən edilir. Biz Avropa İttifaqının üzvü olan bir neçə ölkədən təkliflər almışıq. O ölkələr ki, bəziləri artıq bizim qazımızı alır, digərləri isə hələ də Azərbaycan qazını almır. Biz bu təklifləri dəyərləndiririk. Bazara çıxış baxımından da biz bu məsələləri kommersiya prinsipləri əsasında dəyərləndiririk.

Amerika şirkətinin Zəngəzur dəhlizini bir növ icarəyə götürməsi ilə bağlı sualınıza gəldikdə bu, Ermənistan rəhbərliyinə ünvanlanmalıdır. Bizim ərazidə heç bir operator, heç bir ticarətçi, heç bir icarədar ola bilməz. Ermənistan nə etmək istəyir? Onlar çox şey edə bilərlər, mənim bundan xəbərim yoxdur. Onlar artıq dırnaqarası "Avropa müşahidəçiləri"ni də sərhədə dəvət ediblər. Onlar sərhəddəki peşəkar casuslardır və İrana qarşı casusluq fəaliyyəti aparırlar. Xüsusilə də bu son İran-İsrail münaqişəsi zamanı onlar İran sərhədi boyu hərəkət edirlər. Düzdür, onlar binokl vasitəsilə bizə də baxırlar, ancaq biz də öz ərazimizdən onları izləyirik. Sabah Ermənistan istənilən ölkəni, tərəfi də dəvət edə bilər. Bizim üçün isə ən başlıca məsələ odur ki, - mən Əbu-Dabidə həmkarıma dedim, - bizim Azərbaycandan Azərbaycana maneəsiz və təhlükəsiz keçidimiz olmalıdır. Bu, Azərbaycanın bir bölgəsindən ölkənin digər bölgəsinə keçiddir. Bizim yüklər və bizim vətəndaşlar, Azərbaycan vətəndaşları hər dəfə orada sərhədçi erməninin simasını görməli deyil. Budur bizim tələbimiz. Bu, legitim tələbdir, bu, ədalətli tələbdir. Əks təqdirdə bizim vətəndaşlarımız təhlükə altında olacaqdır. Mən yaxşı xatırlayıram, sovet dövründə qatar Bakıdan Naxçıvana hərəkət edərkən məhz Ermənistan ərazisindən Zəngəzurdan keçən bir hissədə qatara daş atılırdı, nəticədə qatarın pəncərələri qırılırdı. Biz bunu çox yaxşı xatırlayırıq və bu, sovet dövrü idi. Bu nizam-intizam və cəza mexanizmlərinin hökm sürdüyü bir dövrdür. Bu gün biz vətəndaşlarımızı riskə ata bilmərik. Ona görə orada heç bir fiziki təmas olmalı deyil və onlar üçün təminatlı tədbirlər həyata keçirilməlidir ki, insanlar və yüklər təhlükəsiz şəkildə hərəkət etsin. Bu, legitim tələbdir.

(ardı 5-ci səhifədə)

# III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş keçirilib

(əvvəli 4-cü səhifədə)

Rusiya ilə münasibətlərə gəldikdə, siz təyyarə qəzasını qeyd etdiniz. Təəssüflər olsun ki, biz Rusiya rəsmilərindən heç bir cavab almamışıq. Artıq bu hadisədən yeddi ay keçibdir. Bizim üçün hər şey aydındır, biz bilirik nə baş verib. Biz bunu sübut edirik və bilirik ki, Rusiya rəsmiləri də bundan xəbərdardır. Onlar da gözəl bilirlər nə baş verib. Ona görə də istənilən qonşu bunu etməli idi. Bizim tələbimiz təbii tələb idi. Qoy, öz günahlarını etiraf etsinlər. Bizim təyyarəni vuranlar cəzalandırılsın və ailələrə təzminat ödənilsin, qurbanların və yaralıların ailələrinə, AZAL-ın təyyarəsinə görə də təzminat ödənilməlidir. Əlbəttə, mən bu haqda daha təfərrüatlı danışa bilərəm. İstəyirsinizmi mən bu haqda daha çox danışım, daha təfərrüata varım?

Bu məsələyə daha bir neçə dəqiqə həsr etmək istəyirəm. Bizim pilotlar cəsarət və peşəkarlıq göstərərək təyyarəni qəza enişinə yönləndirdilər və tam heyət, bütün sərnişinlər həlak olmadı. Biz dərhal oraya - Aktauya heyət göndərdik. Onlar çəkiliş aparırdılar və gördülər ki, təyyarənin füzulyajı dəlmə-deşik edilmişdir və hətta təyyarədə olanların iki nəfəri də qəlpə yarası almışdır. Guya, Ukrayna dronu bizim təyyarəmizlə toqquşmuşdur. Bu gülünc bir iddia, təklif, versiya idi.

Təyyarəmizə qarşı iki dəfə hücum olub. Təsəvvür edin ki, Ukrayna dronu gəlir, Azərbaycan təyyarəsini hədəf alır, sonra qayıdır gedir və ikinci dəfə yenə bizim təyyarə ilə toqquşur. Yəni, bu uşaq bağçası səviyyəsində hekayədir, biz bilirik nə baş verib. Bundan başqa, Rusiya hava məkanı bağlanmamışdı. Hava məkanı bizim təyyarəmiz vurulduqdan bir neçə dəqiqə sonra bağlanmışdır və bu da məsuliyyətdir. Həmin o şəxslər "xalça əməliyyatı"nı vaxtından gec elan ediblər. Bu, gün qədər aydındır. Ancaq yeddi aydır ki, biz cavab ala bilmirik. Bizim Baş prokurorumuz müntəzəm olaraq Rusiyanın Təhqiqat Komissiyasına məktub ünvanlayır və cavab o olur ki, təhqiqat davam edir. Biz gözləyirik ki, görək bu təhqiqat nə zaman bitir. Ancaq mən hesab edirəm ki, bu, məsuliyyətsiz davranmaqdır. Bu o demək deyil ki, biz bunu unudacağıq. Xeyr, biz bunu unuda bilmərik. Biz artıq Rusiya tərəfini məlumatlandırmışıq ki, beynəlxalq ədliyyə sisteminə müraciət edəcəyik. Biz müəyyən bir qovluq hazırlayırıq. Bilirik ki, buna vaxt lazımdır. On il lazım oldu ki, Malayziya hava yollarına məxsus "Boeing"lə bağlı təhqiqat başa çatsın. Ancaq biz bu ədalətə nail olacağıq. Biz bunu əldə edəcəyik. Təəssüf ki, bugünkü vəziyyət ikitərəfli münasibətlərimiz baxımından heç də məqbul deyil.

**Moderator Ceyn Viterspun:** Cənab Prezident, biz artıq iki saatdır müzakirələr aparırıq. Cənab Prezident, əlavə 30 dəqiqə ayırmağınızı xahiş edirəm, icazənizlə, əgər auditoriya etiraz etmirsə. Mən bilirəm ki, təyyarəniz var, Bakıya geri qayıtmalısınız.

**Moderator Ceyn Viterspun:** Mən Anadolu Agentliyində strateji kommunikasiya üzrə menecer cənab Bilgehan Öztürkə söz vermək istəyirəm.

**Bilgehan Öztürk: Cənab Prezident, bizə yaratdığınız bu fürsətə, imkana görə təşəkkür edirəm. Bu gün Xankəndinin**



**mərkəzində olmaq çox fərqli bir hissdir. Bilirəm ki, bu şəhər 30 il idi ki, işğal altında idi. Bu, təkcə azərbaycanlıların deyil, nəsillər boyu türklərin, Türkiyədə olan vətəndaşların da arzusu idi ki, buralar azad edilsin. Mən bilirəm ki, sülh istiqamətində yol o qədər də hamar deyil, olmamışdır. Siz artıq qeyd etdiniz ki, Ermənistan tərəfi ilk mərhələdə o qədər də müsbət reaksiya vermirdi. Biz sülh sazişinə nə dərəcədə yaxınıq, nə qədər nikbin ola bilərik?**

**Prezident İlham Əliyev:** Bəli, mən artıq qeyd etdim. Bilirsiniz, sülh müqaviləsinin mətni artıq razılaşdırılıb. Yeri gəlmişkən, prosesin əvvəlinə qayıtdıqda onu qeyd etməliyəm ki, məhz Azərbaycan sülh prosesinin təşəbbüskarı olmuşdur. İkinci Qarabağ müharibəsi bitdikdən sonra Minsk qrupunun üçlüyü hələ də çalışırdı, Bakıya səfər edirdi. Mən o zaman gördüm ki, onlar nə edəcəklərini bilmirlər və onlar mənə sual verəndə dedim ki, biz Ermənistanla sülh sazişi üzərində işləməliyik. O zaman müharibə bitmişdi və bir boşluq var idi. Mən təklif etdim ki, bir proses başlansın. Ona görə də biz sülh sazişinin mətnini hazırladıq və onu Ermənistana göndərdik. Onların müxtəlif şərtləri var idi və iki il ərzində heç bir irəliləyiş yox idi. Başlıca səbəb o idi ki, Ermənistan tərəfi həmin sülh sazişinin mətninə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini daxil etmək istəyirdi. Biz onlara dedik ki, baxın, birincisi, "Dağlıq Qarabağ" sizin təxəyyülünüzdə mövcuddur, bu, reallıqda mövcud deyil. Bu, Azərbaycanın bir parçasıdır və sülh müqaviləsinin mətninə daxili siyasətimizə aid olan bir məsələ daxil edilə bilməz. Bu müzakirə iki il sürdü və heç bir irəliləyiş olmadı. Bu əraziləri sentyabrda biz azad edəndən sonra, yalnız o zaman Ermənistan artıq bunun üzərində israr etmədi, çünki artıq bu mövzu bağlı idi. Yəni, nəyin üzərində israr edəcəksiniz? Yəni, demək olar ki, 2024-cü ilin yanvarında real danışıqlar başlanıldı və bizim hazırladığımız layihənin mətni üzərində iş getdi və o mətn razılaşdırıldı. Bundan sonra iki bəndi Ermənistan tərəfi əlavə etmək istəmirdi, ancaq Prezident Tramp qalib gələn kimi onlar o iki müddəanı əlavə elədilər. Mən cənab Paşinyana dedim ki, siz yəqin ümid edirdiniz ki, xanım Harris qalib gələcək və ağ at üzərində olacaqsınız. Ancaq bu, baş vermədi. Mən buna tamamilə əminəm ki, Tramp qalib olmasaydı, onlar bununla razılaşmayacaqdılar. Onlar layiq olduqlarından da, həzm edə biləcəklərindən də daha çox parça qoparmaq istəyirdilər. Bu gün artıq onlar həmin o iki bənd üzərində israr etmirlər.

Bu gün də qeyd etdiyim kimi, bu iki məsələ, - Ermənistan konstitusiyasına dəyişiklik və ATƏT-in Minsk qrupunun buraxılması, - həll edilən kimi sülh müqaviləsi imzalana bilər. Bəli, mətn paraflana bilər və Azərbaycan tərəfi artıq Əbu-Dabidə bu təkliflə çıxış edib. Lakin bildiyiniz kimi, paraflanma heç də imzalanma demək deyil. Yəni, biri var ki, tərəflər arasında şifahi razılıq əldə olunur, biri də var ki, tərəflər sənədin hər səhifəsinin sonunda öz imzalarını qoyaraq onu paraflayır. Məncə, biz sülh müqaviləsinin imzalanmasına çox yaxınıq. Hesab edirəm ki, bu proses geridönməz xarakter alıb. Bunun hər hansı bir yenidən baxılması, yenidən baş verməsi mümkün deyil. Biz heç nəyi yenidən müzakirə etməyəcəyik. Ancaq Ermənistan yenidən müzakirəyə başlamağa çalışırsa, o deməkdir ki, onlar sülh istəmirlər. Deməli, o ərazi iddiası qalır. Ona görə də biz düzgün istiqamətdəyik. Onlar öz ev tapşırıqlarını yerinə yetirməlidirlər. Bu baş verdiyi halda biz sülh müqaviləsini imzalaya bilərik. Bu da region üçün çox böyük yenilik, çox böyük dəyişiklik olacaq və biz artıq bu haqda danışdıq.

Cənubi Qafqaz sabitlik məkanı olacaq. Bizə sabitlik, təhlükəsizlik lazımdır. Çünki Cənubi Qafqaz əsrlər boyu qan tökülməsi, toqquşma, işğal məkanı olmuşdur və Qafqaz xalqları çox əziyyət çəkiblər. Ona görə də kifayətdir, biz artıq sülh şəraitində yaşamalıyıq.-0-

**Moderator Ceyn Viterspun:** Təşəkkür edirəm. İndi isə söz verilir cənab Joze Martin Jan-Pierreyə. O, Beynəlxalq Dekolonizasiya Cəbhəsinin katibi və Qvadelupa Beynəlxalq Təzminatlar Hərəkatının sədridir.

**Joze Martin Jan-Pierre: Zati aliləri, cənab Prezident. Ötən il Şuşa Qlobal Me-**



**dia Forumunda Siz Azərbaycanın neokolonializmə qarşı mübarizədəki rolundan danışdınız və müstəmləkə təzyiqlərindən hələ də əziyyət çəkən ölkələrə istinad etdiniz. Həqiqətən Azərbaycan, xüsusən də Bakı Təşəbbüs Qrupu məsələ barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında nəinki mühüm rol oynadı, o cümlədən beynəlxalq hüquq əsasında müstəmləkə əməliyyatlarına qarşı mübarizə aparanların birləşməsinə töhfə verdi. Yeni Kaledoniya və Fransa arasında iyulun 12-də imzalanmış yeni razılaşmanı, eləcə də ədalət və azadlığa can atan dəniz ərazilərində hələ də davam edən kolonializmə qarşı mübarizəni nəzərə alaraq, bu məsələlərlə bağlı Sizin rəyinizə görə çox minnətdar olardıq.**

**Prezident İlham Əliyev:** Düşünürəm ki, Fransa ilə Yeni Kaledoniya arasında baş vermiş hadisə tarixi presedentdir. Hesab edirəm ki, bu, hekayətin sonu deyil, başlanğıcıdır. Bizim neokolonizmlə bağlı mövqeyimiz tam aydındır. Bu məsələ heç bir ikitərəfli gündəliyə daxil deyil. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan sədrliyin ilk ilindən başlayaraq dekolonizasiya, müstəmləkə olan ərazilərin müstəqilliyə və ədalətə qovuşması, eləcə də beynəlxalq təşkilatların qəbul etdiyi qərarların icrası ilə bağlı səyləri dəstəkləmiş və təşviq etmişdir.

Bu, Qoşulmama Hərəkatının sədri kimi öhdəliyimiz, eyni zamanda, bir ölkə kimi mövqeyimiz idi. Çünki bu gün XXI əsrdə bir ölkə digər xalqı müstəmləkə hakimiyyəti altında saxlaya bilməz. Bu, hər hansı normal insan davranışına heç cür sığmır. Bu, xalqların fundamental hüquqlarına, onların azadlığına ziddir. Avropa qitəsinin əsas dəyərləri həmin müstəmləkə iddiaları ilə kobud şəkildə pozulur. Beləliklə, Bakı Təşəbbüs Qrupu beynəlxalq QHT-dir. Bəzi Avropa paytaxtları düşündüyü və ya təqdim etdiyi kimi deyil. Onun Azərbaycan hökuməti ilə heç bir əlaqəsi yoxdur. Bununla belə, həmin qrup qısa müddət ərzində Qvadelupa, Yeni Kaledoniya, Martinika, Sen-Marten və digər müstəmləkələrin xalqlarının tələbləri əsasında gündəliyi yarada bildi. Bu, onların qrupudur. Yəni, öz şəxsi gündəliyi olan qrup deyil. Onlar, sadəcə, bu prosesə qoşulmuş Azərbaycana və digər beynəlxalq tərəfdaşlara kömək etmək istəyirlər. Onlar, sadəcə, xalqlara azad olmağa, öz taleyinin yiyəsi olmağa kömək edirlər. Onların bunu etməyə hüququ var. Beləliklə, düşünürəm ki, Fransa və Yeni Kaledoniya arasında baş verənlər başlanğıcdır və presedentdir. Hesab edirəm ki, bunları Yeni Kaledoniyada həmin faciəli hadisələr olmadan belə, etmək olardı. Həmin vaxt Fransanın dövlət orqanları 10-dan artıq insanı qətlə yetirdi. Bu mənə Ermənistan ilə Azərbaycan arasında apardığımız müzakirələri xatırladır. Əgər Ermənistan rəhbərliyi 2019-cu ildə Qarabağı Azərbaycanın hissəsi kimi tanısaydı, onda aramızda müharibə olmazdı. Gec heç vaxt olmamaqdan daha yaxşıdır. Lakin, həmçinin aydındır ki, əgər Yeni Kaledoniya xalqı öz güclü siyasi iradəsini, cəsarətini, mübarizliyini, azadlıq uğrunda canından keçməyə hazır olduğunu nümayiş etdirməsəydi, çox güman ki, həmin saziş heç zaman imzalanmazdı. Bir sözlə, siz mübarizə aparmalısınız. Siz ərazilərinizi, ərazi bütövlüyünüzü bərpa etmək uğrunda mübarizə aparmalısınız. Azadlıq uğrunda vuruşmalısınız. Azad olmağınız uğrunda çalışmalısınız. Dünya bu cür işləyir və ümid edirəm ki, birinci addımın davamı olacaq. Əminəm ki, Fransanın müstəmləkə hakimiyyəti altında olan bütün ərazilərin hazırda Fransa ilə Yeni Kaledoniya arasında əldə olunmuş dövlətlərarası münasibətləri qurmaq imkanı olacaq.

**Moderator Ceyn Viterspun:** Təşəkkür edirəm. İndi isə söz verilir Afrika Birliyinin İnkişaf Agentliyinin Baş direktoru yanında kommunikasiyalar və təşviqat şöbəsinin rəhbəri xanım Zifora Maubaneyə.

**Zifora Maubane: Sizi salamlayıram Zati-aliləri, cənab Prezident. Bu, mənim Qarabağa ilk səfərimdir, lakin ötən il mən COP29-da iştirak etmişəm. Tədbir**



**səmərəli və yüksək səviyyədə təşkil olunmuşdu. Sizi və heyətinizi təbrik edirəm. Sizə iki sualım var. Lakin Zati-aliləri, sualları verməzdən əvvəl tarixçəni söyləmək istəyirəm. Mən Afrika Birliyində təşviqat və kommunikasiyalar üzrə məsuliyyət daşıyıram. Bir sözlə, bütün dünya mətbuatı ilə işləyirəm, Afrikanın inkişaf təşəbbüsləri, vəsaitlərin toplanması, iqlim dəyişmələrinin təsirinə aid strategiyalar, sülh və təhlükəsizlik sahəsində gördüyümüz işlər və Afrikanı sərmayələr baxımından cəlbedici etməkdə səylərimiz barədə məlumatlar verirəm. Bu, mənim gördüyüm işdir və burada olmaqdan böyük şərəf hissi duyuram. Birinci sualım belədir: əvvəlcə, qeyd etdiniz ki, COP29 zamanı Siz iqlim dəyişmələrinin qarşısını almaq məqsədilə inkişaf edən ölkələrə yardım göstərmək öhdəliyini götürmüsünüz. Həmin öhdəlik bəzi Afrika ölkələrini də əhatə edəcəkmi? Bu, birincisi. İkincisi, Afrikanın inkişafla bağlı çox geniş gündəliyi var. O, 2063-cü ilədək olan gündəlikdir. Cəmiyyət və biznesin bir çox təbəqələrini əhatə edən 50 illik inkişaf proqramıdır. Məsələn, "Gündəlik 2063" bütün qitədə infrastrukturun inkişaf proqramı hesab edilir. Çünki bilirik ki, infrastruktur olmadan inkişaf da yoxdur. Daha dəqiq desək, proqram enerji, İKT, rəqəmsal transformasiya, su və yol şəbəkələri, daşımalar, o cümlədən dəmir yolları kimi sahələrdə infrastrukturun inkişafına yönəlir. Beləliklə, cənab Prezident, sualım belədir: Azərbaycan həmin infrastrukturun inkişafı layihələrində Afrika ölkələri ilə əməkdaşlıqda maraqlıdırmı? Çox sağ olun, cənab Prezident.**

**Prezident İlham Əliyev:** Çox sağ olun. Əvvəlcə, COP29 çərçivəsində iqlim dəyişmələri ilə bağlı Afrika ölkələrinə birmənalı dəstək gündəliyimizin prioritetlərindən biri idi. COP29-un sədri olaraq qeyd etdiyim kimi, bizim inkişaf edən kiçik ada dövlətləri üzrə xüsusi formatımız var, çünki yaranmış təhlükə onlar üçün ekzistensional xarakter daşıyır. Biz bunu bilirik, çünki onların mövcudluğu, ümumiyyətlə, dünya okeanının səviyyəsindən asılıdır. Lakin Afrika qitəsindəki ölkələrə gəldikdə, onlar da bizim gündəliyimizdədir. Yeri gəlmişkən, Qoşulmama Hərəkatının sədri kimi hətta COVID-19 vaxtlarında biz 80-dən artıq ölkəyə maliyyə və humanitar dəstəyi göstərdik və onların əksər hissəsi Afrika Birliyinə üzv ölkələrdir. Uzun illərdir ki, bizim Efiopiyada yerləşən Afrika Birliyində daimi nümayəndəliyimiz fəaliyyət göstərir. Öncə qeyd etdiyim kimi, hazırda öz problemimiz, yəni Ermənistanla münaqişə bizdə artıq narahatlıq predmeti olmadığı üçün bizim xarici siyasətimiz daha genişdir. Mən Afrikadan gəlmiş bir neçə dövlət başçısı ilə rəsmi səfər çərçivəsində görüşmüşəm və biz artıq yüksəksəviyyəli nümayəndə heyətlərimizi ora göndərmişik. Bəzi ölkələrlə hazırda enerji sahəsində potensial əməkdaşlıq üzərində fəal işləyirik. Biz bəzi Afrika ölkələri üçün bir sıra aşağıfaizli kredit müqavilələri üzərində çalışırıq. Mən xüsusi təfərrüatlara varmaq istəmirəm, lakin bu, həqiqətən gündəliyimizdədir və biz daha fəal olmaq istəyirik. Bir yerdə çox iş görə bilərik, çünki biz xaricə sərmayələr yatırmaq istəyirik və investisiya üçün sahələr axtarırıq. İnvestisiya portfelimiz 20 milyard ABŞ dollarını keçib. Mən Azərbaycandan kənarda yatırılmış investisiyaları nəzərdə tuturam. Ona görə Afrika ölkələrinin potensialına gəldikdə, biz bunları birləşdirərək əməkdaşlıq qura bilərik. Yeri gəlmişkən, rəsmi səfərlər zamanı şəxsi təmaslarımda və COP29-a gəlmiş Afrika liderləri ilə keçirdiyim görüşlərdə mən onlardan prioritetlər, konkret layihələrin siyahısını verməyi xahiş etdim. Soruşdum ki, onlar Azərbaycanın istər özəl, istər dövlət şirkətlərini sərmayədar kimi harada görmək istəyirlər. Beləliklə, biz fəal çalışırıq və bizimlə bu gün bir yerdə olduğunuza görə minnətdaram.

**Moderator Ceyn Viterspun:** Sağ olun. İndi isə söz verilir Pavel Novotniyə. O, Slovakiyanın "Hospodarske novinı" qəzetində Xarici xəbərlər şöbəsinin rəhbəridir.

**Pavel Novotni: Salam, cənab Prezident. Gəlin, gələcəyə nəzər salaq. Biz süni intellekt dövründə yaşayırıq və Azərbay-**



**can texnoloji güc olmaq istəyir. Siz şəxsən süni intellektin inkişafı ilə bağlı Milli Strategiyanın tərtib olunması göstərişini vermisiniz. Bu sahədə vəziyyət nə yerdədir? Sağ olun.**

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz bunu yeni başlamışıq. Onun nə dərəcədə uğurlu olacağını görəcəyik. Lakin aydındır ki, biz dünyadakı tendensiyaların arxasınca getməliyik. Sadəcə, oturub gözləyə bilmərik. Buna görə, mənim qərarlarım yalnız inkişaf və müasirləşmə gündəliyinə əsaslanır. Beləliklə, bizim aparıcı beynəlxalq şirkətlərlə yaxşı təmaslarımız var və onların əksəriyyəti ilə sərmayədar kimi işləyirik. Vəsaitlərimizi iri beynəlxalq qruplar vasitəsilə sərmayə kimi yatırırıq. Eyni zamanda, enerji sektoruna xarici sərmayələrin cəlb edilməsində yaxşı təcrübəmiz var. Son 20 ildə Azərbaycana yatırılmış yalnız xarici sərmayələrin məbləği 200 milyard ABŞ dollarına bərabər olub. Dediyim kimi, Azərbaycan sabit, özünü təmin edən və gələcəyə aydın baxışları olan ölkədir. Biz ön cərgədə olmalıyıq. Bir daha nə dərəcədə uğurlu olacağımızı söyləmək çətindir. Süni intellektlə bağlı nə baş verəcəyini söyləmək mənim üçün çətindir. Çünki bilirsiniz, müxtəlif cəmiyyətlərin fərqli təbəqələrində buna güclü və artan müqavimət var. Bu proses hələ yeni başlayıb, görərik. Mənim üçün indi "nəyə nail olacağıq, nəyə yox" söyləmək düzgün olmazdı. Biz yalnız müəyyən nailiyyətlərimiz olduqda bildiririk. Ümid edirik, gələn il Şuşa Forumuna gəlsəniz biz sizinlə müəyyən məsələləri bölüşəcəyik.

**Moderator Ceyn Viterspun:** Latın Amerikasından "El Periodista" nəşrinin redaktoru cənab Fransisko Felipe Martorell Kammarella sual verəcək.

**Fransisko Felipe Martorell Kammarella: Cənab Prezident, Sizi salamlayırıq. Mən ispan dilində sual verəcəyəm. Cənab Prezident, dəvətinizə, Azərbaycan xalqının qonaqpərvərliyinə görə çox təşəkkür**



**edirəm. Mənim üçün burada olmaq böyük şərəfdir. Mən çox uzaq bir ölkədən gəlmişəm, 15 min kilometr uzaqdadır. Hazırda mənim qohumlarım, ailə üzvlərim hələ yuxudan oyanırlar. Mən dənizləri, çoxlu saat qurşağını keçməli oldum. Düşünürəm ki, mən burada Latın Amerikasından yeganə jurnalistəm. Bir neçə həftə bundan öncə Siz Çiliyə öz nümayəndənizi göndərmişdiniz və o, həm Çilidə, həm Argentinada, həm də Braziliyada görüşlər keçirdi. Mən sual vermək istərdim, Siz bizim regionla münasibətlərinizin gələcəyini, potensialını necə görürsünüz? Həmçinin bizim ölkələr, regionlar arasında gələcəkdə mədəniyyət qarşılıqlı necə inkişaf edə bilər? Çox təşəkkür edirəm.**

**Prezident İlham Əliyev:** Biz artıq neçə vaxtdır ki, Latın Amerikasının bəzi ölkələrində səfirliklər açmışıq və müxtəlif səviyyələrdə, nazirlər, eləcə də xarici işlər səviyyəsində səfərlər olub, nümayəndə heyətlərinin mübadiləsi olub. Lakin deməzdim ki, münasibətlər görmək istədiyimiz səviyyədəki kimidir. Əvvəllər dəfələrlə qeyd etmişəm ki, beynəlxalq məsələlərlə daha sıx məşğul olanda biz birmənalı olaraq bunları gündəliyimizə daxil edəcəyik. Biz Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı bəzi şirkətlərlə müzakirələr prosesindəyik. Bəzi layihələr artıq başa çatdırılıb. Lakin əlbəttə ki, Latın Amerikasının çox ölkəsində inkişaf etmiş iqtisadiyyat var. O, çox böyük bölgədir. Düşünürəm ki, biznes, ticarət, potensial sərmayələr və mədəniyyət sahələrində çox ümumi əsasları tapa bilərik.

Bu qədər uzun məsafəni qət edərək Azərbaycana gəldiyinizə görə minnətdaram. Ümid edirəm ki, gəlib bizimlə görüşməyinizə peşman olmadınız. Ümid edirik ki, bu səfər bir çox həmvətənləriniz üçün qapıları açacaq və siz ölkənizə qayıtdıqdan sonra Azərbaycan haqqında çox yaxşı təəssüratlar söyləyəcəksiniz.

**Moderator Ceyn Viterspun:** İndi isə sonuncu sualı Azəri-Press Agentliyindən Vüsalə Mahirqızı verəcək.

**Vüsalə Mahirqızı - "APA Media Qrup": Cənab Prezident, biz birinci Şuşa Qlobal Forumunda Şuşada idik. Qlobal forumdan sonra Şuşadan Xankəndiyə baxmışdıq. Amma indi biz Xankəndidəyik, Siz də buradasınız. Mən Qarabağa "Böyük Qayıdış"la bağlı sual vermək istəyirəm. Artıq 50 minədək insanımız Qarabağda-**



**dır. Mən xatırlayıram, biz Şuşaya birinci dəfə gələndə 9 saata gəlmişdik, amma indi maşınla cəmi 4 saata Şuşada olduq və yollar salınır. Kəndlərin hər birində məscidləri, minarələri, məktəbləri gördük. "Böyük Qayıdış"la bağlı proses necə gedir? Bu, birinci sualım.**

**İcazənizlə, ikinci sualı Azərbaycan mətbuatı ilə bağlı vermək istəyirəm. Çünki bir neçə gün sonra bizim bayramımızdır, Azərbaycan mətbuatının 150 illiyidir. Mətbuatımızın gələcəyi ilə bağlı Sizin fikirlərinizi bilmək bizim üçün maraqlıdır. Xüsusilə o dövrdə ki, hazırda sosial media və süni intellekt var - bayaq Siz də danışdınız. Hazırkı dövrdə bizim əsas mövzularımızdan biri sosial mediada dezinformasiyadır. Bu, Azərbaycanın ən çox əziyyət çəkdiyi məsələlərdəndir. Bununla bağlı da fikirlərinizi eşitmək istəyərdim. Bir də mənim özüm üçün maraqlıdır, Siz süni intellektdən istifadə edirsinizmi? Təşəkkür edirəm.**

**Prezident İlham Əliyev:** Sağ olun. Yox, mən özüm istifadə etmirəm. Amma ailə üzvlərim var ki, ondan istifadə edirlər. Mənə də bəzən bu barədə məlumat verirlər. Amma yəqin ki, nə vaxtsa, mən də istifadə edəcəyəm. Çünki süni intellektin yayılması o qədər sürətlə gedir ki, istifadəçilərin sayı çox olacaq. Əsas odur ki, süni intellekt bizi bildiyimiz kriteriyalardan, meyarlardan uzaqlaşdırmasın.

Sizi və həmkarlarınızı yubiley münasibətilə təbrik edirəm. Azərbaycan mediasının inkişafı məni çox sevindirir. Mən çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb. Mən bunu tam səmimiyyətlə deyirəm, sizə xoş söz demək üçün yox.

Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur. Mən bu tezisə şərh vermək istəmirəm. Amma fakt odur ki, bu gün Azərbaycan mediasını bir çox ölkələrdə müxtəlif səviyyələrdə oxuyurlar, mediada gedən yazıları, məqalələri təhlil edirlər. O məqalələrin Azərbaycanın rəsmi mövqeyinə nə dərəcədə uyğun olub-olmaması ilə bağlı da fərziyyələr irəli sürülür. Bu, deməyə əsas verir ki, mediamız doğrudan böyük inkişaf yolu keçib. Media deyəndə mən ilk növbədə jurnalistləri nəzərdə tuturam. Çünki medianı nüfuzlu edən məhz əməkdaşlardır, sizin kimi insanlardır, sizin həmkarlarınızdır. Mən, sözün əsl mənasında, sevinirəm və sizə yeni uğurlar arzulayıram. Azərbaycan bu gün elə bir mərhələdədir ki, hələ də özünü müdafiə etməyə ehtiyacı var. Bu gün Avropadan olan həmkarınız da artıq bu sualı verəndə də onu qeyd etdi: Siz Qərbin ictimai fikrinə, ictimai rəyinə necə təsir edə bilərsiniz? Məncə, media ən yaxşı vasitədir. Bizim media işçilərinin əhatə dairəsi nə qədər çox geniş olarsa, ölkə haqqında o qədər də dəqiq, dolğun və ədalətli məlumat dünya ictimaiyyətinə çatdırıla bilər. Burada hələ görüləsi işlər çoxdur. Ancaq mən deyə bilərəm ki, bizim mediamız artıq istənilən xoşagəlməz, iftira kampaniyasına cavab verməyə qadirdir və bu, çox önəmli yeni reallıqdır.

O ki qaldı, "Böyük Qayıdış"a, bunu demək üçün gərək biz ayrıca panel təşkil edək və mən təkcə bir neçə saat bu suala cavab verim. Çünki doğrudan da görülən işlər o qədər genişmiqyaslıdır ki, bunu bir cavabda səsləndirmək çətindir. Hər şey göz önündədir – qayıdan insanların sayı getdikcə artır və bundan sonra daha sürətlə artacaq. Çünki biz birinci dörd ildə daha çox infrastruktur layihələri ilə məşğul idik. Onların əsas hissəsini demək olar ki, bitirmişik, bütün Qarabağ və Şərqi Zəngəzur dairəvi elektrik şəbəkə ilə artıq təmin edilib, Azərbaycanın ənənəvi elektrik təsərrüfatına da qoşulub.

*(ardı 6-cı səhifədə)*

# III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş keçirilib



(əvvəli 5-ci səhifədə)

Burada artıq 280 meqavat gücündə su elektrik stansiyaları enerji istehsal edir və bu enerji Qarabağdan Azərbaycanın digər bölgələrinə gedir. Çünki bu gün Qarabağda o qədər adam yaşamır ki, bu qədər elektrik enerjisi lazım olsun. Siz maşınla gəlmisiniz, bilmirəm, Ağdam-Xankəndi-Şuşa yolu ilə, yoxsa Füzuli yolu ilə? Füzuli yolu ilə tunellərdən də keçmisiniz. Təkcə bu yolda 7 tunel inşa edilib. Tunellərin ümumi uzunluğu 80 kilometrdir. Ən uzun tunel yəqin ki, növbəti iki-üç ayda hazır olacaq. Murov dağının altındakı tunelin uzunluğu, - təkcə bir tunelin uzunluğu, - 11 min 700 metrdir. Yəni bu, dünya miqyasında ən uzun tunellərdən biridir. Dəmir yolu çəkilib. İndi Ağdama qatarla rahat getmək mümkün olacaq. Ağdam-Xankəndi dəmir yolunun təməlini mən bu yaxınlarda qoymuşam. Xankəndi-Şuşa kanat yolunun da tikintisi yəqin ki, yaxın zamanlarda başlayacaq və çox mənzərəli bir vasitə olacaq. Eyni zamanda, bunun funksional tərəfi də çox önəmlidir - hər yerdə inşaat-quruculuq işləri, xəstəxanalar, evlər, yaşayış binaları.

Qeyd etdiyim kimi, biz infrastruktur layihələrinin əksəriyyətini başa çatdırandan sonra daha böyük vəsait yaşayış evlərinə istiqamətləndiriləcək. Dünən Xocalı rayonunun iki kəndinə insanlar qayıdıb. Artıq keçmiş köçkünlərin yaşadıqları yaşayış məntəqələrinin sayı 18-ə çatıb. Xankəndidə Qarabağ Universitetində 1500 tələbə oxuyur, 300 müəllim onlara dərs deyir. Yəni, bütün bunlar bilirsiniz, necə deyim, bizə bir möcüzə kimi gəlir, o cümlədən mənə. Halbuki yəni, sirr deyil ki, bütün bu qərarların verilməsində mənim iştirakım olub. Amma qısa müddət ərzində bu qədər böyük işin görülməsi bu gün bir daha göstərir ki, bizim nə qədər istedadlı xalqımız var. Mənə çatan məlumata görə, o cümlədən buraya səfər edən xarici nümayəndələr deyirlər ki, söhbət təkcə pulda, pul məsələsində deyil. İstəyir nə qədər pulun olsun, əgər insan kapitalı yoxdursa, əgər insanlar ürəklə işləmirlərsə, heç bir işi görmək mümkün deyil. Bir xüsusi əlaməti də diqqətinizə çatdırım, yəqin ki, siz də bunu yaxşı bilirsiniz. Burada işləyənlərin hamısı çox böyük həvəslə işləyir, - yəni, təbii ki, burada şirkətlər, dövlət qurumları işləyir, - burada işləmək insanlara xüsusi zövq verir. Biz bu torpaqlar üçün o qədər darıxmışıq, o qədər bu torpaqların həsrətində olmuşuq ki, indi qayıtmışıq və necə deyərlər, bu torpaqlarımızdan doya bilmirik. Ona görə "Böyük Qayıdış" Proqramı artıq reallaşıb. Təbii ki, bunun mərhələləri olacaq və aydan-aya, ildən-ilə qayıdan vətəndaşların sayı çoxalacaq, Qarabağ, Şərqi Zəngəzur dirçələcək. Mən "Böyük Qayıdış"ın əvvəlində demişdim ki, biz bu bölgəni cənnətə çevirəcəyik, artıq cənnətin kiçik bir parçasıdır. Bunu burada öz gözlərimizlə görürük. Sağ olun.

**Moderator Ceyn Viterspun:** Cənab Prezident, dediyiniz kimi, biz söhbəti gecəyə qədər davam etdirə bilərdik. Əfsuslar ki, sessiyanın vaxtı bitir. Burada bizimlə olduğunuz üçün çox sağ olun. Bu axşam açıq söhbətə və vaxt ayırdığınıza görə minnətdarıq.

Xanımlar və cənablar, biz alqışladıq. Lakin gəlin, Azərbaycan Respublikasının Prezidenti, Zati- aliləri cənab İlham Əliyevi bir daha alqışlayaq.

*

Sonda birgə foto çəkdirilib.

***AZƏRTAC***

# Belçikalıların Kralı Əlahəzrət Filipə

**Əlahəzrət,**

Belçika Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2025-ci il**

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 215-VIIQD nömrəli Qanununun tətbiqi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 215-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 9-2.2-ci maddəsinin birinci cümləsində və 16.2-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 9-2.2-ci maddəsinin birinci cümləsində və 16.2-1-ci maddəsində "orqan (qurum)" dedikdə aşağıdakılar nəzərdə tutulur:

1.2.1. qeyri-kommersiya hüquqi şəxslərinə (o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalara) münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən digər qeyri-kommersiya qurumlarına münasibətdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi;

1.2.2. kommersiya hüquqi şəxslərinə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti;

1.2.3. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 215-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228 (Cild I); 2024, № 7, maddə 789, № 12 (I kitab), maddə 1292; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 may tarixli 392 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "8-1.2-ci" sözlərindən sonra "maddəsində, 9-2.2-ci maddəsinin birinci cümləsində" sözləri, "15.9.1-2-ci," sözlərindən sonra "16.2-1-ci," sözləri əlavə edilsin;

3.2. 2.13-2-ci bənd 2.13-3-cü bənd hesab olunsun və aşağıdakı məzmunda 2.13-2-ci bənd əlavə edilsin:

"2.13-2. həmin Qanunun 9-2.2-ci maddəsinin birinci cümləsində və 16.2-1-ci maddəsində "orqan (qurum)" dedikdə aşağıdakılar nəzərdə tutulur:

2.13-2.1. qeyri-kommersiya hüquqi şəxslərinə (o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalara) münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən digər qeyri-kommersiya qurumlarına münasibətdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi;

2.13-2.2. kommersiya hüquqi şəxslərinə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti;

2.13-2.3. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 iyul 2025-ci il**

# Media nümayəndələrinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32 ci bəndlərini rəhbər tutaraq, Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə qərara alıram:

1. Azərbaycanda milli mətbuatın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**

Aslanov Qədir Təyyar oğlu
Babayev Salman Alı oğlu
Bayramova Nəzakət Ələddin qızı
Cəfərli Minijə Cəmşid qızı
Cəfərov Rəşad İslam oğlu
Əliyev İbrahim Məmmədrza oğlu
Əliyev Orman Çingiz oğlu
Əliyev Vüqar Əliheydər oğlu
Əliyev Yalçın Tahir oğlu
Əlizadə İmdad Əli oğlu
Həsənov Nəcəf İsmayıl oğlu
Həziyev Bahəddin Musa oğlu
Hüseynov Mübariz Süleyman oğlu
İsmayılov Əhməd Məhəmməd oğlu
Qaibov Mehman Əjdər oğlu
Qasımov Balakişi Ələkbər oğlu
Maşayev Tahir İslam oğlu
Məhsimov Məhsim Sədulla oğlu
Məmmədov Məmmədəli Nazim oğlu
Mirzəyev Ayaz Nizami oğlu
Musayev Faiq Abbas oğlu
Nurullayeva Nəzirə Rafiq qızı
Ocaqova Cəmilə Rasim qızı
Sadıxova Nigar Yunisovna
Səttarov İsmət Rəcəb oğlu
Yusifov Tofiq Sədrəddin oğlu

**1-ci dərəcəli "Əmək" ordeni ilə**

Tağıyeva Roza Murtuza qızı

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Adıgözəlov Fikrət İlyas oğlu
Bağırov Rafiq Hidayət oğlu
Həsənov Müsəllim Qaman oğlu
Həşimov Rafiq Məhəmməd oğlu
Hüseynova Ülkər İbrahim qızı
İsmayılov Arif Əbdül oğlu
İsmayılov Musa Fehruz oğlu
Məmmədova Nüşabə Əsəd qızı
Paşayev Xoşbəxt Paşa oğlu
Piriyev Qüdrət Əliövsət oğlu

**"Tərəqqi" medalı ilə**

Abdullayeva Leyla Əlixan qızı
Ağamalıyev Fuad Həmdulla oğlu
Ağaməmmədov Tahir Əlyar oğlu
Ağayev İlham Əli oğlu
Ağayev Saleh Azad oğlu
Ağayeva Məhsəti Musa qızı
Ağayeva Saabxanım Əliağa qızı
Ağayeva Səbinə Abbasovna
Aslanov Əhəd Kaflan oğlu
Atakişiyev İslam Yusif oğlu
Babayev Xaliq Yunis oğlu
Babayev Zaur Kamal oğlu
Babayeva Vəfa Əmir qızı
Bağırov Saleh Ramiz oğlu
Baxşəliyev Rəşad Fizuli oğlu
Balayeva Azadə Nərman qızı
Bayramov Cəmil Həsənağa oğlu
Bayramova Liya Vladimirovna
Becanov Rəfail Zəkəriyyə oğlu
Camal Aqil Tapdıq oğlu
Cavadlı Günel Telman qızı
Cavadzadə Nərgiz Ehlam qızı
Cəbiyev İsmayıl Qafar oğlu
Cəfərov Ramin Natiq oğlu
Cəfərova Arzu Hikmət qızı
Dərgahov Nofəl Elbrus oğlu
Əlixanova Nəcibə Ziynəddin qızı
Əliyev Emin Ağa İbrahim oğlu
Əliyev Murad Adil oğlu
Əliyev Rüstəm Qədim oğlu
Əliyev Seymur Telman oğlu
Əliyev Vüqar Mükafat oğlu
Əliyeva Məhbarə Vəli qızı
Əliyeva Mintac Allahverdi qızı
Əmircanov Paşa Çoban oğlu
Əsgərov Hüseyn Ələkbər oğlu
Əsgərova Lalə Nurəddin qızı
Feyruzov Samir Ənvər oğlu
Fərəcov Aqil Ələsgər oğlu
Fərəcova Zöhrə Fərəc qızı
Fəttahov Rafiq Seyfulla oğlu
Gülməmmədova Ülviyyə Malik qızı
Hacıyeva Məhbubə İsmayıl qızı
Heydərli Hacıbəy Novruz oğlu
Heydərov Hafiz Qurban oğlu
Həmzəyev Rüfət Zeynalabdin oğlu
Həsənov Əkbər Rafiq oğlu
Həzquluyev Əli Səvindik oğlu
Hüseynov Nazim İsa oğlu
Hüseynov Səxaddin Xanhəsən oğlu
Hüseynov Timur Əhməd oğlu
Hüseynova Günay Yelmar qızı
Hüseynova Qahirə Müslüm qızı
Hüseynova Nigar Elman qızı
Xəlilov Aslan Xası oğlu
Xudiyev Tural Kamil oğlu
İbrahimov Samir Fəzail oğlu
İbrahimova Rəna Veyis qızı
İsayev Tofiq İsmi oğlu
İsmayıl Cavid Cabbar oğlu
İsmayılov Çingiz Tofiq oğlu
İsmayılov Pərviz Saday oğlu
İsmayılova Tünzalə Eldar qızı
Kazımova Günay Rasim qızı
Kərimli Şərif Həmid oğlu
Kosayev Xaqani Nizami oğlu
Kuznetsov Viktor Aleksandroviç
Qafarov Əfqan Məhəmməd oğlu
Qasımov Coşqun Əyyub oğlu
Quliyev Emil Akif oğlu
Quliyeva Nurlanə Böyük Ağa qızı
Məcidli Mətin Yaşar oğlu
Məhərrəmli Elnur Səbuhi oğlu
Məhərrəmov Sərtib İslam oğlu
Məlikli Elçin Zahir oğlu
Məmmədli İlahə Firdovsi qızı
Məmmədli Qalib İbrahim oğlu
Məmmədli Orxan Məmməd oğlu
Məmmədov Asif Millət oğlu
Məmmədov Azər Həsənağa oğlu
Məmmədov Elnar Baləhməd oğlu
Məmmədov Natiq Adil oğlu
Məmmədov Orxan Əliəkbər oğlu
Məmmədov Rəfael Zöhrab oğlu
Məmmədov Səbuhi Həşim oğlu
Məmmədov Süleyman Fəxrəddin oğlu
Məmmədov Toğrul Aydın oğlu
Məmmədov Vüsal Mətləb oğlu
Məmmədova Afət İslam qızı
Məmmədova Aytəmiz Varaşil qızı
Məmmədova Həyat Hikmət qızı
Məmmədova İlhamə Şərafətdin qızı
Məmmədova Kəmalə Nadir qızı
Məmmədova Nigar Hüseynağa qızı
Məmmədova Rəhimova Ətirə İsrafil qızı
Məmmədova Səbinə Əvəz qızı
Miriyev Anar Barat oğlu
Mirzə Fərid Məzahir oğlu
Mövsümov Elvin Mövsüm oğlu
Muxtarov Natiq Muxtar oğlu
Musayev Zakir Miryusif oğlu
Mustafayev Anar Akif oğlu
Mustafayev Emil Vüqar oğlu
Mustafayeva Kəmalə Paşa qızı
Nadirova Miranə Mirağa qızı
Neymətzadə Cavid Nizami oğlu
Nəbiyeva Bəturə Qiyas qızı
Nərimanlı Asif Cəlal oğlu
Nəsirov Təyyar Baloğlan oğlu
Nəsirova Aynur Əli qızı
Niftəliyev Anar Mahmud oğlu
Novruzov Fazil Hacıverdi oğlu
Paşa Elşad Əlhüseyn oğlu
Rəhimov Telman Həmzə oğlu
Rəhmanov Rauf Vəliməmməd oğlu
Rüstəmov Əvəz Cahangir oğlu
Rzayev İlkin Əvəz oğlu
Rzayev Sənan Məhəmməd oğlu
Rzayev Zahid Asəf oğlu
Sarıyeva İradə Murad qızı
Seyidli Jalə Mütəllim qızı
Səfərov Aqşin Elşən oğlu
Səfərov Seyfəddin Mehdi oğlu
Səlimov Qurban Hamlet oğlu
Sultanova Pərvanə Əliqara qızı
Şahsuvarov Taleh Novruz oğlu
Şıxlı Rövşən Nadir oğlu
Şibliyev Elnur Abdulla oğlu
Tağıyev İlqar Vaqif oğlu
Tahirov Anar İslam oğlu
Temnikov Roman Vasilyeviç
Təhməzova Ramella Xaliddin qızı
Üst Volkan
Üzeyirov Azad Zəkəryə oğlu
Verdiyev Yalçın Mirələm oğlu
Yadigarov Abbasəli İmanverdi oğlu
Zeynalov Zaur Telman oğlu.

**2.** Azərbaycanda milli mətbuatın inkişafında xüsusi xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar jurnalist" fəxri adı verilsin:

Ağacanov Elçin Alı oğlu
Balakişiyev Bəxtiyar Qaraca oğlu
Bayramov Vaqif Binyat oğlu
Ələsgərli Müşfiq Məşi oğlu
Əzizov Azər İmamzadə oğlu
Hüseynəliyev Fuad Polad oğlu
İbrahimov Sarvan Bəhlul oğlu
Kazımlı Xalid Asif oğlu
Qasımov İlqar Əlfi oğlu
Quliyev Aydın Alqulu oğlu
Quliyev Nurşən Ağacan oğlu
Quliyev Vasif Xosrov oğlu
Qurbanəliyev Azər Rəşid oğlu
Məmmədli Raqif Məmməd oğlu
Məmmədov İnqilab Mirzə oğlu
Məmmədov Rövşən Raqif oğlu
Məmmədov Səyyad Nəsib oğlu
Musayev Hümbət Kazım oğlu
Paşayev Fadil Tahir oğlu
Rizayeva Fəridə Əyyub qızı
Salmanov Hüquq Yaqub oğlu
Seyidov Vüqar Nadir oğlu
Səlimov Hüseynbala Məhəmmədəli oğlu
Vəliyev Vəli Saleh oğlu
Yusifzadə Anar Yusif oğlu
Yusubov Yusif Hacı oğlu.

**3.** Azərbaycanda milli mətbuatın inkişafı sahəsində xüsusi xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Əkbərova Gülşən Məmməd qızı
Əsgərzadə Həqiqət Eyvaz qızı
Vəliyev Həmid Alı oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 iyul 2025-ci il**

# III Şuşa Qlobal Media Forumu

## Açılış mərasimi






**İyulun 20-də “Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda III Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib.**

52 ölkədən 140-a yaxın xarici qonağın, o cümlədən 30-dan çox informasiya agentliyi, 7 beynəlxalq təşkilat və 80-ə yaxın media qurumu, həmçinin sahə üzrə əlaqəli digər təşkilatlardan nümayəndələrin iştirak etdiyi beynəlxalq məclisin açılış mərasimində əvvəlcə Forum haqqında videoçarx nümayiş olunub.

Sonra çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Şuşa Qlobal Media Forumunun Azərbaycanın mədəniyyət beşiyi olan Şuşada keçirilməsinin təsadüfi olmadığını deyib: “Şuşa Azərbaycan xalqının tarixi yaddaşı və ilham mənbəyidir. Bu müqəddəs şəhərdən bir çox naşirlər, yazıçılar və düşüncə sahibləri çıxıb, xalqımızın mədəni və elmi irsinə töhfə veriblər”.

Prezidentin köməkçisi qeyd edib ki, Foruma dünyanın müxtəlif ölkələrindən media nümayəndələri və fikir adamları dəvət edilib. Burada müxtəlif ideyalar və yenilikçi baxışlar formalaşır və paylaşılır: “Əlamətdar haldır ki, bu Forum postmünaqişə dövründə, vaxtilə müharibənin izlərini daşıyan, lakin bu gün yenidən qurulan bir şəhərdə keçirilir.

Şuşa bir zamanlar misli görünməmiş feyk xəbərlərin, təxribatçı məlumatların hədəfi olmuşdu. 1990-cı illərin əvvəllərində Şuşadan cəmi bir neçə kilometr aralıda, Xocalıda dəhşətli soyqırımı törədilib. Lakin o vaxt bu faciəni işıqlandıran media qurumlarının sayı çox az idi”.

H.Hacıyev qeyd edib ki, Şuşa Qlobal Media Forumu, Prezidentlə birbaşa ünsiyyət platforması kimi də olduqca önəmlidir: “Biz Forum vasitəsilə Prezident İlham Əliyevlə birbaşa təmasda olur, regionun hazırkı inkişafı ilə bağlı məlumat alırıq. Forum iştirakçıları Ağdama səfər edəcək, bir hissəsi artıq Xankəndidə olub və bəziləri Laçına da səfər edəcək”.

Prezidentin köməkçisi Azərbaycan mediasının bu il 150 illik yubileyini qeyd etdiyinə də diqqət çəkib: “Azərbaycanın ilk qəzeti “Əkinçi”nin Həsən bəy Zərdabi tərəfindən nəşr olunduğu vaxtdan bəri milli mətbuatımız böyük inkişaf yolu keçib. O dövrdə sərt senzura olsa da, “Əkinçi”də təkamül, maariflənmə və cəmiyyətin inkişafı ilə bağlı mövzular dərc edilirdi. Bu qəzet yeni düşüncənin formalaşmasına, maarifçiliyin yayılmasına mühüm zəmin yaratdı.

Bu gün biz həmin maarifçilik ruhunu yaşadaraq, media vasitəsilə həqiqətlərin yayılmasına və sağlam cəmiyyətin qurulmasına xidmət edirik”.

## Panel iclasları




**“TRT World”, “The Newsmakers” proqramının aparıcısı Andrea Sankenin moderatorluğu ilə keçirilən paneldə “İnnovativ yanaşmalar: Rəqəmsal dövrdə media savadlılığı” mövzusu müzakirə olunub.**

“Euronews” telekanalının aparat rəhbəri, “Euronews Baku”nun baş icraçı direktoru Fernando Soares qeyd edib ki, məlumatın haradan qaynaqlandığını, hansı məqsədlə yayıldığını və ictimai rəyə necə təsir etdiyini dərk etmək bu gün hər bir vətəndaş üçün zərurətə çevrilib: “Bizim məqsədimiz bu prosesi daha geniş auditoriyaya çatdırmaq, xüsusilə də gənc nəslin maariflənməsini təmin etməkdir. Burada təhsil müəssisələrinin rolu xüsusilə vacibdir. Çünki gənclər informasiya mənbəyi olaraq ən çox sosial mediaya müraciət edirlər. Lakin sosial media həm də feyk xəbər və manipulyasiyaların sürətlə yayıldığı bir platformadır”.

Fernando Soares bildirib ki, bugünkü dünyanın reallıqları, informasiya müharibələri, dezinformasiya kampaniyaları və rəqəmsal manipulyasiyalar hər kəs üçün xəbərdarlıq siqnalı olmalıdır. Belə bir şəraitdə media sadəcə xəbərləri təqdim edən vasitə deyil, həm də həqiqətin qoruyucusudur.

Avropa Xəbər Agentlikləri Alyansının baş katibi Alexandru Giboi bu gün informasiya sahəsinin daha geniş, çoxşaxəli və mürəkkəb bir sistemə çevrildiyinə diqqət çəkib: “Biz media sahəsində fəaliyyət göstərən qurumlar olaraq daim əməkdaşlıq və informasiya mübadiləsi içindəyik. Bu əməkdaşlığın mühüm tərəfdaşlarından biri də Azərbaycan Dövlət İnformasiya Agentliyidir. AZƏRTAC-la əlaqələrimiz çoxşaxəlidir və qarşılıqlı dəstəyə əsaslanır”.

“AnewZ” telekanalının müxbiri Oubai Şahbandar qeyd edib ki, bugünkü media mühitində istənilən şəxs - istər sosial şəbəkə istifadəçisi, istərsə də bloger özünü tənqidçi və hətta araşdırmaçı jurnalist kimi təqdim edə bilir. Bu, medianın demokratikləşməsi baxımından müsbət görünsə də, eyni zamanda, bizim - peşəkar jurnalistlərin məsuliyyətini daha da artırır.

“Qazcontent” ASC-nin İdarə Heyətinin sədri Aina Zadabek isə qeyd edib ki, indi süni intellektlə və ümumiyyətlə rəqəmsallaşma ilə baş verənlər insan inkişafının növbəti mərhələsidir. Hazırda insan süni intellektin yaratdığı materialları ayırd edə bilir. Eynilə bunlar informasiya platformasında baş verir. Biz jurnalistlər üçün bu, yeni çağırışdır. Burada fərqi daha da hiss etmək və anlamaq çox vacibdir. Tənqidi düşüncəni inkişaf etdirməyi öyrənməliyik.

*

**İyulun 21-də III Şuşa Qlobal Media Forumu işini panel iclaslarla davam etdirir. Beynəlxalq xəbər aparıcısı və jurnalist Nadira Tudorun moderatorluğu ilə keçirilən paneldə “Media savadlılığı informasiya təhlükəsizliyinin təminatı kimi” mövzusu müzakirə olunub.**

“TRT World” telekanalının müxbiri Jaffar Hasnain deyib ki, media savadlılığı yalnız informasiyanı qəbul etmək deyil, eyni zamanda, onu qiymətləndirmək, mənbəsini araşdırmaq və etibarlılığını müəyyən etmək bacarığıdır: “Bunun üçün hər birimiz müxtəlif və mötəbər mənbələrə əsaslanmağı öyrənməliyik. Təəssüf ki, bu gün bir çox xəbər platforması dəqiqlik və etibarlılıq prinsipinə riayət etmir. Bunun fəsadlarını dəfələrlə görmüşük. Yanlış xəbərlər cəmiyyət arasında çaşqınlıq yaradır, ictimai rəyi manipulyasiya edir və hətta sosial qarşıdurmalara səbəb ola bilir. Bu halların qarşısını almağın yeganə yolu maariflənməkdir”.

Afrika İttifaqı İnkişaf Agentliyinin Kommunikasiya və təbliğat şöbəsinin rəhbəri Ziphora Maubane vurğulayıb ki, media savadlılığı, ilk növbədə, dövlət və özəl sektor rəhbərlərinin daşımalı olduğu məsuliyyətdir: “Media savadlılığı cəmiyyətə tənqidi düşünmə bacarığı qazandırır. İnsanlar eşitdiklərini və oxuduqlarını dərhal qəbul etməməli, onun doğruluğunu dəyərləndirməyi öyrənməlidirlər. Biz isə bu imkanların yaradılması üçün çalışmalıyıq. Bunun üçün isə, ilk növbədə, medianın müxtəlif sahələrə, siyasətə, iqtisadiyyata, təhsilə və gündəlik həyata olan təsirini dərk etməliyik. Media, sadəcə, informasiya ötürən vasitə deyil, həm də ictimai rəyin formalaşmasında aparıcı rola malikdir”.

Çin Media Qrupunun Avrasiya Bürosunun baş redaktorunun birinci müavini Vanq Delu öz çıxışında Prezident İlham Əliyevin fəaliyyətində səmərəlilik və strateji yanaşmanın olduğunu deyib. Onun sözlərinə görə, Azərbaycan Prezidenti iki gün əvvəl jurnalistlərlə görüşü zamanı çox aktual suallara cavab verib. Qırx dörd günlük müharibədə qazanılan Zəfərdən sonra Qarabağın inkişafı üçün yeni bir yol açıldığını vurğulayan Vanq Delu azad edilən torpaqların nə dərəcədə bərpa olunduğunu burada keçirilən tədbirlər zamanı açıq şəkildə görüldüyünü diqqətə çatdırıb.

ADA Universitetinin Kommunikasiya və rəqəmsal media ixtisasının müəllimi Şəfəq Mehrəliyeva isə XXI əsrdə media savadlılığının ən az oxuma-yazma qədər vacib bacarıq olduğunu deyib: “Bu, iki əsas məqamı əhatə edir: birincisi, şərh vermə və mühakimə yürütmə qabiliyyətinin inkişafı; ikincisi isə tolerant yanaşma tərzidir. Əgər bu sahələrə diqqət yetirilsə, cəmiyyətdə daha sağlam və məhsuldar müzakirələrin şahidi ola bilərik. Media tənqidi yanaşmaya önəm verməzsə, bu, daha çox istehzalı və qeyri-ciddi münasibətin formalaşmasına səbəb ola bilər. İnsanlar adətən əldə etdikləri məhdud məlumatlara əsaslanaraq mediaya qarşı tənqidi mövqe sərgiləyirlər. Buna görə də jurnalistlər təqdim etdikləri məlumatları sorğulamalı, təhlil etməli və cəmiyyətə düzgün şəkildə çatdırmalıdırlar”.

Panel işini müzakirələrlə davam etdirib.

*

**“TRT World”un aparıcısı Mariam Zaidinin moderatorluğu ilə keçirilən Forumun sonuncu paneli “Sosial medianın təkamülü ictimai etimada necə təsir edir: Media savadlılığının əhatəsində” mövzusuna həsr olunub.**

“Tik-Tok”un Rusiya, Şərqi Avropa, Mərkəzi Asiya və Monqolustan regionları üzrə ictimai siyasət və dövlət məsələləri şöbəsinin direktoru Sergey Sokolov bu şəbəkənin ənənəvi sosial media platformalarından tamamilə fərqləndiyini bildirib: "Ənənəvi mediada və sosial platformalarda məzmun daha çox redaksiya xətti ilə yönləndirilir, yəni, istifadəçiyə nəyi görməli olduğu göstərilir. “Tik-Tok” isə əksinə, istifadəçilərin görmək istədikləri məzmun əsasında formalaşır. “Tik-Tok”un alqoritmi fərqli işləyir. Burada istifadəçinin izləyici sayının çox olması vacib deyil, insanlar sıfır izləyici ilə belə milyonlarla baxış qazana bilərlər”.

“Google” və “Youtube” üzrə ekspert, “BlitzMetrics” şirkətinin baş icraçı direktoru Dennis Yu hazırda informasiya dövrünün ən böyük çağırışlarından biri həqiqi və obyektiv məlumat mənbəyi axtarışının olduğunu qeyd edib: "Təəssüf ki, bugünkü rəqəmsal dünyada yayılan məlumatların böyük hissəsinin dəqiq, yoxlanılmış və qərəzsiz olub-olmadığını müəyyənləşdirmək hər keçən gün daha da çətinləşir. Süni intellekt bu prosesdə həm fürsət, həm də risk yaradır. O, bir növ elektrik enerjisi kimidir. Düzgün istifadə olunarsa, işimizi asanlaşdırır, həyatımıza dəyər qatır. Ancaq nəzarətsiz və məsuliyyətsiz yanaşılarsa, ciddi fəsadlara yol aça bilər”.

“LinkedIn”ın ictimai sektor, səhiyyə sahəsi və qeyri-kommersiya satışı üzrə rəhbəri Seamus Clancy deyib: “LinkedIn” biznes, peşəkarlar üçün yaradılmış bir platformadır. Bizim şəbəkədə bir dəqiqədə 5 milyon əməliyyat icra olunur”. İqtisadi imkanlar yaratmaq üçün şirkət tərəfindən sərmayə qoyulduğunu deyən Seamus Clancy onların yaratdıqları kontentin yeni səriştələrlə bağlı olduğunu bildirib: "Biz platformada fərqli məzmun yerləşdiririk. Çalışırıq ki, kontent istifadəçilərə maraqlı olsun”.

Avstraliyanın “Sunshine Coast” universitetinin media təlimçisi və tədqiqatçısı Karen Sutherland “Tik-Tok” sosial şəbəkəsindən istifadə zamanı bəzilərinin etik şəkildə davrandığını, bəzilərinin isə qalmaqallı kontent paylaşdığını bildirib: “Auditoriyanı cəlb etmək üçün müxtəlif alətlərdən istifadə edirlər. Süni zəkadan düzgün istifadə etməliyik, çünki o, şəxsi məlumatların yayılmasına təhdiddir".

***XQ***

## Forum iştirakçıları Ağdam və Xocalıda



**III Şuşa Qlobal Media Forumunun iştirakçıları Ağdam rayonunda aparılan bərpa və yenidənqurma işləri ilə tanış olublar. Əvvəlcə Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksi ilə tanış olan qonaqlara tarixi məkan haqqında məlumat verilib.**

Bildirilib ki, XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Tövlə kimi istifadə edilən xan sarayında inək və donuz saxlanılıb.

Forum iştirakçıları Ağdam Sənaye Parkına da baş çəkiblər. Bildirilib ki, burada sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün əlverişli investisiya mühiti yaradılıb. Belə ki, sahibkarlar dövlət vəsaiti hesabına infrastrukturla təmin edilirlər. Sənaye Parkında ümumi investisiyalarının həcmi 270 milyon manatdan çox olan 30 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 121 milyon manatdan çox investisiya yatırılıb.

Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksində qonaqlara məlumat verilib ki, bu obyektlər işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən mühüm yol-nəqliyyat layihələrindəndir. Azərbaycanda ilk qapalı dəmir yolu platforması məhz Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksində inşa olunub.

Forum iştirakçıları sonda Xıdırlı kəndinə gəliblər. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, işğaldan azad olunan digər ərazilərdə olduğu kimi, Ağdam rayonunda da quruculuq işləri geniş vüsət alıb. Ağdam şəhəri ilə yanaşı, rayonun kəndlərinin tikintisi həyata keçirilir.

Xıdırlı kəndinə 1-ci və 2-ci mərhələ üzrə 6 minə yaxın əhalinin köçürülməsi, 1498 fərdi evin inşası nəzərdə tutulur. Kəndin 1-ci mərhələsinin açılışı iyulun 3-də olub. Bu mərhələdə kənddə 719 fərdi ev, zəruri müasir sosial infrastruktur, o cümlədən inzibati və xidmət binaları tikilib.

*

**Media Forumunun iştirakçıları Ağdamdan sonra Xocalıya səfər ediblər. Onlara burada Xocalının 30 ildən artıq müddətdə işğal altında qalması, 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkənin suverenliyinin təmin olunması, işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Xocalıda aparılan bərpa-quruculuq işləri barədə məlumat verilib.**

Bildirilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücum edərək azərbaycanlılara qarşı soyqırımı törədib. Şəhər darmadağın edilib və talanıb, dinc əhaliyə amansızlıqla divan tutulub. 613 nəfər xüsusi amansızlıqla və işgəncə verilməklə öldürülüb. Onlardan 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olub. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin taleyi indiyədək məlum deyil.

Diqqətə çatdırılıb ki, Azərbaycanın işğaldan azad olunmuş bütün əraziləri kimi, Xocalıda da böyük bərpa-quruculuq işləri həyata keçirilir. Artıq bir zamanlar yurdlarından didərgin düşən sakinlərin Xocalı şəhərinə və rayonun üç kəndinə qayıdışı təmin edilib.

***XQ***

## Şuşanın tarixi məkanlarında



**Şuşa Qlobal Media Forumunun iştirakçıları dünən Şuşa şəhərinin tarixi məkanları ilə tanış olublar.**

Əvvəlcə qonaqlar Şuşa şəhərinin mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərinə baş çəkiblər. İşğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırılıb. Bildirilib ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Qonaqlar Xan qızı bulağını, qala divarlarını, Molla Pənah Vaqifin məqbərəsini ziyarət ediblər. Sonda Forum iştirakçıları Şuşa şəhərinin ən qədim məscidi olan Yuxarı Gövhər Ağa məscidinə baş çəkiblər. Onlara məlumat verilib ki, Ermənistan silahlı qüvvələri 1992-ci ildə Şuşanın işğalı zamanı və ondan sonra Yuxarı Gövhər Ağa məscidini vandalcasına dağıtmışdılar. Məscidin interyeri tamamilə dağıdılmış, fasadına ciddi ziyan dəymiş, minarələr zədələnmiş, minbər hissələri uçurulmuşdu. Vətən müharibəsi nəticəsində Şuşanın azad olunmasından sonra məscid yenidən təmir və bərpa edilib.

***XQ***

## Kulinariya sərgisi, musiqi proqramı

**Şuşa Qlobal Media Forumunun son günü iştirakçılar üçün yaddaqalan və zəngin proqramla yekunlaşıb. Günün sonunda Şuşanın füsunkar təbiət qoynunda, açıq havada təşkil olunmuş xüsusi tədbirdə Forum iştirakçıları Azərbaycan mətbəxinin zənginlikləri ilə tanış olublar.**

Burada tanınmış yerli və xarici aşpazlar tərəfindən müxtəlif milli yeməklərin, o cümlədən qutab, kabab, dolma və digər ənənəvi təamların canlı hazırlanması nümayiş etdirilib. Hazırlanan yeməklər yerindəcə qonaqlara təqdim olunub. Aşpazlar, həmçinin qonaqlara yeməklərin hazırlanma prosesi, istifadə olunan yerli məhsullar və qədim kulinariya ənənələri barədə məlumat veriblər. Ləziz şam yeməyi ilə yanaşı, tədbir boyu canlı musiqi proqramı da təqdim olunub. Yerli ifaçılar və musiqi qrupları Azərbaycan xalq və estrada musiqilərini, həmçinin xarici repertuardan sevilən mahnıları səsləndiriblər. Musiqi və kulinariya harmoniyası, Forum iştirakçılarında mədəni zənginliyimizə və qonaqpərvərliyimizə böyük maraq oyadıb.

*

Həmin gün Laçında isə Şuşa Qlobal Forumu çərçivəsində “AZƏRTAC 105: Əməkdaşlığın keçmişi, bu günü və gələcəyi” mövzusunda dəyirmi masa keçirilib.

***XQ***

# Dünya mətbuatı III Qlobal Media Forumunda Prezident İlham Əliyevin çıxışından əsas məqamları işıqlandırmaqda davam edir










**Dünyanın nüfuzlu mətbuat orqanları Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından əsas məqamları işıqlandırmaqda davam edir.**

Çinin Sinxua agentliyinin "Azərbaycan Prezidenti Çinlə qarşılıqlı etimadın yüksək səviyyəsini alqışlayıb" sərlövhəli məqalə dərc edib. Yazıda qeyd olunub ki, Prezident İlham Əliyev iki ölkə arasında əməkdaşlıq səviyyəsini yüksək qiymətləndirib, son dövrlərdə Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə dəfələrlə görüşmək imkanı olduğunu, bu il dövlət səfərim zamanı və ötən il beynəlxalq sammit çərçivəsində keçirilən görüşlərdə iki mühüm sənədin – ötən il "Strateji tərəfdaşlıq haqqında Bəyanat", bu il isə "Hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalandığını bildirib. Azərbaycanın dövlət başçısı diqqətə çatdırıb ki, bu sənədlər dövlətlərarası münasibətlərin ən yüksək formalarını əks etdirir.

Çinin "Sina", "Finance.sina", "Quança", "163.com" və digər qəzet və portallarında dərc olunan məqalələrdə qeyd olunub ki, Prezident İlham Əliyev bir neçə gün öncə ümumvətəndaş pasportları ilə Çinə səfər etmək istəyən Azərbaycan vətəndaşları üçün viza rejiminin tamamilə aradan qaldırıldığı, Azərbaycanın isə bir il əvvəl Çin vətəndaşları üçün viza rejimini ləğv etdiyi barədə məlumat verib, bu addımın xalqlarımız, tələbələrimiz və iş adamlarımız arasında təmasların daha da intensivləşməsinə səbəb olacağını vurğulayıb.

Məqalələrdə xüsusi olaraq qeyd edilib ki, Prezident İlham Əliyev Azərbaycanla Çinin hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini, Bakının Tayvan və digər məsələlər ilə bağlı Pekinin mövqeyini müdafiə etdiyini bildirib. O, həmçinin iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasına dair böyük planların olduğunu, artıq Çinin bir çox şəhərlərindən Azərbaycana və Azərbaycan ərazisindən Qərbə konteyner qatarları göndərildiyini diqqətə çatdırıb. "Biz Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü əvvəldən dəstəkləmişik və bu məqsədlə ölkəmizdə uyğun nəqliyyat-logistika infrastrukturunu hazır etmişik", – deyə Azərbaycan Prezidenti vurğulayıb.

Çin mediası dövlətimizin başçısının Ermənistanla davam edən sülh prosesi, AZAL-ın təyyarəsinin qəzaya uğraması ilə bağlı Bakının mövqeyi barədə fikirlərinə də geniş yer ayırıb.

Yaponiya mətbuatı da Prezident İlham Əliyevin çıxışını geniş işıqlandırıb. Gündoğan ölkəsinin "Tokio-np", "Newseveryday", "Sankei Sinbun", "Newspick", "Okinawatimes", "47News", "Net Nihonkai" qəzet və portallarında Prezident İlham Əliyevin AZAL aviaşirkətinə məxsus təyyarənin Rusiya səmasında vurulması, bu insidentlə bağlı qarşı tərəfin hələ də heç bir məntiqli açıqlama verməməsi fikirləri yer alıb. Yapon mediasının xəbərlərində qeyd olunub ki, Azərbaycan dövlətinin başçısı Moskvanın həlak olanların ailələrinə və yaralanan şəxslərə, həmçinin AZAL-ın təyyarəsinə görə təzminat ödəməsi tələbini irəli sürüb. Dövlətimizin başçısının aşağıdakı sözləri sitat gətirilir: "Biz artıq Rusiya tərəfini məlumatlandırmışıq ki, beynəlxalq ədliyyə sisteminə müraciət edəcəyik. Biz müəyyən bir qovluq hazırlayırıq. Bilirik ki, buna vaxt lazımdır. On il lazım oldu ki, Malayziya hava yollarına məxsus "Boeing"lə bağlı təhqiqat başa çatsın. Ancaq biz bu ədalətə nail olacağıq. Biz bunu əldə edəcəyik. Təəssüf ki, bugünkü vəziyyət ikitərəfli münasibətlərimiz baxımından heç də məqbul deyil".

Yapon mediası Prezident İlham Əliyevin Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanmasına dair rəsmi Bakının mövqeyini də işıqlandırıb. Materiallarda Azərbaycanın dövlət başçısının sülh müqaviləsinin Ermənistan konstitusiyasına dəyişiklik edilən və ATƏT-in Minsk qrupunun buraxılan kimi imzalana biləcəyini vurğuladığı qeyd olunub.

Fransa mətbuatı da III Qlobal Media Forumunda Prezident İlham Əliyevin çıxışına geniş yer ayırıb. "Euronews" və "RFI" media orqanlarının xəbərlərində də əsas diqqət dövlətimizin başçısının AZAL aviaşirkətinə məxsus təyyarənin Rusiya səmasında vurulması, bu insidentlə bağlı rəsmi Bakının mövqeyinə yönəldilib. Materiallarda vurğulanıb ki, Azərbaycan bu məsələ ilə əlaqədar beynəlxalq məhkəmə sisteminə müraciət etmək niyyətindədir. Rəsmi Bakı Rusiyadan həlak olanların ailələrinə və yaralananlara təzminat ödənilməsini tələb edir.

Macarıstan mediasında dərc olunan materiallarda da Prezident İlham Əliyevin çıxışının əsas məqamları yer alıb. "Economx.hu", "Liner.hu", "hvg.hu" informasiya portallarında dərc olunan materiallarda da dövlətimizin başçısının AZAL-a məxsus təyyarənin vurulması, bu insidentlə bağlı Azərbaycanın mövqeyi haqqında fikirləri yer alıb.

Vyetnamın "Vietnam-plus", "Vnexpress", "Laodong", "Plo.vn", "Vo.vn", "Baonga" qəzet və portallarında dərc olunan materiallarda Prezident İlham Əliyevin Azərbaycanla Ermənistan arasında nizamlanma və sülh sazişinin imzalanmasına dair fikirləri yer alıb. Qeyd olunub ki, Azərbaycan dövlət başçısı Əbu-Dabidə keçirilən görüşün nəticələrini şərh edərkən bildirib ki, sülh sazişi Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının yer aldığı konstitusiyasında dəyişiklik və ATƏT-in Minsk qrupunun buraxılmasından sonra imzalana bilər. Materiallarda, həmçinin dövlətimizin başçısının AZAL-a məxsus təyyarənin vurulması, bu insidentlə bağlı Azərbaycanın mövqeyi haqqında fikirlərinə yer verilib.

Çilinin "El-periodista", "El-vinotinto, "İnoticias" informasiya portallarında dərc olunan yazılarda Prezident İlham Əliyevin Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması, Zəngəzur dəhlizinin açılması ilə bağlı fikirlərinə geniş yer ayrılıb. Diqqətə çatdırıb ki, Azərbaycanın dövlət başçısı ölkəsinin Ermənistan ilə sülhə yaxın olduğunu bildirib, amma İrəvanın bu prosesdə daha konstruktiv rol oynamasının, eyni zamanda, kommunikasiyaların açılması istiqamətində müsbət addımlar atmasının zəruriliyini vurğulayıb. Materiallarda, həmçinin dövlətimizin başçısının AZAL-a məxsus təyyarənin Rusiya səmasında vurulması, bu insidentlə bağlı Azərbaycanın mövqeyi haqqında fikirləri də təqdim olunub.

Hindistanın "Hindustan Times", "Firstpost", Tourguidence" qəzet və portallarında da Prezident İlham Əliyevin çıxışındakı əsas məqamlara yer ayrılıb. Əsas diqqət AZAL-a məxsus təyyarənin vurulması və 38 sərnişinin həlak olması ilə nəticələnən bu insidentlə bağlı dövlətimizin başçısının fikirlərinə yönəldilib. Qeyd olunub ki, Prezident İlham Əliyev bu hadisə ilə bağlı Bakının Rusiya tərəfindən hələ də cavab almadığını bildirib və hadisənin tanınmasını, təqsirkarların məsuliyyətə cəlb olunmasını, zərərçəkənlərə təzminat ödənilməsini tələb edib.

İsveçrənin "Swissinfo" nəşrinin dərc etdiyi "Azərbaycan təyyarə qəzası ilə əlaqədar Rusiyadan təzminat tələb edir" sərlövhəli məqalədə dövlətimizin başçısına istinadla qeyd olunur ki, Azərbaycan yeddi aydır Rusiya tərəfdən heç bir aydın cavab almayıb. Azərbaycanın Baş prokuroru Rusiya Təhqiqat Komissiyasına sorğular göndərir, lakin cavab olaraq yalnız "istintaq davam edir" ifadəsi alınır. Azərbaycan beynəlxalq ədliyyə sisteminə müraciət etmək niyyətindədir.

Pakistanın "İslamabadpost" nəşri isə III Qlobal Media Forumu haqqında geniş hesabat dərc edib. Məqalədə Prezident İlham Əliyevin çıxışından əsas məqamlar – Azərbaycan-Ermənistan sülh prosesi, Zəngəzur dəhlizinin açılması, nəqliyyat-logistika layihələri, beynəlxalq və regional məsələlərlə bağlı fikirlərinə geniş yer verilib. Vurğulanıb ki, 52 ölkədən 140 qonağın iştirak etdiyi bu forum işğaldan azad edilmiş Xankəndidə keçirilir və beynəlxalq dialoqun gücləndirilməsi platforması kimi rəmzi əhəmiyyətə malikdir.

BƏƏ-nin "Şarjah24" qəzeti və rəsmi WAM xəbər agentliyində dərc olunan məqalələrdə Prezident İlham Əliyevin ABŞ-la qarşılıqlı fəaliyyətə dair bəyanatı ön plana çıxarılıb. Qeyd olunub ki, Azərbaycanın lideri Bakı ilə Vaşinqton arasında münasibətlərdə müsbət dinamikaya diqqət çəkib və Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin təşviqi istiqamətində göstərdiyi səylərə görə Donald Trampa təşəkkür edib. Yazılarda, həmçinin dövlətimizin başçısının beynəlxalq və regional münasibətlərlə, Əbu-Dabi görüşünün nəticələri ilə bağlı fikirləri də yer alıb.

Kubanın "Prensa Latina" qəzetində dərc olunan "Bakı təyyarə qəzasına görə Moskvaya qarşı iddia hazırlayacaq" sərlövhəli materialda qeyd olunur: "Azərbaycan Prezidenti İlham Əliyev ölkəsinin Azərbaycan Hava Yollarına (AZAL) məxsus təyyarənin qəzaya uğraması ilə bağlı Rusiyaya qarşı beynəlxalq məhkəmələr qarşısında iddia qaldırmaq üçün sənədlər hazırladığını qeyd edib. Prezidentin sözlərinə görə, Azərbaycanın Baş prokuroru ötən ilin dekabrında Qazaxıstanın Aktau şəhəri yaxınlığında baş vermiş qəza ilə bağlı Rusiya İstintaq Komitəsinin rəhbərinə sorğular göndərir, lakin yeganə cavab budur ki, "istintaq davam edir".

İordaniyanın "Petra", Filippinin PNA rəsmi agentlikləri, Honkonqun "Bau" informasiya portalı, Venesuelanın "El radio del Sur", "Prensa Latina", Tayvanın "New talk" qəzet və portalları da Azərbaycan Prezidenti İlham Əliyevin III Qlobal Media Forumundakı çıxışının əsas məqamlarını işıqlandırıb.

***AZƏRTAC***

# Bakı–Pekin əlaqələri hərtərəfli strateji tərəfdaşlıq mərhələsində

**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev iyulun 19-da III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı ölkələrimiz arasında əməkdaşlıq səviyyəsini yüksək qiymətləndirdi. Bildirdi ki, son dövrlərdə Çin Xalq Respublikasının Sədri Si Cinpinlə dəfələrlə görüşmək imkanı olub: "Bu il dövlət səfərim zamanı və ötən il beynəlxalq sammit çərçivəsində görüşlərimiz baş tutub, həmçinin iki mühüm sənədi qəbul etdik və imzaladıq. Ötən il bu sənəd "Strateji tərəfdaşlıq haqqında Bəyanat", bu il isə "Hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" olmuşdur. Bu sənədlər dövlətlərarası münasibətlərin ən yüksək formalarını əks etdirir. Çin Xalq Respublikası ilə bu səviyyədə qarşılıqlı etimada əsaslanan münasibətlər qurmağımız bizi çox sevindirir".

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanla Çin hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib. Azərbaycan açıq şəkildə bildirir ki, Çin Xalq Respublikasının Tayvan və digər məsələlər ilə bağlı mövqeyini dəstəkləyir. Bizim mövqeyimiz olan "vahid Çin" siyasəti Çin rəhbərliyinə və xalqına yaxşı məlumdur.

Bəli, iki ölkə arasında indiyədək bir sıra yüksək səviyyəli səfərlər həyata keçirilib. Bu səfərlər zamanı müxtəlif sənədlər imzalanıb. Lakin Prezident İlham Əliyevin 2025-ci il aprelin 22-24-də Pekinə etdiyi dövlət səfəri əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə qaldırılması ilə tarixə öz möhürünü vurdu. Səfər zamanı imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" iki ölkə münasibətlərində dönüş nöqtəsi hesab olunur. Bu sənəd təkcə diplomatik sənəd deyil, tərəflərin uzunmüddətli qarşılıqlı etimad və strateji maraqlara əsaslanan əməkdaşlığa sadiqliyinin rəsmi təsdiqidir. Əgər 2024-cü il iyulun 3-də Astanada Prezident İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" ilə münasibətlərin səviyyəsi dostluq və əməkdaşlıqdan strateji tərəfdaşlıq səviyyəsinə qaldırılmışdısa, bu ilin aprelindəki Birgə Bəyanatla hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldildi. Bu, Azərbaycanın Çinlə münasibətlərə xüsusi önəm verdiyini, Bakının da Pekin üçün bölgədə mühüm tərəfdaş olduğunu nümayiş etdirdi.



Sənəddə tərəflərin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə dəstəyi açıq şəkildə ifadə olunub. Bu, məqam hər iki ölkə üçün önəmlidir. Bəyanatda həmçinin "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycanla daha sıx əlaqələndirilmiş şəkildə həyata keçirilməsi vurğulanıb. Bu isə ölkəmizin geostrateji əhəmiyyətini və tranzit imkanlarını artırır. Enerji, nəqliyyat, logistika, yüksək texnologiyalar, kənd təsərrüfatı və turizm sahələrində əməkdaşlığın genişləndirilməsi də sənəddə xüsusi yer tutur. Bundan əlavə, humanitar və mədəniyyət sahəsində əlaqələrin dərinləşdirilməsi də strateji tərəfdaşlığın ayrılmaz tərkib hissəsi kimi qeyd olunur. Təhsil və elmi mübadilələrin genişlənməsi də iki ölkə arasında uzunmüddətli münasibətlərin möhkəmləndirilməsinə xidmət edir. Bu sənəd göstərir ki, Azərbaycan öz xarici siyasətində balansı qorumaqla həm Qərb, həm də Şərq ölkələri ilə dayanıqlı münasibətlər qurur. Çin üçün də Azərbaycan bölgədə sabitlik, təhlükəsizlik və əməkdaşlıq baxımından etibarlı tərəfdaş kimi qəbul edilir. Bütövlükdə, bu bəyanat iki ölkənin münasibətlərini daha da dərinləşdirəcək, onları təkcə ikitərəfli deyil, həm də regional və qlobal səviyyədə koordinasiyalı şəkildə hərəkət etməyə sövq edəcək.

Onu da bildirək ki, səfər zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş" imzalanıb. Bununla da iki ölkə arasında viza rejimi tam ləğv olunub. Belə bir sənədin imzalanması ikitərəfli münasibətlərin daha da dərinləşməsinin göstəricisidir. Sözsüz ki, bu addım iki ölkə vətəndaşlarının sərbəst hərəkətini asanlaşdırmaqla qarşılıqlı turizm, biznes və təhsil əlaqələrinin inkişafına təkan verəcək. Saziş, həmçinin vətəndaşlar arasında təmasların artmasına və mədəniyyətlərarası dialoqun güclənməsinə şərait yaradacaq. Bu qərar qarşılıqlı etimadın, hüquqi əməkdaşlığın, eləcə də təhlükəsizlik sahəsində koordinasiyanın yüksək səviyyəsini nümayiş etdirir. Nəticə etibarilə, saziş iki ölkə arasında strateji tərəfdaşlığın praktik müstəviyə keçidini simvolizə edir.

*

**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən politoloq İlyas Hüseynov** bildirdi ki,



Azərbaycanla Çin arasındakı münasibətlər strateji xarakter daşıyır və hər iki ölkənin milli maraqlarına söykənir. Onun sözlərinə görə, Çinin dünya siyasətində və iqtisadiyyatında artan gücü, nüfuzu hər kəsə bəllidir: "Bu gün Çinin "yumşaq güc"ü də diqqət çəkir. Biz görürük ki, dünyanın müxtəlif bölgələrində Çin dilinin öyrənilməsinə, mənimsənilməsinə də böyük önəm verilir. Bu xüsusda Azərbaycanla Çin arasındakı münasibətlər diqqəti cəlb edir. Ölkəmiz uzun illərdir ki, Çinin "Vahid Çin" siyasətini dəstəkləyir. Eyni zamanda, "Bir kəmər, bir yol" layihəsinə və strateji konsepsiyasına maraq göstərir. Çünki bu layihənin icra olunduğu ərazi həm də bizim bölgəni əhatə edir. Beləliklə, Çin–Mərkəzi Asiya–Xəzər–Cənubi Qafqaz–Türkiyə–Avropa marşrutu üzrə beynəlxalq yüklərin daşınması bu meqalayihə ilə həyata keçiriləcək. Bu baxımdan Azərbaycan həm də bölgədə müvafiq nəqliyyat-logistika və infrastruktur-kommunikasiya fəaliyyətini genişləndirir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin, Ələt azad iqtisadi zonasının yaradılması, eləcə də ölkənin avtomobil, dəmiryolu sisteminin və digər infrastrukturunun genişlənməsi ilə bərabər həm də işğaldan azad edilmiş ərazilərdə üç beynəlxalq hava limanının inşa edilməsi məhz bu uzaqgörən siyasətin, perspektiv planların tərkib hissəsidir".

Politoloq hesab edir ki, digər tərəfdən Çinlə Azərbaycan arasındakı münasibətlərdə yüksək inkişaf mərhələsinin başladığı Prezident İlham Əliyevin Çinə sonuncu dövlət səfəri zamanı müşahidə olundu: "İmzalanan çoxsaylı sənədlər siyasi, iqtisadi, nəqliyyat, logistika, humanitar, mədəniyyət və digər sahələr üzrə əməkdaşlığı yeni keyfiyyət müstəvisinə qaldırdı. Səfər zamanı imzalanmış sazişlə Çinlə Azərbaycan arasında viza rejimi ləğv edilib. Bunun nəticəsində biz bir müddət sonra turistik səfərlərin sayının artacağını müşahidə edəcəyik. Beləliklə, dövlətlər və xalqlar daha yaxın təmasda olacaqlar. Eləcə də biz turizmin gələcəkdə siaysi və iqtisadi kapitallaşmaya gətirib çıxaracağının şahidi olacağıq".

Politoloq onu da bildirdi ki, digər tərəfdən Çin ötən ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) da böyük nümayəndə heyəti ilə iştirak etmişdi: "Çinin olduqca rəngarəng, maraqlı pavilyonu var idi. Önəmli müzakirələr aparılırdı. Çin pavilyonunda keçirilən bir neçə müzakirədə mən də iştirak etdim və gördüm ki, Çinin yaşıl enerji sahəsində böyük planları, ambisiyalı layihələri var. Azərbaycan Çinlə yaşıl enerji sahəsində də əməkdaşlıq etməkdədir. Hesab edirəm ki, bu əməkdaşlıq gələcəkdə Qarabağın və Şərqi Zəngəzurun həm minalardan təmizlənməsinə, həm inkişafına, həm də azad edilmiş ərazilərə Çin sərmayəsinin yatırılmasına gətirib çıxaracaq. Yəni bizim əməkdaşlığımızın gündəliyi çox genişdir və hesab edirəm ki, hələ kəşf edilməmiş bir sıra sahələr də mövcuddur. Bu da gələcəkdə potensialın tam həcmdə işlənilməsinə gətirib çıxaran layihələrin icrası ilə müşayiət olunacaq".

***Səxavət HƏMİD***
***XQ***

# “Bizdən əvvəlki və sonrakı nəsillər qarşısında məsuliyyət hissi”

## *İlham Əliyev Ata vəsiyyətini həmin tələblə yerinə yetirdiyini dedi*

**Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**sabiq Prezidenti.**
**1 oktyabr 2003-cü il.**



**Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada – Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!**

**Azərbaycan Respublikasının**
**Prezidenti, Ali Baş Komandan**
**İlham Əliyevin xalqa müraciətindən**
**Bakı, Şəhidlər xiyabanı,**
**8 noyabr 2020-ci il**

**Əslində, iyulun 19-da Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə keçirilən “Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşdə səsləndirdiyi fikirlərin mətbuatla bağlı olan hissəsini daha çox qabartmalı idik. Çünki bu sətirlərin qəzet səhifəsinə məhz Milli Mətbuat və Jurnalistika Günü çıxarılması gözlənilirdi. Azərbaycan jurnalistinin dövlət başçımıza sual verərkən dediyi “Cənab Prezident, biz birinci Şuşa Qlobal Forumunda Şuşada idik. Qlobal forumdan sonra Şuşadan Xankəndiyə baxmışdıq. Amma indi biz Xankəndidəyik, Siz də buradasınız”– arqumenti fikrimizi bir qədər konkretləşdirdi.**

Geridə qalan illərlə bağlı çox məqamlar yadıma düşdü. Ən başlıcası isə ümummilli lider Heydər Əliyev 13 sentyabr 2002-ci ildə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində Ermənistandan olan qaçqınlar və Xocalıdan olan məcburi köçkünlər üçün salınmış qəsəbənin açılış mərasimində demişdi: “Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm. Mən buna inanıram və bu inamla da sizin qarşınızda nitq söyləyirəm. Ancaq indi sizə bu şəraiti yaratmaq mümkün olub, mən də bunu yaratmışam”.

Diqqət yetirin, Ulu öndər hələ İkinci Qarabağ müharibəsindən 18 il əvvəl əmin olduğunu söyləyirdi ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Prezident İlham Əliyev isə 2025-ci il iyulun 19-da məhz Xankəndidə bölgədə hər şeyin ədalət naminə dəyişdiyini qürurla yada salır.

Başqa bir məqama diqqət yetirək. Ulu öndər 2002-ci ildə Azərbaycan iqtisadiyyatının real vəziyyətini səmimi şəkildə etiraf edirdi: “İndi sizə bu şəraiti yaratmaq mümkün olub, mən də bunu yaratmışam”. Prezident İlham Əliyev isə iki gün əvvəl Xankəndidə müasir Azərbaycan reallıqlarından fəxrlə söz açdı: “Biz beynəlxalq ictimaiyyətin həqiqətən fəal üzvünə çevrilmişik. Fərqli beynəlxalq iştirakçılarla güclü əlaqələrə malik olan ölkəmiz ən azı geniş regionda daha mühüm rol oynaya bilər və oynayacaq. Geniş region dedikdə, mən Cənubi Qafqazı, Orta Şərqi, Mərkəzi Asiyanı və Azərbaycanın yaxınlığında olan bütün yerləri nəzərdə tuturam. Həmçinin Avropa da ola bilər, çünki Avropa İttifaqı ilə gündəliyimiz, deyərdim ki, yenidən başlama prosesindədir. Əvvəlki Avropa Komissiyası ilə çətin anlar olub, lakin indiki yeni Komissiyadan, onun rəhbərliyindən müsbət mesajlar alırıq. Birmənalı olaraq, biz də müsbət cavab veririk”.

O ki qaldı ata vəsiyyətinin yerinə yetirilməsinə, çəkinmədən deyə bilərik ki, bu fakt təkcə Azərbaycan siyasətçiləri və mətbuatımız tərəfindən deyil, ölkəmizin uğurlarına, liderimizin nüfuzunun artmasına sevinən bütün dost və tərəfdaşlarımız tərəfindən səmimi şəkildə etiraf olunur. Elə Xankəndidə keçirilən beynəlxalq tədbirdə də həmin etirafı dəfələrlə eşitdik. Məsələn, Özbəkistan Jurnalistika və Kütləvi Kommunikasiyalar Universitetinin rektoru Şirzadxan Qüdrətxoca (Şerzodxon Kudratxuca) dövlət başçımıza sual verməzdən əvvəl xatırlatdı ki, Özbəkistan Azərbaycanın dahi Prezidenti Heydər Əliyevi çox yüksək qiymətləndirir və onu çox yaxşı tanıyır: “Təəssüflər ki, bugünkü Qarabağı görmək ona nəsib olmadı. Çox çətin bir yol keçsə də, onu görə bilmədi. Amma deyək ki, Uca Tanrının iradəsi olsaydı, 2023-cü ildən sonra bu günü görə bilsəydi, Azərbaycan Prezidentinə yox, təkrar edirəm, Prezidentə yox, Azərbaycan xalqının böyük oğluna nə deyərdi? Onun baxışı, bugünkü əhvali-ruhiyyəsi necə olardı?”

Etiraf edim ki, tədbirin bir çox iştirakçıları kimi mən də həmin sualı eşidəndə həyəcanlandım. Çünki olduqca çətin sual idi. Ancaq zaman sübut edib ki, Prezident İlham Əliyev üçün çətin sual yoxdur. Cavaba diqqət yetirək: “Atamın mənə nə deyə biləcəyinə gəldikdə, əlbəttə, bunu bilə bilmərəm. Amma təxmin edə bilərəm. Məncə, siz də təxmin edirsiniz. Bu, yəqin ki, daha çox ritorik sualdır. Mənim üçün isə atamın vəsiyyətini yerinə yetirmək, eləcə də bu torpaqlardan didərgin düşən, ədalətin təntənəsini görmədən dünyadan köçənlərin vəsiyyətlərini yerinə yetirmək böyük şərəf və qürur mənbəyi idi. Mən son beş ildə bu qürur hissi ilə yaşayıram. İnşallah, mən və bütün Azərbaycan xalqı sona qədər bu hisslə yaşayacağıq”.

Dövlət başçımız Ukraynadakı “Gordon” media qurumunun təsisçisi, jurnalist Dmitro Qordonun “Siz qalib xalqın lideri kimi Ukraynaya və ukraynalılara hansı tövsiyələri verə bilərsiniz?” – sualını cavablandırarkən də özünəməxsus arqumentləri səsləndirməklə yanaşı, ulu öndər Heydər Əliyevin siyasi kursunun üstün cəhətlərini yada saldı: “Heç vaxt işğalla barışmamaq. Bu, əsas tövsiyədir. Bizim etdiyimiz də bu idi. Daha doğrusu, biz bu prosesi belə görürdük”.

Dövlət başçımız xatırlatdı ki, Birinci Qarabağ müharibəsi dövrü çox çətin, faciəli idi – çoxsaylı qurbanlar, Xocalıda azərbaycanlıların soyqırımı... Postmünaqişə dövrü də mənəvi və iqtisadi baxımdan az ağır deyildi. Bizim bir milyona yaxın insanımız var idi ki, onlar yaşamaq imkanlarından məhrum olmuşdular: “Pul yox idi, xəzinə boş idi, bizi demək olar ki, heç kim dəstəkləmirdi. Heç kimdən heç bir əhəmiyyətli beynəlxalq dəstəyimiz yox idi, iqtisadiyyat dağılmışdı, inflyasiya min faiz idi, kütləvi işsizlik, yoxsulluq isə demək olar ki, 100 faiz səviyyəsində idi. Bax, belə bir Azərbaycan var idi. Həmin vaxt Heydər Əliyev hakimiyyətə gəldi. Xalqımızın bəxti onda gətirdi ki, çətin bir zamanda ona müraciət etdi və o da bu ağır yükü öz üzərinə götürdü. Halbuki, o, gənc deyildi, artıq 70 yaşı var idi, səhhəti o qədər də yaxşı deyildi, ağır xəstəlik keçirmişdi. Amma məhz onun sayəsində vəziyyəti sabitləşdirmək mümkün oldu. Üstəlik, o vaxt vətəndaş müharibəsi də gedirdi. Biz tədricən ayağa qalxmağa, necə deyərlər, dirçəlməyə başladıq. Yalnız bir şeyi düşünürdük. Mən əminəm, vətəndaşlarımızın əksəriyyəti də mənim dediyimi bölüşür ki, işğal olunmuş torpaqlarımızı necə qaytarmağı fikirləşirdik. Biz başa düşürdük ki, bu, çətin olacaq. Biz hamımız əzəli torpaqlarımızı qaytarmaq arzusu ilə yaşamışıq”.

Güman edirəm ki, Azərbaycan Prezidentinin Ukrayna xalqına tövsiyəsini eşitmək istəyən cənab Dmitro Qordon ondan eşitdiyi bu arqumentləri heç zaman unutmayacaq: heç vaxt təslim olmamaq və heç vaxt ərazi bütövlüyünün pozulması ilə barışmamaq: “Baxın, Özbəkistandan olan dostumuz atam haqqında sual verdi. Bilirsiniz, o da bizim hamımız kimi bu günü – Qarabağa qayıtdığımız günü görmək istəyirdi. Amma bu, ona nəsib olmadı. Məsələ şəxsiyyətdə deyil, məsələ ambisiyada deyil. Məsələ ondadır ki, bizdən əvvəl yaşamış nəsillər və bizdən sonra yaşayacaq nəsillər qarşısında məsuliyyət hiss etməliyik”.

Sonda xatırladım ki, bu sətirləri tamamlamaq üçün final cümləlləri seçəndə jurnalist təəssübkeşliyindən ayrıla bilmədim. Çünki dövlət başçımız Vüsalə Mahirqızının sualını cavablandırarkən bizə çox böyük etimad göstərdiyini söyləmişdi. Doğrudur, cənab Prezidentin Azərbaycan mətbuatı barədə təqdiredici fikirlərini əvvəllər də çox eşitmişdik. Ancaq həmin qiymətləndirmələri Xankəndidən, həm də beynəlxalq aləmdəki çoxsaylı həmkarlarımızın da iştirak etdiyi tədbirin tribunasından eşitmək olduqca qürurverici idi.

Cənab Prezident Xankəndidə dedi ki, bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib: “Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Fakt odur ki, bu gün Azərbaycan mediasını bir çox ölkələrdə müxtəlif səviyyələrdə oxuyurlar, mediada gedən yazıları, məqalələri təhlil edirlər. O məqalələrin Azərbaycanın rəsmi mövqeyinə nə dərəcədə uyğun olub-olmaması ilə bağlı da fərziyyələr irəli sürülür. Bu, deməyə əsas verir ki, mediamız doğrudan böyük inkişaf yolu keçib. Media deyəndə mən ilk növbədə jurnalistləri nəzərdə tuturam. Çünki medianı nüfuzlu edən məhz əməkdaşlardır, sizin kimi insanlardır, sizin həmkarlarınızdır. Mən, sözün əsl mənasında, sevinirəm və sizə yeni uğurlar arzulayıram”.

***İttifaq MİRZƏBƏYLİ***
***Əməkdar jurnalist***

# MEDİA-nın saxta məlumatla bağlı açıqlaması




**Bir sıra sosial şəbəkə hesablarında Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin adından Rusiya–Azərbaycan münasibətlərinə dair həqiqətə uyğun olmayan saxta açıqlama yayılıb.**

Bu barədə Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilir ki, Azərbaycan Respublikası Prezidentinin rəsmi saytının görüntüsünü imitasiya edərək hazırlanmış və uydurma iddiaların yer aldığı bu açıqlama ictimai rəyi çaşdırmağa yönələn kobud informasiya manipulyasiyası nümunəsidir.

Açıqlamanın davamında deyilir: "Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa çağıraraq xatırladırıq ki, dövlətin rəsmi mövqeyini ifadə edən məlumatları rəsmi mənbələrdən, eləcə də, ölkənin informasiya agentlikləri və digər peşəkar media subyektlərindən əldə edə bilərsiniz. Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik".

***XQ***

# Kritik informasiya ilə bağlı birgə komissiya yaradılıb

**Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi istiqamətində Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarından irəli gələn vəzifələrin icrası məqsədilə kompleks tədbirlər davam etdirilir.**




Müvafiq normativ hüquqi aktların tələblərinə uyğun olaraq, dövlət qurumları tərəfindən kritik informasiya infrastrukturunun təhlükəsizliyinə dair ümumi və xüsusi qaydalara riayət olunması vəziyyətinin yoxlanılmasının sistemli, vaxtında və fasiləsiz təşkili üzrə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) aidiyyəti əməkdaşlarından ibarət birgə komissiya yaradılmışdır.

Komissiyanın aşkarlayacağı çatışmazlıqların doğura biləcəyi dövlət və ictimai təhlükəsizlik təhdidləri nəzərə alınaraq, onların aradan qaldırılması üçün kritik informasiya infrastrukturu subyektlərinin görəcəyi tədbirlərin qiymətləndirilməsi aparılacaqdır.

Komissiya, həmçinin görülmüş işlərin nəticələri ilə bağlı dövri hesabat və məlumatlar hazırlayacaq, kritik informasiya infrastrukturu obyektlərinin təhlükəsizliyinin pozulmasına səbəb ola bilən hallar müəyyən edildikdə, təxirəsalınmaz tədbirlərin görülməsi barədə məsələ qaldırılacaqdır.

Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2021-ci il tarixli 1315 nömrəli Fərmanına əsasən, kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi, o cümlədən kibertəhdidlərə qarşı mübarizə sahəsində səlahiyyətli orqanın funksiyalarını DTX, dövlət orqanlarına, dövlət adından yaradılan publik hüquqi şəxslərə, dövlətə məxsus olan hüquqi şəxslərə münasibətdə isə DTX həmin funksiyaları XRİTDX ilə birgə həyata keçirir.

***XQ***

# Əqli Mülkiyyət media ilə sıx təmasdadır

**Əqli Mülkiyyət Agentliyində də milli mətbuatın 150 illiyi münasibətilə media nümayəndələri ilə görüş keçirilib.**

Agentliyin İdarə Heyətinin sədri professor Kamran İmanov Azərbaycan milli mətbuatının tarixinə nəzər salıb, əsası “Əkinçi” qəzeti ilə qoyulan mətbuatımızın şərəfli inkişaf yolu keçdiyini vurğulayıb. O qeyd edib ki, 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılmış islahatlar ölkəmizdə söz və məlumat azadlığının, fikir plüralizminin və digər demokratik dəyərlərin bərqərar olması üçün etibarlı zəmin yaradıb.

Professor Kamran İmanov diqqətə çatdırıb ki, media əqli mülkiyyət ilə sıx təmasdadır, bu, xüsusən müəlliflik hüququnda özünü göstərir. Medianın fəaliyyət məkanı – informasiya və yaradıcılıq məkanıdır və media – müəllif-hüquq və informasiya hüququ sisteminin subyektlərindən biridir. O, media nümayəndələrinə Əqli Mülkiyyət Agentliyində infrastrukturun təkmilləşdirilməsi, neqativ halların qarşısının alınması istiqamətində həyata keçirilmiş tədbirlər barədə də məlumat verib

Sonra media nümayəndələri Agentliyin Respublika Elmi-Texniki Kitabxanasında olublar. Onlara kitabxananın fondları, burada saxlanılan nəşrlər haqqında məlumat verilib. Qeyd edilib ki, kitabxanada XIX əsrə aid nəşrlər də qorunur.

Media nümayəndələri daha sonra Agentliyin Çağrı Mərkəzində olublar. Onlara PƏNAH sisteminin iş prinsipi əyani nümayiş etdirilib.

***XQ***

# ABŞ–Azərbaycan: yalnız yüksəlişə doğru

(əvvəli 1-ci səhifədə)



Bu yazımızda oxucuların diqqətini Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumunda yerli və xarici jurnalistlərlə söhbətində Azərbaycan–ABŞ münasibətlərinin yaxın keçmişi və indiki vəziyyəti barədə verdiyi səmimi və qətiyyətli açıqlamalarına yönəldəcəyik. Əvvəlcə onu qeyd edək ki, ABŞ–Azərbaycan münasibətlərinin pozitiv relslər üzəri ilə irəliləyəcəyinin ilkin siqnalları respublikaçı Donald Tramp birinci dəfə Prezident seçiləndə – 2016-cı ilin noyabrında verildi. Doqquz il bundan əvvəl İlham Əliyev Donald Trampı prezident seçkilərində qələbəsi münasibətilə təbrik edərək, ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulamış, onların daha da möhkəmləndirilməsi üçün çox böyük potensialın mövcudluğunu qeyd etmişdi.

Üstündən bir il keçməmiş ABŞ Prezidentinin 28 May – Respublika Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunu və orada Vaşinqton–Bakı münasibətlərindəki strateji məqamların qırmızı xətlə keçdiyini vurğulaması artıq ikitərəfli əlaqələrin yalnız müsbət tendensiyaya köklərdiyindən xəbər verirdi. Amma təəssüf ki, tərəflərə qarşılıqlı fayda gətirəcək bu müsbət tendensiya Co Bayden Administrasiyası tərəfindən nəinki davam etdirilmədi, əksinə, münasibətlərin soyumasına kimi gətirib çıxaran yanlış addımlar atıldı.

Bu məqamda Bayden administrasiyasının anti–Azərbaycan siyasətinin təzahürü kimi ABŞ Konqresinin “Azadlığa dəstək aktı”na 907-ci düzəlişin ölkəmizə münasibətdə gah qüvvədən salınmasını, gah da tətbiqinin bərpa edilməsini xatırlatmağımız yerinə düşər. Bunun üzərinə Vaşinqtonun Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasına yönəlik iki ölkənin XİN rəhbərləri səviyyəsində əvvəlcə bitərəf, sonradan isə ikili standartlı vasitəçiliyini də gəlsək, Bakının Bayden ABŞ-ı ilə münasibətləri sıfıra endirməkdə nə qədər haqlı olduğunu xüsusi olaraq vurğulamalıyıq. Axı 2020-ci ilə qədər Azərbaycanın ABŞ-la enerji, təhlükəsizlik, birgə sülhməramlı fəaliyyət, nəqliyyat sahəsində uğurlu əməkdaşlıq təcrübəsi olmuşdu.

Azərbaycan Prezidenti İlham Əliyev Şuşa III Qlobal Media Forumunda çıxışı zamanı ABŞ–Azərbaycan münasibətlərinin keçmişinə maraqlı tarixi ekskurs edərək, bəzi incə məqamları media nümayəndələrinin diqqətinə çatdırdı: “O vaxt beynəlxalq vəziyyət bizim əleyhimizə idi. ATƏT-in Minsk qrupunun həmsədrlərinin hər biri şəxsi səbəblərə görə Ermənistanın tərəfində idi və hər biri bu vəziyyətin əbədi davam etməsinə çalışırdı. Ona görə də bu status-kvo dəyişmirdi. Hətta bəzən inanılmaz diplomatik səylərlə həmsədr ölkələr adından hansısa bəyanatla çıxış etməyə müvəffəq olanda, bir müddət sonra bu, təkzib edilirdi. Xatırlayıram ki, ABŞ, Fransa və Rusiya prezidentləri səviyyəsində status-kvonun qəbuledilməz olduğu bəyan ediləndə biz bunu böyük həvəslə qarşılamışdıq. Bu, ciddi bəyanat idi, buna nail olmaq üçün çox çalışmışdıq. Amma bir müddət sonra həmin bəyanatda cəmi bir söz dəyişdirildi – “qəbuledilməz” əvəzinə “dayanıqsız” dedilər. Yəni, bizə mesaj verdilər ki, əslində, bu vəziyyət qəbuledilən-dir. Yəni, maskalar açıldı, bəli, qəbuledilən-dir. Bu, Ermənistan üçün qəbuledilən idi, Minsk qrupunun həmsədrləri və bir sıra ölkələr üçün də qəbuledilən idi. Təkcə bizim üçün qəbuledilməz idi”.

*

Belə bir atalar sözümüz var: “Haqq nazilər, amma üzülməz”. Ermənipərəst “kollektiv Qərb”in sülh danışıqlarının gedişində Azərbaycana siyasi-ideoloji təzyiqləri, qərəzli bəyanat və qətnamələri, hətta hədə-qorxuları bir müddət rəsmi İrəvana yalnış ümidlər versə də, sonda haqq-ədalət mütləq öz yerini tutmalı idi. İndi bütün bunların arxada qaldığı tarixi mərhələdə Azərbaycan–ABŞ münasibətlərinin gələcəyə yönəlik nikbin notlarla müşayiət olunması qətiyyən təsadüfi sayıla bilməz.

Bunu İlham Əliyevin Şuşa Forumundakı çıxışında bütün çalarları ilə görmək mümkündür: “Hazırda Birləşmiş Ştatlarla güclü tərəfdaşlıq münasibətləri üçün böyük potensialı görürük. Biz Vaşinqtondan çox müsbət mesajlar almışıq və Azərbaycandan gedən mesajlar da çox müsbətdir. Bizim enerji təhlükəsizliyi və bütövlükdə, təhlükəsizlik və daşımalara aid sahələrdə güclü tərəfdaşlıq tariximiz var. Artıq dediyim kimi, biz ABŞ-la İraqda və Əfqanıstanda onlara lazım olduğumuz zaman olmuşuq və hərbi qulluqçularımız onlarla çiyin-çiyinə xidmət edib. Gözləntimiz böyükdür və ümid edirik ki, yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldıracaq mühüm hadisələr olacaq. Düşünürəm ki, bu, tamamilə təbiidir, çünki bir çox məsələlər bizi, xüsusən də cənab Trampın Administrasiyası ilə birləşdirir. Yeri gəlmişkən, onun ilk prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətləri çox müsbət olmuşdur. Fikrimcə, artıq gördüyünüz və söylədiyim həmin müsbət tendensiyaların davamı olacaq. Hazırda o, bütöv qlobal məsələlərlə və müharibələrin dayandırılması ilə çox məşğuldur. Lakin eyni zamanda o, Cənubi Qafqaz prosesində fəal iştirak edir və uzunmüddətli münaqişənin həllinin tapılması üçün Azərbaycana və Ermənistana yardım etməklə əla iş görür. Beləliklə, düşünürəm ki, gələcəkdə daha çox yaxşı xəbərlərimiz olacaq”.

*

Mesajlardan söz düşmüşkən, Ağ Evdəki dairəvi kabinetə ikinci dəfə yiyələnməsindən keçən 6 ayda Tramp Administrasiyasından Bakının ünvanına yalnız hərtərəfli dəstək və ümidlərlə dolu mesajlar gəlməkdədir. Bu zaman Prezident Donald Trampın iki ay bundan əvvəl – 28 May Respublika Günü münasibətilə Azərbaycan lideri İlham Əliyevə ünvanladığı təbrik məktubunda iki amili xüsusilə vurğuladığı diqqətdən yayınmadı. Birincisi amil odur ki, D.Tramp ABŞ və Azərbaycanın beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını, mənbələrini şaxələndirmək və iki böyük xalqa parlaq gələcək qurmaq naminə təxminən 30 il ərzində əməkdaşlıq etdiyinə diqqət çəkir. İkinci amil isə ABŞ Ppezidentinin məktubunda Azərbaycanla ikitərəfli əlaqələrin bərpası və inkişafı ilə bağlı verdiyi pozitiv mesaj oldu.

Bəli, ABŞ Prezidenti Donald Trampın Azərbaycanın xarici siyasətində rəhbər tutduğu bəşəri dəyərləri bölüşdüyünü vurğulaması ikitərəfli münasibətlərin yalnız müsbət dinamika ilə davam edəcəyinə işarə sayılmalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin 3 gün bundan əvvəl Şuşa III Qlobal Media Forumundakı çıxışında ABŞ liderinin dünyada və bölgəmizdə yeritdiyi xarici siyasəti barədə təqdiredici və məmnunluq ifadə edən açıqlaması təkcə beynəlxalq tədbirə dəvət olunan 52 ölkənin media nümayəndələrinə deyil, ümumiyyətlə, dünyaya verilən açıq və səmimi ismarıc idi. Bu ismarıc mənbəyini 9 il əvvəl Tramp birinci dəfə ABŞ Prezidenti seçiləndə dövlətimizin başçısının ona ünvanladığı təbrik teleqramından alırdı. Bu isə İlham Əliyevin siyasi uzaqgörənliyinin bir daha isbatı və növbəti nümunəsidir. Onun Trampın Ermənistan–Azərbaycan sülh prosesinə töhfəsini yüksək dəyərləndirməsi ABŞ-la münasibətlərin yalnız müsbət məcrada inkişaf edəcəyinə vurulan diplomatik işarə idi.

**P.S.** ABŞ lideri Donald Tramp altı aylıq prezidentliyi münasibətilə amerikalıları təbrik edib. Onun sözlərinə görə, Ağ Evdə işlədiyi altı ay ərzində “ümidsiz” ABŞ “dünyada isti və hörmətli bir ölkəyə” çevrilib. D.Trampın sözlərinə görə, bu, onun administrasiyasının qətiyyətli hərəkətləri sayəsində mümkün olub. Biz bu qətiyyətin izlərinin tezliklə Cənubi Qafqaz bölgəsində də hiss olunacağına əminik.

***İmran BƏDİRXANLI***
***XQ***

# Rusiyadan ədalətli yanaşma gözləntimiz

## *AZAL-ın təyyarəsinin vurulmasına görə məsuliyyət olmalıdır!*



**Prezident İlham Əliyev iyulun 19-da Xankəndidə “Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Azərbaycan-Rusiya münasibətlərinin hazırkı gərginlik fazası barədə söz açıb. Əslində, hər şey aydındır. Münasibətlərdəki xoşagəlməz durumun böyük səbəb payı var. Söhbət ötən il dekabrın 25-də AZAL-a məxsus sərnişin təyyarəsinin Rusiya səmasında vurulmasından gedir.**

Bəli, Azərbaycanın təyyarə olayı ilə bağlı mövqeyi, kifayət qədər, sadədir. Rusiya isə vəziyyəti mürəkkəbləşdirməkdə israrlı görünür. Ölkənin ictimai sektoru və mediası məhz buna girişib. Yada salaq ki, bir vaxtlar təyyarəmizi “quşlarla toqquşduranlar” tapıldı. Onlar cəfəngiyyatlarının keçərsizliyini görəndə hədə-qorxulara baş vurdular. Elə bu məqamın özü hər şeyi deyir. Məlum olur ki, bəhanələrini “həzm etməməyimiz” Rusiyanın hakim dairələrini əsəbləşdirib və qəzəblərini buyruq qullarının vasitəsilə çatdırırlar.

Yeri gəlmişkən, eyni tendensiya nisbətən fərqli formada yenə müşahidə olunur. Rusiyanın ermənipərəst dairələri iddia edirlər ki, guya Azərbaycan təyyarə olayına özünün xarici siyasət kursunu dəyişmək üçün bəhanə qismində yanaşır. Hələ başqa konsprioloji baxış irəli sürənlər də var. Halbuki, problemin çox sadə həll yolu var. Bunu görməmək mümkünsüzdür.

Deməli, Rusiya özü Azərbaycanla münasibətlərin gərginləşməsində maraqlıdır. Niyə? Ola bilərmi ki, bu, Prezident İlham Əliyevin dili ilə desək “Avropa İttifaqının Azərbaycanı etibarlı və ümum-Avropa qaz təchizatçısı adlandırması” ilə bağlıdır? Bəlkə Rusiyada kimlərsə hesab edirdilər ki, Avropa rus qazından imtina edibsə, Azərbaycan da “köhnə qitə”yə mavi yanacaq axınını dayandırmalıdır?

O da tam mümkündür ki, Rusiya qaz ixracatında özünü Azərbaycana rəqib gördüyü üçün aqressiv davranır. Nəzərə alaq ki, bu davranışın təyyarə olayından başqa da təzahürü var və bu barədə söz açacağıq. Hələlik isə dövlətimizin başçısının dilə gətirdiyi fikirlər üzərində dayanaq: “Biz heç bir halda Rusiya ilə rəqabət aparmağa çalışmamışıq. Hətta o dövrdə ki, Rusiya Avropaya 150 milyard kubmetr qaz nəql edirdi. Biz heç vaxt deməmişik ki, buna alternativ ola bilərik. Biz sırf kommersiya prinsipləri əsasında fəaliyyət göstəririk. Bizim enerji siyasətimiz biznes məqsədli olub. Biz bunu heç vaxt siyasiləşdirməmişik, heç bir zaman qazın həcmini azaltmamışıq. Hətta o ölkələrə ki, onlar heç vaxt bizimlə razılaşmayıblar. Bu, sırf kommersiya prinsiplərinə əsaslanaraq öhdəliklərimizi rədd etdiyimiz mənasına gəlmir və heç bir ölkəyə qaz nəqlində indiyə qədər fasiləyə yol verməmişik. Budur, bizim məsələmiz belədir. Əlavə 8 milyard kubmetr üçün bazarlar müəyyən edilir. Biz Avropa İttifaqının üzvü olan bir neçə ölkədən təkliflər almışıq. O ölkələr ki, bəziləri artıq bizim qazımızı alır, digərləri isə hələ də Azərbaycan qazını almır. Biz bu təklifləri dəyərləndiririk. Bazara çıxış baxımından da biz bu məsələləri kommersiya prinsipləri əsasında dəyərləndiririk”.

Göründüyü kimi, Azərbaycan dövlətinin yanaşması, kifayət qədər, sağlamdır, ölkəmizin müstəqil xarici siyasət xəttinə əsaslanır və hər zaman belə olub. Kremldə nəzərə almalıdırlar ki, rəsmi Bakı heç vaxt dünyanın anti-Rusiya köklənişində yer almayıb. Yəni, Moskva ilə münasibətlərin gündəmini kənar təsirlərə qurban verməyib. Halbuki, mövcud istiqamətdə xaricdən dəfələrlə cəhdlər edilib. Qərbin bəzi dairələri cəhdlərinin faydasızlığını görəndə, Rusiya əleyhinə tezislərini Azərbaycana ünvanlayıb, ölkəmizlə bağlı antipatiya formalaşdırmağa çalışıblar.

Sözümüz ondadır ki, Azərbaycan üçün Rusiya ilə münasibətlərin sabit məcrasını qorumaq heç də asan başa gəlməyib. Qarşı tərəf isə elə davranır ki, sanki belə olmalı imiş. Bu, klassik imperialist baxışdır, özünü yüksəkdə tutmaqdır. Əslində, təyyarə olayına normal münasibətin ortaya qoyulmaması da həmin baxışdan, “burda mənəm, Bağdadda kor xəlifə” deyimindəki təkəbbürdən qaynaqlanır.

Rusiya düşüncə tərzindəki təkəbbürə görədir ki, təyyarəmizin vurulmasına görə məsuliyyət ikinci plana atılır. Bu səbəbdən Prezident İlham Əliyev vurğulayır: “Təəssüflər olsun ki, biz Rusiya rəsmilərindən heç bir cavab almamışıq. Artıq bu hadisədən yeddi ay keçibdir. Bizim üçün hər şey aydındır, biz bilirik nə baş verib. Biz bunu sübut edirik və bilirik ki, Rusiya rəsmiləri də bundan xəbərdardır. Onlar da gözəl bilirlər nə baş verib. Ona görə də istənilən qonşu bunu etməli idi. Bizim tələbimiz təbii tələb idi. Qoy, öz günahlarını etiraf etsinlər. Bizim təyyarəni vuranlar cəzalandırılsın və ailələrə təzminat ödənilsin, qurbanların və yaralıların ailələrinə, AZAL-ın təyyarəsinə görə də təzminat ödənilməlidir. Əlbəttə, mən bu haqda daha təfərrüatlı danışa bilərəm. İstəyirsinizmi mən bu haqda daha çox danışım, daha təfərrüata varım?”

Prezident İlham Əliyev təfərrüatları da açıqlayıb və bildirib ki, AZAL-ın pilotları cəsarət və peşəkarlıq göstərərək təyyarəni qəza enişinə yönləndirdilər və nəticədə sərnişinlərin hamısının həyatının itirmələrinin qarşısı alındı. Habelə, təyyarəmizə qarşı iki hücumun baş verdiyini açıqlayan dövlətimizin başçısı bu danılmaz reallığın fonunda Rusiya tərəfinin gətirdiyi arqumentlərin, o cümlədən Ukrayna dronu versiyasının “uşaq bağçası səviyyəsində hekayə” olduğunu vurğuladı. Prezident Əliyevin Rusiya hava məkanının təyyarəmiz vurulduqdan bir neçə dəqiqə sonra bağlandığını, “xalça əməliyyatı”nın vaxtından gec elan edildiyini deməsi də adi məsələ sayılmamalıdır. Ölkəmizin liderinin heç bir fikri elə-belədən işlətmədiyi məlumdur. Bütün bunlar, istər-istəməz, düşünməyə vadar edir və belə rəy formalaşır ki, hava gəmimiz qəsdən vurulub. Daha bir sual da meydana çıxır ki, sərnişin təyyarəsinə atəş açmaq kimə və nə üçün lazım idi? Bəlkə hədəf heç o deyildi?

Bəli, hazırda Rusiya-Azərbaycan münasibətlərindəki gərginliyin parametrləri, xüsusən Rusiyanın müxtəlif bölgələrində yaşayan azərbaycanlılara qarşı başlanmış kampaniya, onlara qarşı təzyiqlər, vətəndaşlıqdan məhrumetmə halları onu göstərir ki, təyyarə olayında hədəf və məqsəd başqa olub. Məsələn, Azərbaycanı tutduğu yoldan, müstəqil xarici siyasət kursundan döndərmək. Yəqin ona görədir ki, yeddi aydır cavab ala bilmir, təyyarəmizin vurulmasına zəruri hüquqi qiyməti görmürük. “Bizim Baş prokurorumuz müntəzəm olaraq Rusiyanın Təhqiqat Komissiyasına məktub ünvanlayır və cavab o olur ki, təhqiqat davam edir. Biz gözləyirik ki, görək bu təhqiqat nə zaman bitir. Ancaq mən hesab edirəm ki, bu, məsuliyyətsiz davranmaqdır”, - deyən Prezident İlham Əliyev ölkəmizin Rusiya tərəfinin təyyarə olayına, yumşaq desək, düzgün yanaşmamasına dözməyəcəyini də vurğulayıb.

Onu da bildirək ki, dövlətimizin başçısının III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı təyyarəmizin vurulmasına dair bildirdikləri qəti fikirlər Rusiyaya mesaj olmalıdır. Rusiya dairələri dərk etməlidirlər ki, Azərbaycan özünə qarşı heç bir yolverilməz davranışı unutmayacaq və ədalətin bərpasına nail olacaq: “Bu o demək deyil ki, biz bunu unudacağıq. Xeyr, biz bunu unuda bilmərik. Biz artıq Rusiya tərəfini məlumatlandırmışıq ki, beynəlxalq ədliyyə sisteminə müraciət edəcəyik. Biz müəyyən bir qovluq hazırlayırıq. Bilirik ki, buna vaxt lazımdır. On il lazım oldu ki, Malayziya hava yollarına məxsus “Boeing”lə bağlı təhqiqat başa çatsın. Ancaq biz bu ədalətə nail olacağıq. Biz bunu əldə edəcəyik”.

Sonda onu da deyək ki, Prezident İlham Əliyev təyyarə olayı ilə bağlı hazırkı durumun Bakı-Moskva ikitərəfli münasibətləri baxımından heç də məqbul olmadığını vurğulayıb və təəssüfünü ifadə edib. Həqiqətən, vəziyyətin indiki şəkil alması məyusluq doğurur. Hər şeydən əvvəl ona görə ki, Azərbaycan və Rusiya qonşu ölkələrdir, bir-birilərinə tarixi tellərlə bağlıdırlar.

Ölkəmiz bunu unutmur və mehriban qonşuluq əlaqələrinin rəvan müstəvidə davamında maraqlıdır. Amma hazırda bu barədə düşünmək növbəsi Rusiyanındır. Rusiya özünün ənənəvi demarş kursundan geri çəkilməli, bərbərtərəfli münasibətlər gündəliyinə hörmətlə yanaşmalıdır. Moskvada anlamalıdırlar ki, Azərbaycan heç bir halda Kremlin yarıtmaz xarici siyasətinin, Cənubi Qafqaz müstəvisindəki uğursuzluqlarının nə baiskarı, nə də günahkarıdır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Naxçıvana quru yolumuz – ədalətin Zəngəzur dəhlizi marşrutu

## *Ermənistan mənasız inadından əl çəkməlidir, yoxsa...*

**"Mən Əbu-Dabidə həmkarıma dedim, bizim Azərbaycandan Azərbaycana təhlükəsiz keçid olmalıdır. Bu, Azərbaycanın bir bölgəsindən digər bölgəsinə keçiddir. Bizim vətəndaşlar orada erməni sərhədçinin simasını görməli deyil. Bu, bizim tələbdir. Əks halda vətəndaşlarımız təhlükə altında olacaqlar". Bu fikirləri Prezident İlham Əliyev 3-cü Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə deyib.**




Qeyd edək ki, dövlətimizin başçısı məsələ barədə Zəngəzur dəhlizinin ABŞ şirkəti tərəfindən icarəyə götürülməsi ilə bağlı yayılan xəbərlərə münasibət bildirərkən söz açıb. Deməli, ölkəmiz Naxçıvana yol xüsusunda prinsipial mövqeyinə sadiqdir. O yol ki, özündə Zəngəzur dəhlizi ilə yanaşı, böyük Orta Dəhliz ideyasını birləşdirir.

Əlbəttə, açar komponent Naxçıvana yoldur. Prezident İlham Əliyev Azərbaycan vətəndaşları üçün tam təhlükəsizliyinin vacibliyini ona görə vurğulayır ki, yaxın keçmişin acı yaşantıları var. Həmin yaşantılardan ciddi nəticə çıxarmalıyıq. Bakıdan Naxçıvana gedən qatarlarımızın daşa basılması hallarını unuda bilmərik. Ermənistanın durumun yenidən təkrarlanmayacağına dair təminatına inanmaq olmaz. Çünki ölkə rəhbərliyi indiyədək heç bir vədinin üstündə durmayıb.

Amma məsələnin digər vacib tərəfi var. Yəni, əlahəzrət fakt budur ki, Naxçıvana dəmir yolu heç vaxt Ermənistanın olmayıb. Prezident İlham Əliyevin də vurğuladığı budur: "Ermənistan ərazisində olan hissəyə gəldikdə, yeri gəlmişkən, sovet vaxtında bu dəmir yolu Azərbaycan dəmir yolunun ayrılmaz bir hissəsi idi. Və bu Ermənistanın dəmir yolu strukturuna aid deyildi. Çünki onun Ermənistanın dəmiryolu şəbəkəsi ilə hər hansı bir bağlılığı yox idi. Ona görə Zəngəzur dəhlizinin əslində açılması ilə biz Şimal-Cənub marşrutunun digər bir vektorunu açacağıq".

Tam əminliklə deyə bilərik ki, Naxçıvana yolla bağlı tarixi fakt ölkəmizin Zəngəzur dəhlizi təşəbbüsündəki prinsipillığa adekvatdır. Adekvatlığın isə qlobal maraqlar seqmenti aktualdır. Prezident İlham Əliyev həmin maraqların xalqımızın və dövlətimizin mövqeyi ilə uzlaşdığını önə çəkir. Ona görə də dövlətimizin başçısının fikirləri, müəyyən mənada, beynəlxalq ictimaiyyətə çağırışdır.

Bir halda ki, Zəngəzur dəhlizi dünya üçün əhəmiyyətlidir, deməli, onun fəaliyyəti, yəni Naxçıvana yolun bərpası haqqa və ədalətə əsaslanmalıdır. Axı Naxçıvana gedən Mincivan–Mehri–Kərçivan dəmir yol hissəsinin Azərbaycan dəmir yollarına məxsusluğu yaddan çıxarıla bilməz. Bu həqiqəti vaxtilə həmin yolun rəisi işləmiş Ayrepetov familiyalı Bakı ermənisi də təsdiqləyirdi.

Bəli, beynəlxalq hüquqa əsasən, ölkəmiz Naxçıvana dəmir yolunu açmaq üçün hətta hərbi əməliyyatlar keçirmək ixtiyarındadır. Məsələ ondadır ki, 1920-ci ildə Zəngəzur Ermənistana bağışlansa da, ərazidən keçən dəmir yolu İrəvana verilməmişdi. Söhbət lap başlanğıcda Ələt–Culfa dəmir yolu xətti kimi inşa edilmiş yoldan gedir. Hələ dəmir yolunun İrəvan-Bakı qolu da Azərbaycan Dəmir Yolunun tərkibində olub. Yolun Ermənistan SSR ərazisindəki stansiyası isə sovet sərhədçiləri tərəfindən qorunub. Çünki İranla sərhəd amili var idi.

Onu da bildirək ki, sovet dövründə Bakı–Culfa dəmir yolunun Arpaçay–İrəvan və Mincivan–Qafan qolları da Azərbaycan SSR-in balansına daxil edilmişdi. Yəni, Ermənistanda bu amil də nəzərə alınmalıdır. Ancaq nəzərə alınmır. Bunu baş nazir Nikol Paşinyanın ötən həftə keçirdiyi mətbuat konfransında bildirdikləri fikirlər də təsdiqləyir. Rəsmi İrəvan ərazi bütövlüyü və suverenlik klişelərini gündəmdə saxlayır və belə təəssürat yaradır ki, Zəngəzur dəhlizi ideyası Ermənistana qarşı intervensiyadır. Məsələnin belə qoyuluşu yanlışdır və izah etdik nə üçün.

Ancaq rəsmi İrəvanın yanlışlığı Ermənistana baha başa gələ bilər. Prezident İlham Əliyevin də bildirdiyi budur: "Belə çıxır ki, Ermənistanın tranzit ölkəyə çevrilmə şansları sıfıra gedir. Əgər bundan sonra da bu prosesi bloklaşdıracaqlarsa, düşünürəm ki, onlar nəinki nəqliyyat baxımından elə bugünkü təcrid olunmuş vəziyyətdə qalacaqlar, o cümlədən həm də siyasi təcrid olunmuş vəziyyətə düşəcəklər".

Dövlətimizin başçısının da bildirdiyi kimi, dəmir və avtomobil yolları ilə daşımalarda söhbət təkcə Azərbaycanın əsas hissəsinin Naxçıvanla birləşdirilməsindən getmir. Çünki durumun beynəlxalq daşımalar baxımından mənası var. Prezident Əliyev heç də əbəs yerə ölkəmizin fəal şəkildə daşımalara və logistika sahələrinə böyük sərmayələr qoyduğuna, son illər ərzində milyardlarla dollar həcmində sərmayələrin Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanının yaradılmasına yatırıldığına diqqət çəkmir. Söhbət hazırda 25 milyon ton həcmində yüklərin daşınması üçün aparılan işlərdən gedir. Bunun qarşılığında isə: "Ermənistan Zəngəzur dəhlizi ilə bağlı 5 ildir heç nə etməyib. Ermənistan tərəfində bu iş bilərəkdən gündəlikdən çıxarılır".

Ümumiləşdirmə apararaq belə nəticəyə gəlirik ki, Ermənistan Azərbaycanın mövqeyi ilə razılaşmamaqla, həm də dünya üçün əhəmiyyət daşıyan layihənin həyata keçməsini ləngidir. Axı "Zəngəzur dəhlizi bir çox ölkələri birləşdirəcək". O ki qaldı Zəngəzur dəhlizinin ABŞ şirkətinə verilməsinə dair söz-söhbətlərə, Prezident İlham Əliyevin bildirdiklərindən gəlinən qənaət budur ki, məsələ Azərbaycan üçün prioritet deyil. Həm də ona görə ki, yenidən qanunsuzluğa yol vermək olmaz. Yəni Rusiyanın yerini ABŞ tutmamalıdır.

Məsələ ondadır ki, hazırda Ermənistanın dəmir yolları, faktiki olaraq, Rusiyanındır. Çünki "Cənub Qafqaz Dəmir Yolları" QSC-nin konsessiyası bu ölkəyə məxsusdur. Belə ki, 2008-ci ildə Ermənistanın o zamankı prezidenti Robert Köçəryan öz adamı Serj Sarkisyanı hakimiyyətə gətirmək üçün Kremlin dəstəyini qazanmaq naminə "Cənub Qafqaz Dəmir Yolları" QSC-nin səhmlərini Rusiyaya bağışladı. Yəni onun ölkəsinə məxsus olmayanı başqa ölkəyə verməsi beynəlxalq hüquqa zidd mahiyyət daşıdı və eyni qanunsuzluq və özbaşınalıq hazırda ABŞ-a güzəştin timsalında təkrarlanmamalıdır. Görünür, həm də buna görədir ki, Prezident İlham Əliyev vurğulayır: "Bizim ərazimizdə heç bir operator, icarədar, ticarətçi ola bilməz".

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Süni intellekt texnologiyası: təhdidlər və çıxış yolları

**Süni intellekt alətləri (Aİ) insanın real nitqindən istifadə etməklə, eyni səslə "saxta firiklər" yarada bilir. "Audio deepfake" adlandırılan saxta mətn sosial şəbəkə platformaları üzərindən yayılaraq, hədəfdə olanları çaşdırmaq üçün istifadə edilir.**



***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

Azərbaycanda süni intellekt texnologiyası üzrə geniş məlumatlandırma prosesinə start verilib. III Şuşa Qlobal Media Forumunun işi bu kontekstdə əlamətdardır. Forum "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusuna həsr edilib. Burada keçirilən müzakirələr təkcə Azərbaycan auditoriyasına deyil, bütün dünyaya mövzu üzrə örnəklər verir. Bu barədə az sonra yazacağıq.

Qeyd edək ki, Aİ texnologiyası təkcə səsi deyil, foto və videoları da saxtalaşdırmaq imkanına malikdir. Bu baxımdan dipfeyk (Deepfake) cinayətkar çevrələrin yararlanması üçün geniş fürsətlər yaradır. Daha konkret ifadə eləsək, süni intellekt mütərəqqi elementlərlə yanaşı, həm də neqativ təsirlərə malikdir. Cəmiyyət üçün həm geniş imkanlar, həm də ciddi təhdidlər yaradır. Onun hədəfləri genişdir. Siyasi arenadan başlamış iqtisadiyata, biznes çevrələrinə qədər ən müxtəlif istiqamətləri əhatə edir.

Aİ texnologiyasının təsir göstərdiyi sahələr sırasında media ilk yerlərdə dayanır. Əslində, məlumatlandırma işi, informasiya istehsalı tarixən texnoloji tərəqqi ilə birbaşa bağlı olub. Elə indi də elədir. Rəqəmsal transformasiya, onlayn informasiya resurslarının inkişafı, sosial media platformalarının çoxalması yaşadığımız dövrdə informasiya axınını sürətləndirir. Rəqəmsal texnologiya interaktiv mühit yaradır, zaman və məkan fərqini aradan qaldırır. Xəbəri istənilən məkanda və sutkanın istənilən vaxtı əlçatan edir.

Yeni texnologiya həm də xəbər alıcısını xəbər istehsalçısına çevirir. İnformasiyanın kəmiyyəti artır. Analitik mərkəzlər qeyd edirlər ki, indi hər gün dünyada təsəvvür edilməz səviyyədə çox, təqribən 2,5 kvintilyon bayt həcmində, yəni, milyardlarla məlumat yaradılır və yayılır. İnsanlar, hətta fərdi istəkləri olmasa belə, hər gün yüzlərlə informasiya ilə qarşılaşır, oxuyur, görür və dinləyirlər.

"Süni intellekt" (Sİ / Aİ) təkcə həvəskar xəbər istehsalçıları üçün deyil, peşəkar media təmsilçiləri, jurnalistlər üçün də şərtləri dəyişir. O, faktları axtarmaq, məlumat toplamaq, reportaj hazırlamaq, ideyaların yayılmasını təmin etmək işində istifadə olunur. Onun mətn qurmaq, dizayn etmək prosesində də öz rolu var. Bir sözlə, "Süni intellekt" qlobal informasiya landşaftında inqilabi dəyişikliklərə yol açır.

Bütün bu üstünlüklərlə yanaşı, "Süni intellekt" obyektiv və mötəbər informasiya əldə etmək hüququ baxımından müəyyən problemlər yaradır. Rəqəmsal texnologiyalar dövründə gündəlik xəbər dövriyyəsi təkcə etibarlı, düzgün məlumatlardan ibarət deyil. Bu gün "yanlış xəbər", "saxta xəbər", "dezinformasiya" da xəbər dövriyyəsində böyük paya malikdir. Analitik mərkəzlər qeyd edirlər ki, "saxta xəbər"in qlobal informasiya dövriyyəsində gündəlik çəkisi 45-80 faiz aralığında dəyişir və dünya üçün ən aktual problemlərdən birinə çevrilir. "Saxta xəbər" insanları çaşdırır, səhv qərarlar verməsini, yanlış addımlar atmasını şərtləndirir: "Saxta xəbər", "dezinformasiya" dünya üçün fəlakətə çevrilir. "Süni intellekt"in etmadlı xəbər istehsalı sahəsində yaratdığı problemlərin sayı çoxdur. Beynəlxalq sənədlərdə bu problemlər 10 bənd üzrə qruplaşdırılır. Birinci bənd özündə "Süni intellekt"in dezinformasiya yaradıcılığı və yayılmasında rolunu ehtiva edir. Qeyd olunur ki, xəbər istehsalçısı faktların araşdırılması, məlumatın toplanılması üçün "Süni intellekt" proqramlarından yararlanarkən nəzərə almalıdır ki, bu proqramlar təkcə mötəbər mənbələri, doğru məlumatları deyil, həm də saxta xəbərləri, dezinformasiya mahiyyətli qondarma faktları tapır, toplayır, təqdim edir. Jurnalist "süni intellekt" proqramına qeyd-şərtsiz etimad göstərirsə, saxta xəbərin təsirinə düşür. Yəni yoxlanılmamış, dəqiqləşdirilməmiş məlumatların paylanılmasında iştirak edir.

Nəticə budur ki, süni intellekt həm pozitiv, həm də neqativ təsirləri ilə həyatımızın ayrılmaz hissəsinə çevrilir. Biz onun mütərəqqi tətbiqlərdindən yararlanmağı, neqativ təsirləri ilə isə mübarizə aparmağı bacarmalıyıq. Aİ-nin neqativ təsirlərinə qarşı mübarizə necə aparılmalıdır? Mütərəqqi yönümləri necə inkişaf etdirilməlidir? Təqdirəlayiq haldır ki, Azərbaycan bu sahədə də dünyaya örnəklər verir.

Prezident İlham Əliyev 2025-ci il martın 19-da "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nı təsdiq edən Sərəncam imzalayıb. Bu Sərəncamda Azərbaycan Respublikası ərazisində süni intellekt texnologiyalarının mütərəqqi tətbiqlərinin sürətləndirilməsi nəzərdə tutulur. Bu sahədə tədqiqatların aparılmasını, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, habelə ixtisaslı kadr potensialının gücləndirilməsini təşviq edir.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti üzərində öhdəlik yaranır ki, o, dövlət qurumlarında süni intellektin tətbiq edildiyi sahələrdə informasiya təhlükəsizliyi risklərinin təhlilini aparsın və süni intellektlə bağlı informasiya təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

# Azərbaycan gücün yeni modelini dünyaya göstərdi

**Azərbaycan uzun illər torpaqlarının işğaldan azad olunması üçün beynəlxalq ictimaiyyətə ümid bəslədi. İnanmaq istədi ki, gec-tez beynəlxalq hüququn norma və prinsipləri qalib gələcək. Çünki BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnamədə Azərbaycanın ərazi bütövlüyü təsdiqlənmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdu. Amma təəssüf ki, bu qətnamələr kağız üzərində qaldı, beynəlxalq təşkilatlar isə susqunluq nümayiş etdirdi.**



Azərbaycan bu ədalətsizliyə göz yuma bilməzdi. Tarix boyu formalaşmış hüququnu bərpa etmək üçün 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi vasitəsilə işğala son qoydu. Öz hərbi, iqtisadi və siyasi gücünə arxalanaraq, beynəlxalq hüququ bərpa etdi və regionda tamamilə yeni bir reallıq yaratdı. Bu yeni reallıq təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə məhdudlaşmadı, həm də Cənubi Qafqazda sabitliyə səbəb oldu, əməkdaşlığın əsas şərti olan sülhə yol açdı.

Fəqət, bu Zəfərin təməli illər öncə qoyulmuşdu.1990-cı illərin əvvəllərində ölkənin qarşılaşdığı dərin siyasi, iqtisadi və hərbi böhran dövlətçiliyimizi böyük təhlükə altına almışdı. Belə bir çətin və taleyüklü dövrdə xalqın israrlı tələbi ilə ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ölkəni dağılmaqdan xilas etdi.

Məhz Ulu öndərin uzaqgörən siyasəti nəticəsində iqtisadiyyatda ciddi islahatlar həyata keçirildi. Neft sənayesinin inkişafı, xarici sərmayələrin cəlb olunması və ticarət əlaqələrinin genişləndirilməsi ilə Azərbaycanın iqtisadiyyatı sürətlə dirçəldi, ölkədə sabitlik bərpa olundu, hüquqi dövlət quruculuğunun əsası qoyuldu. Eyni zamanda, nizami ordu quruculuğu istiqamətində sistemli işlərə start verildi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan Ordusunun strukturunda əhəmiyyətli dəyişikliklər baş verdi. Hərbi təhsil və təlim prosesləri gücləndirildi, hərbi xidmətə çağırış sistemində islahatlar aparıldı. Bu, həm də Azərbaycan dövlətinin müstəqilliyinin qorunması və suverenliyinin bərpası istiqamətində atılan mühüm addım oldu. Onu da qeyd edək ki, ordu quruculuğu iqtisadi inkişafla paralel şəkildə aparıldı. H.Əliyev Azərbaycanın iqtisadiyyatı inkişaf etdikcə, ordunun maddi-texniki cəhətdən təchiatını da artırmağa başladı. Ölkəmiz artıq öz silahlarını istehsal edən imkana malik oldu. Bu, həm hərbi gücün artırılmasına, həm də ölkə iqtisadiyyatının diversifikasiyasına müsbət təsir göstərdi. Azərbaycan, həmçinin beynəlxalq hərbi təlimlərdə iştirak etməyə başladı ki, bu da ordunun döyüş hazırlığının artırılmasına kömək etdi. Müasir silahlar və texnologiyalar, o cümlədən yüksək dəqiqlikli raket sistemləri, pilotsuz uçuş aparatları (PUA-lar) və elektron müharibə sistemləri orduya inteqrasiya olundu.

Bu dəyişikliklər Azərbaycanın hərbi qüdrətini artırmaqla yanaşı, həm də ölkənin beynəlxalq təhlükəsizlik sahəsində mövqeyini gücləndirdi. Ordu, sadəcə, bir döyüş qurumu deyil, həm də xalqın birliyinin və vətəndaş qürurunun təcəssümü oldu.

Ulu öndərin təməli qoyulduğu bu strateji xətt Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirildi. Azərbaycan iqtisadi cəhətdən gücləndi, regional liderə çevrildi, müasir və peşəkar ordu quruldu. Bütün bu illər ərzində torpaqlarımızın işğaldan azad olunması, milli qürurumuzun bərpası xalqımızın əsas milli hədəfi olaraq qaldı. 44 günlük Vətən müharibəsi bu hədəfin reallaşmasının təntənəsinə çevrildi. Bu barədə Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunda deyib: "Biz yeni reallıqları 2020-ci ildə 44 gün ərzində yaratmağa başladıq. Onlar bununla barışmağa məcbur oldular. Daha sonra 2023-cü ilin sentyabrında bir gün ərzində suverenliyimizi tam bərpa etdik. Bununla da barışmağa məcbur oldular".

Qeyd edək ki, Qarabağda əldə edilən qələbə yalnız hərbi və diplomatik zəfər deyil, həm də Azərbaycan xalqının və dövlətinin gücünün, iradəsinin və birliyinin simvoludur. Müharibə zamanı xalqın və ordunun bir məqsəd uğrunda birləşməsi torpağa və dövlətə bağlılığını nümayişi idi. Xalqın rəhbərliyə və orduya olan inamı, işğalçıya qarşı döyüşün yalnız hərbi deyil, həm də milli mücadilə olduğunu sübut etdi. Ön cəbhədə əsgər, arxa cəbhədə vətəndaş, informasiya cəbhəsində diaspor – hər kəs bu mübarizənin bir parçasına çevrildi. İkinci Qarabağ müharibəsi bir daha göstərdi ki, Azərbaycanda yaşayan bütün xalqlar Qarabağ uğrunda savaşda tərəddüdsüz birlik nümayiş etdirdilər.

Həmçinin bu qələbə qonşusunun torpağına göz dikən, xalqımızın humanistliyindən, qonaqpərvərliyindən, etibarından sui-istifadə edən ermənilərin iç üzünü, əsl simasını dünyaya bir daha göstərdi.

Beləliklə, qələbəni şərtləndirən əsas amillər Azərbaycanın ordusu, Ali Baş Komandan İlham Əliyev və xalqın birliyidir. Bu qələbə yalnız indiki nəsil üçün deyil, gələcək nəsillər üçün də böyük bir miras oldu. Ölkəmizin müstəqillik və ərazi bütövlüyü anlayışlarını daha da möhkəmləndirdi və bu dəyərləri gələcək nəsillərə ötürdü. Azərbaycanın beynəlxalq arenada mövqeyini gücləndirdi, eyni zamanda, Cənubi Qafqazdakı strateji mövqeyini daha da möhkəmləndirdi. Tarixi qələbəmiz həm də digər dövlətlərlə olan əlaqələrimizdə yeni



bir dövrün başlanğıcı oldu. Bu baxımdan Qarabağda əldə edilən qələbəni həm də siyasi cəhətdən tam qələbə hesab etmək olar.

Beləliklə, Azərbaycan xalqının iradəsi, əzmkar mübarizəsi və Prezidentin strateji liderliyi nəticəsində əldə edilən bu zəfər, yalnız ərazi bütövlüyünün bərpası ilə məhdudlaşmır. Bu, həm də Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsi, milli birliyin güclənməsi və gələcək inkişaf üçün möhkəm təməlin qoyulması deməkdir.

Sonda bir daha qeyd edək ki, Heydər Əliyev Azərbaycanın müstəqilliyini təmin etməklə yanaşı, regionda sabitliyin qorunması və ölkəmizin dünya miqyasında nüfuzunun artması üçün uzunmüddətli strateji addımlar atmışdı. İlham Əliyev isə bu irsi uğurla davam etdirərək, Qarabağ məsələsinin həlli üçün həm daxili, həm də xarici siyasət sahəsində böyük uğurlara nail oldu.

Qarabağ zəfəri, həmçinin regiondakı digər münaqişələrdən fərqli olaraq, Azərbaycan xalqının və dövlətinin vəhdətindən yaranan monolitliyi, gücü – "dəmir yumruğu" göstərdi. Azərbaycanın bu yeni modelinin bütün cəbhələrdə üstünlükləri barədə bundan sonra da çox yazılacaq. Bu model, sadəcə, Qarabağın geri qaytarılması deyil, həm də Azərbaycanın ərazi bütövlüyünü qorumağa yönəlmiş tarixi addım kimi yadda qalacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# COP29 "yaşıl" gələcəyə qlobal meydan açdı

## Azərbaycanın özü isə bu keçidin önündə gedir

**Prezident İlham Əliyev iyulun 19-da Xankəndidə keçirilən "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə COP29 haqqında danışarkən bu beynəlxalq iqlim konfransını Azərbaycanda 2024-cü ilin ən yüksək səviyyəli tədbiri kimi yüksək dəyərləndirdi. Ötən il 197 ölkənin iştirakı ilə reallaşan mühüm iqlim dəyişmələri sessiyasında 77 min iştirakçının qeydə alındığını vurğulayan dövlətimizin başçısı, eyni zamanda, belə bir göstəricinin COP29-un nə qədər əhəmiyyətli toplantı olduğundan xəbər verdiyini xatırlatdı.**




Azərbaycan lideri COP29-un qlobal iqlim gündəliyinə ölkəmizin töhfəsindən danışarkən isə dedi: "Respublikamız ekoloji problemlərin həllinə daim diqqətlə yanaşır. Azərbaycanda elektrik enerjisinin istehsalında kömürdən və yanacaqdan istifadə edilmir. Yalnız su və təbii qaz ehtiyatları işlədilir və bu yaxınlarda Günəş enerjisindən istifadəyə başlanılıb. Yeri gəlmişkən, "yaşıl" gündəliyimiz də çox genişdir. 2030-cu ilə qədər artıq imzalanmış investisiya müqavilələri əsasında ən azı 6 qiqavatlıq "yaşıl" enerji, o cümlədən Günəş, külək və su elektrik enerjisi istehsal ediləcək. Su elektrik enerjisi Qarabağ və Şərqi Zəngəzurda əsas yer tutur. Ümumi 280 meqavat gücündə 30 kiçik su elektrik stansiyası artıq istismara verilib. Beləliklə, "yaşıl" gündəlik, həqiqətən, çox genişdir".

Dövlətimizin başçısının sözlərinə görə, iqlim dəyişmələri ekzistensional əhəmiyyət daşıyan, inkişaf edən kiçik dövlətlərə gəldikdə, onlara güclü dəstək lazımdır. Azərbaycan bunu daim planlaşdırıb və gerçəkləşdirməyə çalışıb. Respublikamızda inkişaf etməkdə olan kiçik ada dövlətləri ilə bağlı xüsusi sessiya keçirilib. Azərbaycan ən az inkişaf etmiş ölkələrdə iqlim dəyişmələri məsələlərinin həlli üçün xüsusi fonda 10 milyon ABŞ dolları ayırıb. Lakin faydalı qazıntılar da diqqətdən kənarda saxlanıla bilməz. Çünki yaxın gələcəkdə dünyanın onlarsız yaşaması qeyri-mümkündür. Bunsuz iqtisadiyyat inişaf edə, təyyarələr uça bilməz və hər bir şey dayanar. Beləliklə, biz reallığın bu tərəfini də görməliyik.

Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlər təkcə ölkəmizin ekoloji siyasətini deyil, həm də dünyada mövcud olan qlobal çağırışlara konstruktiv və məsuliyyətli münasibətini nümayiş etdirdi. Dövlətimizin başçısının çıxışında vurğulanan "yaşıl" gündəlik və iqlim diplomatiyası Azərbaycanın müasir dövrün ən vacib məsələlərinə verdiyi cavabların bariz nümunəsi kimi diqqət çəkdi.

Ölkə rəhbərinin qeyd etdiyi kimi, Azərbaycan uzun illərdir ki, energetika sektorunu ekoloji baxımdan zərərsiz əsaslar üzərində qurmağa çalışır. Azərbaycanda elektrik enerjisinin istehsalında nə kömürdən, nə də mazutdan istifadə olunur. Bunun əvəzinə, əsas enerji mənbələri kimi təbii qaz və su ehtiyatlarından istifadə edilir. Bu model həm ətraf mühitin qorunması, həm də uzunmüddətli davamlılıq baxımından beynəlxalq ekspertlər tərəfindən nümunəvi yanaşma kimi qiymətləndirilir.

Son illərdə bərpa olunan enerji sahəsində mühüm irəliləyişlər əldə edilib. Günəş və külək enerjisi layihələrinin icrasına start verilməsi, bu sahədə beynəlxalq tərəfdaşlarla imzalanmış müqavilələr və investisiyalar Azərbaycanı Cənubi Qafqazda "yaşıl" enerjinin əsas təchizatçısına çevirməkdədir. 2030-cu ilə qədər artıq imzalanan müqavilələr çərçivəsində 6 gigavat gücündə bərpaolunan enerji istehsalı planlaşdırılır. Bu, həm Azərbaycanın daxili enerji təhlükəsizliyini gücləndirəcək, həm də ixrac potensialını artıracaq.

Azərbaycanın işğaldan azad olunmuş əraziləri – Qarabağ və Şərqi Zəngəzur yeni enerji strategiyasının əsas dayaqlarından birinə çevrilməkdədir. Bu bölgələrdə indiyədək 30-dan artıq kiçik su elektrik stansiyası istifadəyə verilib. Onların ümumi gücü 280 meqavat təşkil edir. Bu stansiyalar enerji istehsalı ilə yanaşı, regionun ekoloji tarazlığının qorunması, su ehtiyatlarından səmərəli istifadə olunması və yerli iqtisadi fəallığın artırılması baxımından mühüm rol oynayır.

Bu yanaşma Azərbaycanın postmünaqişə dövründə aparıcı dünya dövlətləri üçün də nümunə ola biləcək unikal bir modeli – "yaşıl" bərpa konsepsiyasını irəli sürdüyünü təsdiqləyir. Beləliklə, Azərbaycan yalnız əraziləri deyil, həm də iqlim baxımından sağlam gələcəyi bərpa edir. Prezident İlham Əliyev Şuşa Forumunda iqlim dəyişikliyini "ekzistensional məsələ" kimi təqdim etdi. Bu, Azərbaycanın sözügedən sahədə nə qədər ciddi mövqe sərgilədiyini və ekoloji fəlakətlərin qarşısını almaqda beynəlxalq həmrəyliyə çağırış etdiyini göstərir.

Onu da qeyd edək, inkişaf etməkdə olan kiçik dövlətlər üçün iqlim dəyişikliyinin doğurduğu risklər böyükdür. Bu reallığı nəzərə alaraq, Azərbaycan həmin ölkələrə dəstək vermək məqsədilə xüsusi iqlim fonduna 10 milyon ABŞ dolları ayırıb. Bu addım ölkəmizin beynəlxalq ədalət prinsipinə sadiqliyini, həmrəylik və qlobal məsuliyyət hissini nümayiş etdirir.

Prezident İlham Əliyev forumda digər reallıqları da diqqət mərkəzində saxlayaraq bildirdi ki, dünya iqtisadiyyatının yaxın perspektivdə neft və qazdan imtina etməsi real deyil. Təyyarələrin uçuşu, sənayenin işləməsi və bir çox iqtisadi proseslərin davamı üçün hələ də bu resurslara ehtiyac var. Azərbaycan bu reallığı qəbul edərək, bir tərəfdən "Yaşıl keçid proqramı"nı həyata keçirir, digər tərəfdən isə neft və qaz gəlirlərini sosial rifah, infrastruktur quruculuğu və innovativ texnologiyaların inkişafı üçün sərmayə kimi diqqətdə saxlayır. Bu yanaşma balanslaşdırılmış və real enerji strategiyasının göstəricisidir. Azərbaycan mövcud strategiyanı həyata keçirməklə həm "Qlobal Cənub", həm də "Qlobal Şimal" ölkələri arasında körpü rolu oynamağa səy göstərir və buna uğurla nail olur.

Təsadüfi deyil ki, sözügedən konfrans keçirildiyi günlərdə COP29-u haqlı olaraq iqlim maliyyəsi adlandırırdılar. Çünki iqlim maliyyələşməsi ilə bağlı çox ciddi qərarlar məhz Bakıda verilməli idi. Nəticə etibarilə uzun çəkən danışıqlar, Azərbaycanın vasitəçiliyi ilə keçirilən görüşlər, tərəflərin tamamilə ziddiyyətli mövqeyi – qlobal Cənub və qlobal Şimala aid edilən dövlətlərin bəzi hallarda maliyyə hədəfləri ilə bağlı məsələlərə fərqli yanaşması, xüsusən də inkişaf etmiş dövlətlərin inkişaf etməkdə olan dövlətlərə maliyyə yardımı edilməsindən yayınmağa cəhdlər göstərməsi kimi məsələlər bu və ya digər şəkildə özünü büruzə verirdi.

Dünyanın inkişaf etmiş ölkələrində məsələyə skeptik yanaşanlar da var idi. Onlar hesab edirdilər ki, COP29 da COP28 kimi heç bir nəticə əldə olunmadan bitəcək, əsas qərarlar isə COP30-da qəbul ediləcək. Amma bütün bunlara baxmayaraq, Azərbaycan bu prosesə çox inamlı şəkildə start verdi. Ölkəmizdə təşkilatçılıq nöqteyi-nəzərindən uğurlu işlər görüldü. COP29 günlərində isə qərarların qəbul olunması sahəsində konseptual addımlar atıldı.

COP29-da qəbul edilən bir sıra mühüm qərarlar isə onu göstərdi ki, Azərbaycanın məsələyə yanaşması, baxış bucağı, ölkəmizin bununla bağlı perspektivləri, üzərinə götürdüyü öhdəlikləri, regional müstəvidə bir çox uğurlu fəaliyyətlərin həyata keçirilməsi, xüsusən də "yaşıl" iqtisadiyyata keçid, "yaşıl" energetikasının inkişaf etdirilməsi sahəsində əldə etdiyi uğurlu nəticələri COP30-da və bundan sonra keçiriləcək digər iqlim tədbirlərində nümunə olaraq göstəriləcək. Eyni zamanda, planetar mahiyyət kəsb edən bu kimi formatlarda və dünyada gedən proseslərin fövqündə, xüsusilə də iqlim dəyişiklikləri ilə mübarizə sahəsində Azərbaycanın ön mövqelərdə qərarlaşması olduqca qürurvericidir.

29-cu iqlim konfransında əsas prioritet olan iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi adlı sənədə əsasən, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ci ilədək ən azı 300 milyard ABŞ dollarına çatdırılması təmin ediləcək. Bu vəsait dövlət, özəl, habelə çoxtərəfli mənbələr daxil olmaqla bütün mümkün mənbələr hesabına təmin olunacaq.

Yeri gəlmişkən, sammitin bağlanış plenar iclasında Azərbaycanın COP29 Sədrliyi inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsini təmin etmək üçün yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi razılaşmasını elan edib. BMT-nin İqlim Sammiti üçün COP29 Sədrliyinin əsas prioriteti üzrə əldə olunan bu uğur əvvəlki 100 milyard ABŞ dolları həcmində iqlim maliyyəsi hədəfindən əhəmiyyətli dərəcədə artım deməkdir və qlobal investisiyaların yeni dalğasına təkan verəcək.

Sonda qeyd edək ki, beynəlxalq səviyyəli konfransa ev sahibliyinin Azərbaycanda keçirilməsi ölkəmizin tarixi nailiyyəti idi. Bu, hər şeydən əvvəl, Azərbaycanın "yaşıl" iqtisadiyyata keçid sahəsindəki islahatlarının beynəlxalq iqtisadi münasibətlər sistemində dəstəklənməsi və bu sahədəki tənzimləmə tədbirlərinin sosial, iqtisadi və məntiqi davamı kimi dəyərləndirildi.

Bu gün tam əminliklə deyə bilərik ki, ölkəmizin işğaldan azad edilmiş ərazilərinin də potensialından yararlanmaqla daha mütərəqqi nəticələrə nail olmaq mümkündür. Məlum olduğu kimi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl" enerji zonası elan edilib. Düşməndən təmizlənən torpaqlarda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı" şəhər, "ağıllı" kənd kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. "Yaşıl" enerji növlərinin yaradılması və təmiz enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Təsadüfi deyil ki, ölkəmiz elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

## "Ağıllı" kimya istehsalatına media-tur

**Dünən SOCAR-ın təşəbbüsü ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə "SOCAR Karbamid" zavoduna media-tur təşkil olunub. 30-a yaxın media qurumundan nümayəndələrin iştirak etdiyi turda əvvəlcə SOCAR-ın media, ictimaiyyətlə əlaqələr və kommunikasiya departamentinin rəisi İlahə Novruzova media-tur iştirakçılarını 22 iyul Milli Mətbuat Günü münasibətilə təbrik edib.**



Departament rəisi Prezident İlham Əliyevin müvafiq sərəncamı milli mətbuatın yaranmasının 150 illiyinin ölkəmizdə təntənəli şəkildə qeyd olunduğunu bildirib. Bu xüsusda SOCAR-ın təşəbbüsü ilə "SOCAR Karbamid" zavoduna media-turun və bayram tədbirinin təşkil olunduğunu qeyd edib.

Media-tur iştirakçıları təhlükəsizlik qaydaları ilə tanış olduqdan sonra "SOCAR Karbamid" zavodunun "ağıllı" kimya və "açıq" anbar sahələrində olub, burada rəqəmsal texnologiyalardan istifadə olunmaqla həyata keçirilən istehsalat prosesi barədə məlumat əldə ediblər.

Zavodun baş texnoloqu Şöhrət Mirzəyev, baş metroloqun müavini İlkin Hacıyev tərəfindən media nümayəndələrinə müəssisənin ümumi fəaliyyəti, rəqəmsal transformasiya layihəsi, istehsalat proseslərinin avtomatlaşdırılması üzrə görülən işlərə dair məlumat verilib, müvafiq təqdimat edilib.

Daha sonra media nümayəndələri muğam triosunun ifasında konsert proqramını izləyiblər.

Sonda media nümayəndələrinə xatirə hədiyyələri təqdim olunub, birgə foto çəkdirilib.

## Xarici yatırımlar 30 faiz artıb

**Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, bu ilin yanvar – iyun aylarında Azərbaycanda əsas kapitala xarici mənbələrdən 2 milyard manat (bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 30 faiz çox) vəsait yönəldilib.**



Hesabat dövründə xarici investisiyaların 1 milyard 949,4 milyon manatı (97,3 faizi) Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Rusiya, ABŞ, İsveçrə, Yaponiya, İran, Macarıstan, Fransa və Hindistan sərmayədarlarına məxsus olub.

Xatırladaq ki, 1 yarımildə respublikamızda əsas kapitala 8 milyard 073,5 milyon manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz az investisiya yönəldilib. Son 1 ildə neft-qaz sektoruna investisiyalar 23,8 faiz azalıb, qeyri-neft-qaz sektoruna investisiyalar isə 13,5 faiz artıb.

## Neft Fondunun gəlirləri 200 milyard dolları ötüb

**Azərbaycan Dövlət Neft Fondundan (ARDNF) redaksiyamıza bildirilib ki, qurum yaranma tarixindən bəri büdcə gəlirləri 207,3 milyard ABŞ dolları təşkil edib. Məlumata görə, gəlirlərin 194,2 milyard dollar neft-qaz sazişlərindən gəlirlər, 14,9 milyard dolları isə investisiya gəlirləri olub.**

Bu dövrdə ARDNF-nin dövlət büdcəsinə transfertləri 132,6 milyard dollar təşkil edib. Layihələrin maliyyələşdirilməsinə 11,9 milyard dollar, əməliyyat xərclərinə isə 0,5 milyard dollar sərf olunub.

Qeyd edək ki, ümummilli lider Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli Fərmanı ilə ARDNF təsis edilib. Fondun əsas məqsədi Azərbaycan Respublikası vətəndaşlarının bugünkü və gələcək nəsillərinin mənafeyi naminə neft və qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişlərin həyata keçirilməsindən və ARDNF-nin öz fəaliyyətindən əldə olunan valyuta və digər vəsaitin yığılmasını və səmərəli idarə olunmasını təmin etməkdir.



## Hökumət dövlət-özəl tərəfdaşlığı layihələrini təsdiq edib

**İqtisadiyyat Nazirliyinin məlumatına görə, Nazirlər Kabinetinin 2025-ci il 11 iyul tarixli sənədi ilə 2026-cı il üzrə dövlət – özəl tərəfdaşlığı layihələrinin siyahısı təsdiq edilib. Sənəddə təhsil, ətraf mühit, qida təhlükəsizliyi, su, turizm və nəqliyyat sahələrində strateji əhəmiyyət daşıyan layihələrin özəl sektorla sıx əməkdaşlıq formasında həyata keçirilməsi nəzərdə tutulub.**



Siyahıda yer alan "Bakı şəhərində elmi-texnoloji parkın inşası və idarə edilməsi", "Lənkəran rayonunda bərk məişət tullantılarının idarə edilməsi", "Heyvan cəsədləri və bioloji tullantıların utilizasiya mərkəzlərinin inşası", "Hövsan aerasiya qurğusunun təmiri və çirkab suların təkrar emalı ilə bağlı yeni qurğuların quraşdırılması", "Kəlbəcər rayonunda turizm – istirahət zonasının yaradılması", "Yük avtonəqliyyat parklarının yaradılması" layihələri ölkənin dayanıqlı inkişaf strategiyasına uyğun olaraq sosial – iqtisadi sahələrdə infrastrukturun təkmilləşdirilməsinə, ətraf mühitin qorunmasına, eləcə də turizm potensialının artırılmasına yönəlib.

Dövlət – özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan bu layihələr ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, investisiyaların artırılması və innovativ həllərin tətbiqinin genişləndirilməsi baxımından mühüm önəm daşıyır.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Milli mətbuatımızın yubileyi ümumxalq bayramına çevrilib

## Elm jurnalistikanın ən yaxın dostudur



**AMEA Rəyasət Heyətində milli mətbuatın 150 illik yubileyi münasibətilə keçirilən konfransda elmlə mətbuatın tarixi dostluğu və qarşılıqlı əlaqəsi söylənən mülahizələrin ana xəttini təşkil etdi.**

Məclisi giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Milli Mətbuat Günü və 150 illik yubiley münasibətilə media nümayəndələrini təbrik etdi, onlara şərəfli və məsuliyyətli işlərində uğurlar arzuladı. Ölkə elminin rəhbəri 1875-ci il iyulun 22-də “Əkinçi” qəzetinin ilk nömrəsinin nəşri ilə əsası qoyulan milli mətbuatımızın keçdiyi çətin və şərəfli yola ətraflı nəzər saldı, bu yolda milli mətbuatla milli elmin qoşa addımladığını vurğuladı.

İsa Həbibbəyli Azərbaycanda sağlam və peşəkar mətbuatın formalaşmasında, söz və mətbuat azadlığının təmin edilməsində ümummilli lider Heydər Əliyevin rolundan xüsusi olaraq danışdı. O bildirdi ki, müasir dövrdə milli mətbuatımızın inkişafı ulu öndərin davamçısı Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müstəqil dövlətin media siyasətinin mükəmməlliyi və demokratikliyi ilə bağlıdır.

AMEA rəhbəri son illərdə dövlət başçısının genişmiqyaslı fəaliyyəti çərçivəsində Azərbaycan mətbuatının öz inkişafını ən yüksək səviyyədə təmin etdiyini, Vətən müharibəsi zamanı medianın haqq səsimizin dünya ictimaiyyətinə çatdırılmasında, saxta məlumatların ifşasında xüsusi fəaliyyəti ilə seçildiyini vurğuladı. Akademik söylədi ki, Prezident İlham Əliyevin “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” 25 aprel 2025-ci il tarixli sərəncamı müstəqil mətbuatın inkişafının dövlət başçısının diqqət mərkəzində saxladığı prioritet sahələrdən olduğunu bir daha təsdiqlədi: “Azərbaycan milli mətbuatının yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, mətbuat işçilərinin təltif edilməsi, redaksiyalara maliyyə yardımının göstərilməsi ölkə başçısının jurnalistikaya göstərdiyi qayğının parlaq göstəricisidir”.

Görkəmli media nəzəriyyəçisi və tarixçisi, BDU mətbuat tarixi kafedrasının müdiri professor Cahangir Məmmədli, AMEA Ədəbiyyat İnstitutunun mətbuat tarixi və publisistika şöbəsinin müdiri professor Vüqar Əhməd, şöbənin baş elmi işçisi Gülbəniz Babayeva, AMEA Rəyasət Heyəti aparatının ictimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri Ağahüseyn Şükürov, Gəncə Bölməsinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Zakir Muradov, Əməkdar jurnalist Xalid Niyazov, AMEA Ədəbiyyat İnstitutunun baş mütəxəssisi Ülkər Hüseynova, AMEA Azad Həmkarlar İttifaqının sədri Sənan Həsənov və Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri Xatirə Quliyeva çıxış edərək Azərbaycan mətbuat tarixinin zəngin irsindən danışdılar, media texnologiyalarının sürətlə inkişaf etdiyi dövrdə jurnalistikanın milli maraqları qorumaq missiyasının önəmini vurğuladılar.

Sonda Akademiyada çalışan bir qrup media işçisinə AMEA-nın təşəkkürnamə və fəxri fərmanlar təqdim olundu.

***Tahir AYDINOĞLU***
***XQ***

## Teatrı KİV “səhnə”sinə çıxaranlar





**Milli Mətbuatımızın 150 illiyi ərəfəsində Azərbaycan Teatr Xadimləri İttifaqında mədəniyyəti, o cümlədən teatrı təbliğ edən jurnlistlərlə keçirilən görüş əsryarımlıq bir ənənənin davamı kimi xarakterik idi. Məlum olduğu kimi, hələ 1873-cü ildə gələcək “Əkinçi”nin yaradıcısı Həsən bəy Zərdabi və gimnaziyada onun şagirdi olan 19 yaşlı Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə Bakıda Mirzə Fətəli Axundzadənin komediyaları səhnələşdirilmiş, Azərbaycanda, eləcə də bütün müsəlman Şərqində peşəkar teatrın təməli qoyulmuşdur. Elə buna görə də mətbuat təmsilçiləri Teatr Xadimləri İttifaqına doğma ünvan kimi təşrif gətirmişdilər.**

Səmimi ovqatda keçən görüşdə yaradıcı qurumun sədri – Xalqü artisti, Dövlət mükafatı laureatı Hacı İsmayılov jurnalistləri salamlayaraq, mətbuatla teatrın sıx bağlılığından bəhs etdi, milli dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadənin 1875-ci ildə “Əkinçi”nin nəşrini ilk alqışlayan, ona xeyir-dua verən və məsləhətini bildirənlərdən olduğunu xatırlatdı. O, bu gün teatrla mətbuatın əlaqələrinin daha da dərinləşdiyini vurğuladı və bunu ilk növbədə görüşə toplaşmış jurnalistlərin xidməti kimi dəyərləndirdi.

Hacı İsmayılov və müavinləri – “Şöhrət” ordenli Xalq artisti, Dövlət mükafatı Laureatı İlham Namiq Kamal, Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri, Əməkdar artist Azad Şükürov başlıca mövzusu mədəniyyət olan mətbuat nümayəndələrinə ən xoş arzularını bildirdilər. Sonra bir qrup jurnalistə, o cümlədən “Xalq qəzeti”nin əməkdaşı Əli Nəcəfxanlıya “Teatrın dostu” diplomları, digərlərinə fəxri fərmanlar verildi. Teatr Xadimləri İttifaqının mətbuatla sıx əməkdaşlıq edən təmsilçiləri – mədəniyyətşünas Aida Qafarova və Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlu da bu diqqətdən kənarda qalmadılar. Eyni zamanda, sırf səhnə sənətindən yazan jurnalistlər – Gülcahan Mirməmməd, Həmidə Rüstəmova və Samirə Behbudqızı ittifaqın təsis etdiyi “Teatr fədaisi” medalı ilə təltif olundu. Jurnalistlər göstərilən diqqətə və dəyərə görə minnətdarlıqlarını bildirdilər. Çıxışlardan birində böyük dramaturq Hüseyn Caviddən yerinə düşən sitat da gətirildi: “Turana qılıncdan daha kəskin, ulu qüvvət – Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!”

Unudulmaz anların yaşandığı görüşün sonunda xatirə fotoları çəkildi.

***XQ***

## Mətbuatla incəsənətin vəhdəti

**“Mən 10 il əvvəl ilk dəfə Bakıya gəlmişəm. Paytaxtınız çox gözəlləşib, daha da müasirləşib. Çox şadam ki, Azərbaycan mətbuatının 150 illiyinə həsr olunan bu simpoziuma dəvət olunmuşam. Təqdim etdiyim əsərlər “Söz. Çap. Forma – birləşən dünyalar” devizinə tam uyğundur. Burada Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin təsvirini yaratmaq barədə qənaətim də gücləndi. Axı, 150 il əvvəl məhz Zərdabinin redaktorluğu ilə “Əkinçi” qəzetinin ilk nömrəsi işıq üzü görüb”**

– Bu fikirləri “MətbuArt” beynəlxalq incəsənət simpoziumunda iştirak etmək üçün Bakıda qonaq olan Qahirə Universitetinin professoru, rəssam Məhəmməd Abouelnaqa deyib.

Simpozium çərçivəsində tanınmış rəssam və sənət tədqiqatçısı ilə yaddaqalan görüş olub. Ənənəvi materialları və vizual dili müasir bədii ifadə ilə birləşdirən M.Abouelnaqa çap texnologiyalarının simvolik dəyəri, yaddaş və özünüdərk anlayışına təsiri barədə fikir və təcrübələrini bölüşüb. “Mən vizual üslubda çalışan rəssamam. Burada nümayiş etdirdiyim əsər alüminiumdan hazırlanmış peyk formalı qablardır. Bunlar müharibələrin dünyaya necə böyük zərər vurduğunu əks etdirir. Hazırda dünyanın bir çox yerlərində müharibələr gedir. Hər bir müharibə bəşəriyyət üçün olduqca zərərlidir. Mən hər cür müharibəyə və silahlı münaqişəyə qarşıyam”, – deyə o bildirib.

Azərbaycan rəssamı Rəna Tağıyeva platformaya abstrakt əsərlərlə qatılıb.



“İndiyədək çoxsaylı sərgi və simpoziumlarda iştirak etmişəm. Şadam ki, bu simpoziuma da dəvət olundum. Düşünürəm ki, abstrakt əsərlərlə fikri daha gözəl çatdırmaq olur. Əsas mövzumuz Azərbaycan mətbuatının 150 illiyinə həsr olunub. Təqdim etdiyim əsərlərdən birində milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin təsvirinin əks olunması təsadüfi deyil. Həsən bəy Zərdabinin redaktorluğu ilə ilk nömrəsi işıq üzü görən “Əkinçi” qəzetinin nəşri ilə Azərbaycan milli mətbuatının bünövrəsi qoyulub. Simpoziumda nümayiş etdirəcəyim həmin əsərdə 150 yaşlı ölkə mətbuatının keçdiyi zaman kəsiyini, xüsusilə də son bir neçə ildə aktiv fəaliyyətini canlandırmağa çalışmışam.

Digər əsərimə isə H.Zərdabinin tez-tez istinad etdiyi bir kəlamı həkk etdirməyi düşünürəm. Həmin kəlam yunan filosofu Platona aiddir: “Bütün şərlərin kökü cahillikdədir”.

Qeyd edək ki, “MətbuArt” beynəlxalq incəsənət simpoziumunda Azərbaycan təmsilçiləri ilə bərabər, 7 xarici rəssam, fotoqraf və heykəltaraş iştirak edir. simpoziumun əsas məqsədi Azərbaycan mətbuatının keçdiyi inkişaf yoluna diqqət çəkmək və onunla sıx bağlı olan “Azərbaycan” nəşriyyatının bir əsrdən artıq tarixini incəsənət dili ilə əks etdirməkdir. Belə ki, tədbir çərçivəsində kağız tullantılarından, çap sənayesinə aid köhnəlmiş və sıradan çıxmış avadanlıqlardan, ehtiyat hissələrindən və digər texniki materiallardan sənət əsərləri ərsəyə gəlir. Sənətkarlar “Azərbaycan” nəşriyyatının təklif etdiyi ümumi konsepsiyadan ilhamlanaraq mövzuya şəxsi yanaşmalarını və bədii təxəyyüllərini əks etdirən əsərlər yaradırlar.

Mətbuatın və incəsənətin vəhdət təşkil etdiyi “MətbuArt” yaradıcı platforması bu gün açıq sərgi ilə yekunlaşacaq.

***XQ***

## Azad sözün ümummilli nüfuzu



**Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə paytaxtın Nəsimi Rayon İcra Hakimiyyətinin Yeni Azərbaycan Partiyası rayon təşkilatı ilə birgə təşkil etdiyi “Mətbuatımızın təşəkkülü və tarixi missiyası” adlı dəyirmi masada andilli jurnalistikamızın ötən əsryarımda xalqımızın ictimai-mədəni tərəqqisində oynadığı misilsiz rol yüksək dəyərləndirildi, nəsimililərin media ictimaiyyətinə bayram təbriki çatdırıldı.**

Nəsimi Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən, RİH başçısının müavini Zahid Xəlilov rayonla sıx əməkdaşlıq edən görüş iştirakçısı olan jurnalistləri və ölkənin media ictimaiyyətini əlamətdar yubiley münüsibətilə səmimi təbrik etdi. O, milli mətbuatımızın keçdiyi tarixi və şərəfli yoldan söz açaraq qeyd etdi ki, XIX əsrin son rübündə yarım əsrlik müstəmləkə taleyi yaşayan xalqımızın milli oyanışını və özünüdərkini hədəfə almış mətbuatımız bir neçə onillik hazırlıqdan sonra XX əsrin əvvəllərindən dövlətçiliyin bərpası məfkurəsini yaymağa başlayıb. Bu mübarizənin öncül publisistləri 1918-ci ildə Xalq Cümhuriyyətinin qurucuları olublar. Milli hökumətin süqutundan sonrakı kommunist idarəçiliyi dövründə də jurnalistlərimiz öz sözləri ilə sivil ideyaların gerçəkləşməsinə əməli dəstək qazandırıblar.

Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə xalqı ölkənin hərtərəfli tərəqqisinə səfərbər etməkdə mətbuatın, teleradionun rolundan yüksək səviyyədə istifadə edərək Azərbaycanı keçmiş ittifaqın ən qabaqcıl respublikalarından birinə çevirmişdi. Ulu öndərin müstəqillik illərində formalaşdırdığı dövlət media siyasətini Prezident İlham Əliyev uğurla davam etdirərək ölkəmizdə azad, demokratik medianın dünya səviyyəsində nüfuz qazanmasına və peşəkarlığının yüksəldilməsinə təminat yaradıb.

Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov, Nəsimi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Gülarə Verdiyeva və RİH başçısının müavini Ramiz Quliyev də Milli Mətbuat Günü münasibətilə jurnalistləri təbrik etdilər, paytaxtın mərkəzi rayonunda aparılan genişmiqyası yeniləşmə prosesinə onların göstərdiyi informasiya dəstəyinin önəmini vurğuladılar.

“Xalq qəzeti”nin baş redaktorunun müavini, Tahir Aydınoğlu, QHT fəalı media eksperti Səbuhi Abbasov, özəl qurumun mətbuat katibi Məhəmmədəli Qəribli və informasiya agentliyinin rəhbəri Nahid Canbaxışlı müstəqil dövlətin azad mediasında çalışmağın şərəf və məsuliyyətini xatırladaraq, dövlətin diqqət və qayğısının, xalqın etmad və rəğbətinin jurnalistikamızın mənəvi güc qaynağı olduğunu söylədilər. Onlar səmimi təbriklərə görə razılıqlıqlarını söylədilər, mediamızın yubileyinin ümumxalq bayramı kimi qeyd edilməsinə görə minnətdarlıqlarını ifadə etdilər.

***T.RÜSTƏMLİ***
***XQ***

## “Azərbaycanın mədəniyyət siyasəti və media”



**Mədəniyyət Nazirliyi və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbində “Azərbaycan Respublikasının mədəniyyət siyasəti və media” mövzusunda maarifləndirici seminar keçirilib.**

Mədəniyyət sahəsində fəaliyyət göstərən qurumların media ilə səmərəli kommunikasiyasının qurulması, informasiya yayımı prosesində müasir metodların tətbiqi və strateji kommunikasiya bacarıqlarının artırılması məsələlərinə həsr olunan seminarda Medianın İnkişafı Agentliyinin şöbə müdiri – mətbuat katibi Səidə Şəfiyeva “Mədəniyyət qurumlarının fəaliyyətinin mediada səmərəli kommunikasiyasının təşkili” mövzusunda təqdimatla çıxış edib. O, mədən dəyərlərin beynəlxalq aləmdə tanıdılması baxımından media və kommunikasiyanın əvəzolunmaz bir vasitə kimi rolunu yüksək dəyərləndirib.

“Əvvəllər mədəniyyət qurumları əsasən ənənəvi vasitələrlə – qəzetlər, jurnallar, televiziya proqramları və kitablarla informasiya yayırdısa, bu gün rəqəmsal dövr dövlət qurumları üçün tamamilə yeni imkanlar açır. İndi biz sosial media platformaları, virtual texnologiyalar və rəqəmsal resurslar vasitəsilə mədəniyyət tədbirlərini minlərlə, hətta milyonlarla insana çatdırmaq imkanına malikik. Bu dəyişikliklər göstərir ki, keçmişdə statik və birtərəfli olan kommunikasiya artıq daha dinamik, rəqəmsal və interaktiv xarakter daşıyır”, – deyə S.Şəfiyeva qeyd edib.

Seminarda həmçinin, media və mədəniyyət qurumları arasında əməkdaşlığın əhəmiyyətindən, informasiya siyasətinin qurulmasında yeni texnologiyaların rolundan və bu sahədə beynəlxalq təcrübədən danışıb. Agentliyin departament direktoru Ləman İsgəndərova “Media savadlılığı: başlıca prinsipləri, hədəf qrupları və perspektivləri” mövzusunda çıxış edərək media savadlılığının cəmiyyət üçün əhəmiyyətindən danışıb.

“Redaksiya siyasəti və jurnalistlərin peşə davranış qaydaları” mövzusunda çıxış edən Medianın İnkişafı Agentliyinin media təhlil şöbəsinin müdiri Səbinə Seyidova jurnalist etikası və redaksiya siyasətinin peşəkar media mühitinin formalaşmasında əsas şərtlərdən olduğunu bildirib. O vurğulayıb ki, jurnalistlər informasiya əldə edərkən və yayarkən obyektivlik, dəqiqlik və qərəzsizlik prinsiplərinə əməl etməlidirlər.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dosenti, elmi işlər üzrə dekan müavini Sevinc Əliyevanın “Milli Mətbuat – 150. Azərbaycan publisistikasında qadın hüquqları uğrunda mübarizə və gender bərabərliyi məsələləri” mövzusunda çıxışı da maraqla qarşılanıb. O, XIX əsrin sonu–XX əsrin əvvəllərindən etibarən milli mətbuatda qadınların təhsili, ictimai həyatda iştirakı və hüquqlarının müdafiəsi istiqamətində müzakirələr aparıldığını qeyd edib. Həmçinin bu mövzunun günümüzdə də aktuallığını qoruduğunu və gender bərabərliyi məsələlərinin mediada daha geniş işıqlandırılmasının vacibliyini vurğulayıb.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***XQ***

# “Rusiyada əvvəlimci türk qəzetəsi”

Dünyada ittifaq olmasa heç bir cəmiyyət işi bina tutmaz. Bizim sabiq cəmiyyəte xeyriyyə bina tutmadığından teatro oynayan otaq boş qaldığından aşkar oldu ki, müsəlman qardaşlarımızı bir yerdə cəm edib zəmanəyə müvafiq məktəbxanalar açdırıb küçə və bazarlarda qalan uşaqları oxutmaq olmayacaq. Elmsiz bu zəmanədə dolanməq mümkün degil.

Ələlxüsus, bizim yerlərdəki qonşularımız elm təhsil edüb gün-gündən irəli gedüb bizim əlimizdə olan mülk-malımıza sahib olurlar və bir az vəqtdən sonra biz onlara rəncbərlik edüb onların malını daşımaqdan ötəri kirəkeşlik edəcəyik. Belə də nə qayırmalı? Hər kəsi çağırıram gəlmiyor, göstərirəm görmüyor, deyirəm qanmıyor. Axırdə gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur.

Olmaz ki, mənim sözümi eşidənlərdən heç bir qanan olmasun. Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan bir neçə yıldan sonra o su tökülməkdən o bərk daşı murur ilə əridib deşər. Habelə, söz də, ələlxüsus doğru söz murur ilə qanmazın başın deşib onun beyninə əsər edər. Belə də bən onları necə görüm və görmək mümkündürmü? Hər kəs öz qəra sandüğinin üstə oturub onun içində olana səcdə edər və sanduği doldurmaq fikrindədir. Amma ətrafda müsəlman qardaşlarımız bir-bir düşmənimiz əjdahanın ağzına düşüb yox olduğunu görmək də istəmiyor.

Belədə qəzetə çıqarmaqdən savayı bir qeyri-əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapu pəncərələrdən o iman mənzillərinə çata bilsun. Heç olmaz ki, doğru söz yerdə qalsun. Hər ildə on qəzetə oxuyandan birisi okuduğunu qansa onların qədəri ilbəil artar. Axırda o bəndə ki, suyun qabağını kəsmişdi və suyu axməqa qoymuyur idi rəxtə tapar və su murur ilə bəndi uçurub aparar. Sonra düşmənin düşmənliqi, dostun dostluqi və dost göstərən doğru yolun doğru olmaqi aşkar olar.

Bəs qəzetəyi necə çıkardım, pul yoq, yazıçı yoldaş yoq, çapxanə yoq, hurufat yoq, omlə yoq, 1-2 yüzdən artıq oxuyan də olmayacaq. Dövlət tərəfindən izn almaq də ki, bir büyük bəladır. Bizim qubernator mütəvvəffi general Staroselski - doğrudur, xalis rus idi, amma onun övrəfi gürcü qızı idi. Ona görə Qafqazın biz əhlini artıq dust tuturdu, mən ona dərdimi deyəndən sonra məsləhət gördü ki, qəzetənin adını “Əkinçi” qoyum ki, guya məhz əkin və ziraətdən danışacaq və özü də boynuna çəkdi ki, senzuralığı qəbul eləsün.

Bu tövr ərizə verib izn aldım. Çünki əvvəl vəqtdə yazı-pozu şikəstə xəttilə olurdi və basma xəttini oxuyan yox idi və təmam Rusiyədə işlənən hurufat çog yəman idi, ona görə bana məsləhət elədilər ki, qəzetəni daş basmasilə (litoqrafiya) basdırum. Bən buna razı olmadım. Çünki litoqrafıya ilə çıqan qəzetə həftədə bir və ya iki dəfa çıqa bilyor. Amma mənim ümidim vardı ki, sonra qəzetəni hər gündə çıqarum və bir də Osmanlu və İran məmləkətlərində əvvəl vəqtdə qəzetələr çıqıyordi və onlar da hürufat ilə basılurdi və daş üstə çıqanlar da sonra hurufat ilə basılacaqdı.



**1905-ci ildə nəşrə başlayan ilk gündəlik anadilli qəzet “Həyat”ın nəşrinə ürəkdən sevinən Həsən bəy Zərdabi ağır xəstə olmasına baxmayaraq onun fəaliyyətinə həm qələmi, həm də tövsiyyələri ilə ustad yönü vermişdi. Milli mətbuatın atası bu qəzetdə çap etdirdiyi “Rusiyada əvvəlimci türk qəzetəsi” xatirəsi ilə “Əkinçi” nin məramını və keçdiyi yolu qəzetçilərin yeni nəslinin diqqətinə çatdırmışdı.**

**Bu bioqrafik yazı sonrakı dövrdə tədqiqatçılar üçün qiymətli mənbəyə çevrilmişdir. Həmin xatirəni “Əkinçi”nin 150 yaşının tamam olduğu gündə oxuculara təqdim edirik.**

Belədə yaqşı olurdi ki, işin binasından oquyanları basma xəttinə öğrədim ki, sonra dübarə zəhmət çəkib onları təzadən basma xəttinə öğrətmək lazım olmasun. O vəqtdə Bakuda iki basma xanə var idi. Onların birisindəki – “gubernski pravleniyanın” idi, bircə müsəlman hürufatını alayarımçıq düzən Minasov adlı erməni var idi. Onu gətirdub danışdırdım söz verdi ki, nə qədər hürufat düzən lazım olsa öğrədib mənim qəzetəmdə işlədər.

Sonra fıkrə getdim ki, yaxşı hürufatı haradan alım? Rusiyədə doğrudur, yaxşı hürufat yox idi, amma qəliblər qayırdub tazə hümfat tökdürmək mümkün idi. İş burasındadır ki, tazə qəliblər qayıran karkarçı 5-10 putdan ötəri onları qayırmağa razı olmazdı. Əvvəl vəqtdə İstanbulda olan bizim Sirvanlılar ilə mənim irsali-mərsulum var idi. Onların yazməğından bilirdim ki, orada bizim türk dilində bir neçə qəzetə çıqur. Hətta onlardan gündə çıqanı da var. Ona görə lazım bildim ki, gedib İstanbulu da ziyarət etdim və orada işlənən yəxşi hümfatdan 5-10 put alub gətirim.

1875-ci sənənin iyun ayında gedib İstanbulda 10 put hümfat alub avqust ayında qəyidub gəldim. Hümfat qışda gəlib çatdı, əleyhiddə basmaxanə açmağa pulum olmadı. Ona görə Staroselsky mənim hümfatımı “guberniskiy pravleniyanın” basma xanəsi üçün satın aldı. Kağız və qeyri ehtiyacı hazırlayub “Əkinçi” qəzetəsini çıqarmağı 1875-ci sənənin iyul ayının 22-də başladım.

İyul ayına qəzetənin açılmasını salmaqdan muradım o idi ki, zikr olan Minasovdan başqa türk hürufatı düzən tapıldı. O da bircə bacısı oğlunu gətirüb yanında şagird saxladı. Belə də labüd qalub mən özüm də ona gərək kömək edəydim. Basma xan; hər nömrəni bir küçək vərəq üstə, hər 1000 vərəq basmaqdan ötəri məndən manat həqq istədi. Hesab çəkub gördüm ki, qəzetəni hər iki həftədə bir dəfədər artuq çıqarda bilmərəm.

Qəzetə çığarmaq elanaməsini novruzda paylamışdım və Qafqazın taman şəhərlərinə və böyük kəndlərinə də göndərmişdim. İyul ayınacan 100 müştərim var idi ki, hərəsindən üç manat, cümlətani 300 manat vusul olmuşdu. Qubernator naçalniklərə hökm yazdı ki, hər bir kəndin yüzbaşısı qəzetə alsun. Bu tövr ilə 30 də müştərim artdı ki, cümlətani 1200 manata qədər qəzetə satılmaqdan vüsul oldu Qəzetə əldə satılmaq və elamnamə basdırmaqda ki əvvəl vəqtdə yox idi, qəzetəni 8-9 yüzə qədər basdırırdım. Onun 400 yüzünü müştəri olanlara və artığını Bakının küçə və bazarlarında paylamaqdan savayı qeyri şəhərlərə də müftə göndərirdim ki, qəzetə oxumaqa adət eləsinlər.

Əvvəlimci nömrələri çıqarmağın zəhməti çoq artıq oldu. Yayda şagirdlərim Bakıdan evlərinə getmişdilər, mən tək qalmışdım və bir də Minasov ömründə qəzetə işi görməmişdi və çox ağır işləyirdi. Ona görə özüm yazırdım, hürufatı düzməyinə kömək edirdim, qələtlərini düzəldirdim. Əvvəlinci yarım ili, yəni yanvarın birinəcən 500 manata qədər zərər elədim. Amma müştərilərimin qədəri yüzdən 300-ə qədər artdı. O ki, yüzbaşılar da naçalniklər onlara qəzetəni vəqtində göndərmədiyinə görə onların qədəri azaldı.

Yanvarın birindən 400-ə qədər müştərim var idi. Novruzdan sonra qəzetənin vərəqlərini böyüklətdirdim, o ilin payızında qəzetəni həfitədə bir dəfə çıqartdım, çünki yazıçı yoldaşlarım gün-gündən artırdı və Minasov öz bacısı oğlu ilə işə artıq öyrənmişdi. İl qurtaranda hesabımı çəkib gördüm ki, min manata qədər zərərim var. Üçüncü sənə, 1877-ci sənədə yüzbaşılardan savayı 400-ə qədər müştərim var idi.

... Mənim əvvəlinci köməkçilərim şagirdlərim idi. Onlar yazmaqdan savayı qəzetəni müftə paylamağa, postaya verməkdə kömək edirdilər. Onların hamısı qəzetə oxumaq ilə yazıb oxumağı öyrənmiş idilər və öz vətən dilində qəzetə görəndə çoq şad olurdular. O günü onlar üçün bir böyük bayram olurdu.

“Əkinçi”nin əvvəlinci bədbəxtliqi qubernator Staroselskinin Bakıdən getməgi oldu. Ondan sonra yeni qubernator Biryoğini senzor oldu. Qəzetənin ikinci böyük bədbəxtliqi Osmanlı dəvasının başlanmağı oldu. Nə qədər Osmanlı dəvası başlanmamışdı bir tövr Biryoğni ilə yola gedirdim. Elə ki, dəva başlandı özləri rus olmuyan, amma rus dövlətinə ixlas göstərmək istəyənlər əz on cümlə Biryoğni hər bir cəhətdə artıq diqqət edib qəzetə çıqarmağı dişvar elədilər.

“Əkinçi”yə ixtiyar vermişdilər ki, siyasi xəbərləri qeyri-qəzetlərdən götürüb çap eləsün. Amma onlar birisini də çap etməyə qoymadılar və bir tərəfdən də müştərilərimiz dəva xəbəri istiyorlardı. Senzordan təvəqqe elədim ki, özü qeyri qəzetələrin siyasi xəbərlərindən göstərsin ki, hansıları çap etmək mümkündür. Ona da razı olmuyub izn verdi ki, dövlət tərəfdən hər gündə gələn telləri çap edim. Əlbəttə, həftədə bir dəfə çıqan qəzetədə bir həftənin müddətində gələn tellərin hamısini çap etmək mümkün degil idi. Çünki hər gündə 2-3 yüz sətrə qədər tel gəlirdi və onlardan seçib lazım olan qədərini də basdırmağə qoymadılar. Xülasə, siyasi xəbərləri basmaq mümkün olmadı və müştərilər məndən çok narazı oldular.

Müsəlmanların düşmənləri ki, Staroselskinin vəqtində bir iş görə bilmiyordilər hər tərəfdən “Əkinçi”nin üstə tökülüb onun bağlanmaginə səy etdilər. Jandarma polkovnikinə hər gündə məndən və “Əkinçi”dən adsız donoslar göndərdilər. Jandarma tərəfindən mənim üstümə qarovulçular qoyuldu. Onların birisi mənim rus qulluqçumun qardaşı adına gecələr mənzilimin içində yatırdı, birisi də küçə qapusunda durub mən hər tərəfə gedəndə məni aparub gətirirdi. O vəqtdə mən hər gecə 1-2 saatə quluba gedib bilyard oynuyurdum və o jandarma polkovniki də bəzi vəqtdə mənim ilə oynuyurdu.

Onilə belə həftədə bir neçə dəfə o polkovnik məni apardub məndən cavab istiyordu ki, doğrudurmu, filan günü axşam filankəslərin yanma gedib filan sözü demisən. Mən ona cavab verirdim ki, filan saatdə sənin ilə bilyard oynuyurdum. Deyirdi ki, bən özüm də yaxşı biliyorum. Amma neyləyim zakon belədir, gərək xəbər alım. Belə danosları bircə jandarmaya versəydilər genə dərd yarı idi. Amma onları vəzirlərə, sərdara və qeyrilərə də göndərirdilər ki, onların cəvabların yazmaqdan biçarə jandarma yorulmuşdu. Amma buniylə belə mən qəzetəni vəqtlərində çıqarırdım.

Elə ki, Dağıstanda şuluqluq başlandı “Əkinçi”nin günü dəxi artuq gərə oldu: Bir gün Nəcəf bəy Vəzirovun məqaləsini ki Moskovdan göndərmişdi - vermişdim düzməgə. Məqalədə bir dərviş bazarda dükanların qabağında qəsidələr oxuyub onları elm təhsil etməgə çağırırdı, Senzor qol çəkib çap olmagə icazə vermişdi. Qəzetə çap olub paylanandan sonra qubernatorun hökmünə görə o nömrəni bağlayub məni istədilər. Gedib gördüm ki, mənim Minasovum oradadır.

Qubernator buyurdu ki, Minasov deyir ki, dərvişin sözlərinin qeyri-mənası var. Ona görə nömrəni bağlıyıb sana hökm edirəm ki, bir qeyri nömrə çap edəsən. Cavab verdim ki, qeyri nömrə çıqarda bilmərəm.

Mən gedəndən sonra qubernator özi bir nömrə çıgardub paylatdı. Çünki nömrə mənim admdan çıqmışdı. Mən təvəqqe elədim ki, dəxi mənim adımdan qəzetə çıqarmasınlar. Bu tövr mən istiyordum ki, qəzetəni vəqtilə bağlayub dəva qurtarandan sonra çıqardım. Amma müsəlmanların düşmənləri əl çəkmədilər. Bir gün gimnaziyanın direktoru bana məlum elədi ki, sərdarın hökmünə görə gərək mən Yekatirinadar şəhərinin gimnaziyasına müəllim gedəm. Ona görə mən ərizə verib qulluqdan çıqdım. Çünki mən Bakıdan çıqıb müsəlman işlərindən kənar olmağı özüm için ölüm hesab edirdim.

Dəva qurtardı, amma mənim Bakuda qalmağım müşkül oldu. Padişahlıq qulluğuna məni götürmədilər və bakılılardan heç kəs məni qulluğa götürmədi. 1-2 yerdə cəmiyyət qulluğuna gəlmək istədim ki, amma məni seçkidə qərəlÉdilər və qərəliyənlər də Bəkü müsəlmanları oldu ki, oraya xaricilərdən intixab etdilər. Belə də mən nəinki, “Əkinçi”ni çıqarda bilmədim, hətta Bakuda da qala bilməyib öz kəndimizə köçüb getdim.

**Həsən bəy Zərdabi**
**“Həyat” qəzeti, 1905-ci il**

# “Əkinçi” və Zərdabi irsi milli məfkurə qaynağıdır

Böyük maarifçi demokrat, təbiətşünas, ictimai xadim Həsən bəy Zərdabinin yaratdığı ilk milli qəzetimiz “Əkinçi” (1875-1977) Azərbaycan fikir tarixində mühüm yer tutur. Xalqımızın mədəniyyət tarixində əlamətdar hadisə olan “Əkinçi”nin nəşrə başlaması ilə dövri mətbuatımızın əsası qoyuldu. Qəzet maarifçilik ideyalarını özünə yenilməz bayraq etmiş ilk Azərbaycan mətbuat nümunəsi idi.

**İlk milli qəzetimiz “Əkinçi”, onun naşiri, redaktoru və əsas müəllifi Həsən bəy Zərdabi barədə bir sıra elmi tədqiqatlar aparılmış, xeyli kitab, çoxsaylı məqalə işıq üzü görmüşdür. “Əkinçi” və Zərdabi irsinin önəmi müstəqillik illərində daha da artmış, araşdırmalar yeni yanaşmalarla zənginləşmişdir.**

**Zərdabi və “Əkinçi” irsini öyrənənlər arasında mərhum jurnalist və mətbuat tarixçisi Vəli Məmmədovun xüsusi yeri, dəyərli xidməti var. Vəli müəllim “Əkinçi” qəzetinin ilk əhatəli elmi tədqiqatçısı idi. O, ömrünün sonunadək bu sahədə araşdırmalarını davam etdirmişdi. Tanınmış zərdabişünasın Həsən bəyin daha geniş jurnalist-publisist fəaliyyəti barədə doktorluq dissertasiyası müdafiə olunmamış qaldı.**

**Alimin Zərdabi irsinin tədqiqi barədə qəzetimizə yazmış olduğu son məqaləni mətbuatımızın 150 illik yubilyi ilə səsləşdiyinə görə çap etməyi faydalı bildik.**

Az vaxt ərzində qabaqcıl fikirlər mərkəzinə çevrilən qəzetin ətrafında toplanmış böyük realist və mütəfəkkir yazıçı Mirzə Fətəli Axundov, maarifpərvər şair Seyid Əzim Şirvani, dramaturq Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, publisist Əhsənül-Qəvaid, Ə.Heydəri və başqaları yenilik uğrunda və hər cür gerilik hallarına qarşı mübarizə aparırdılar. Qəzet “maarifdən, elmdən məhrum bir xalq işıqdan məhrumdur” şüarını bütün fəaliyyəti üçün məramnamə kimi qəbul edib, sonadək bu ideyaya sadiq qalmışdı.

Görkəmli alim-jurnalist Həsən bəy Zərdabinin redaktorluğu ilə nəşr edilən “Əkinçi” də mövcud cəmiyyətin bir çox mühüm məsələlərinə toxunulur, həmçinin məktəb və ədəbiyyat problemlərindən bəhs olunurdu. Həsən bəy “Qələmin vəzifəsi doğru sözü yazmaqdır”, “Hər vilayətin qəzeti o yerin aynasıdır” meyarı ilə əsl xalq qəzeti, milli söz tribunası yaratmağa nail ola bildi. Qəzet zamanın tələbləri səviyyəsində dayanaraq öz səhifələrində maarifçilik ideyaları təbliğ edir, həyatı daim dəyişməkdə, irəli getməkdə görür, xalqı tərəqqiyə səsləyirdi.

Parlaq ideyalar yayan qəzetin, onun mükəmməl biliyə və geniş dünyagörüşə malik naşiri və redaktoru Zərdabinin tükənməz irsi əbəs deyil ki, milli məfkurə, sivil, mədəni quruculuq qaynağı kimi, müxtəlif elm sahələrində çalışan tədqiqatçıları – filosofları, iqtisadçıları, jurnalistləri, filoloqları və başqalarını daim maraqlandırmışdır. Bir sıra tədqiqat əsərlərində Zərdabinin ictimai-siyasi mövqeyi şərh edilmiş, onun fəlsəfi, təbii elmi görüşləri, cəmiyyətə münasibəti və s. məsələlər aydınlaşdırılmışdır.

Həsən bəy Zərdabinin mənalı həyatını, çoxşaxəli fəaliyyətini xalqa çatdırmaq sahəsində onun həyat yoldaşı Hənifə xanım Məlikovanın “Həsən bəy Məlikovun tərcümeyi-halı” və ədəbiyyatşünas, pedaqoq Fərhad Ağazadənin (Şərqli) (“Azərbaycan mətbuatının 50 illiyi”) xidmətləri danılmazdır. Həsən bəy Zərdabi irsini ilk dəfə geniş tədqiq edən professor Heydər Hüseynovun ciddi axtarışları təqdirəlayiqdir. O, Həsən bəyin həyat və fəaliyyətinə dair qiymətli əsər yaradan filosofdur.

Görkəmli alim “XIX əsr Azərbaycan fəlsəfi və ictimai fikir tarixindən” adlı monoqrafik kitabının iri fəsillərindən birini Zərdabiyə həsr etmişdir. O, alimin irsinin tədqiq olunması zərurətini qeyd edərək yazmışdır: “Azərbaycanda ictimai fikir inkişafının tarixi yazıldıqda onun ən parlaq səhifələrindən birini xalqımızın fəxri olan Həsən bəy Zərdabi tutacaqdır. Bu böyük cəmiyyət xadimi, maarifçi, mütəfəkkir şəxsiyyət, xüsusi tədqiqə layiqdir”.

Fəlsəfə elmləri doktoru, professor M.Qasımov, professor Z.Göyüşov, professor İzzət Rüstəmov və başqa alimlərin tədqiqatlarında da Zərdabi irsi geniş şərh edilmişdir. Uzun illər Zərdabinin yazdığı əsərlər, məqalələr qəzet və jurnalların saralmış vərəqlərində qalmışdı. Bu ideya sərvətini toplu halda xalqa çatdırmaq mühüm vəzifələrdən idi. Ziyəddin Göyüşov bu işi müvəffəqiyyətlə yerinə yetirmişdir. O, Həsən bəyin rus və Azərbaycan mətbuatı səhifələrindəki elmi-kütləvi əsərlərini toplayıb iki kitab halında çap etdirmişdir. Bu əsərlərdə XIX əsrin ikinci yarısı və XX əsrin ibtidasında Azərbaycanın ictimai-siyasi mühiti, xalq kütlələrinin həyat tərzi geniş işıqlandırılmışdır. Hər iki kitaba tərtibatçı tərəfindən daxil edilən müqəddimə, qeydlər və lüğət əlavə vəsait kimi əhəmiyyətlidir.

Ziyəddin Göyüşovun “H.B.Zərdabinin dünyagörüşü” əsəri zərdabişünaslıq elminə qiymətli töhvədir. Səmərəli axtarışların bəhrəsi olan bu əsərdə maarifçi alimin dünyagörüşünün formalaşması, fəlsəfi, ictimai-iqtisadi baxışları, habelə etik görüşləri dərindən tədqiq və təhlil edilmişdir. Kitabın məziyyətlərindən biri də Zərdabi haqqında zəngin arxiv sənədlərindən, qəzet və jurnal məqalələrindən yaradıcı istifadə edilməsidir.

İ.Rüstəmovun “Zərdabinin ictimai-siyasi və fəlsəfi görüşləri”, Z.Məmmədovun “H.Zərdabi”, Ş.Məmmədovun “Zərdabinin dünyagörüşü” adlı əsərlər böyük alimin fikir dünyasının fəlsəfi əsaslarını, onun ictimai-siyasi baxışlarını geniş işıqlandırır.

Zərdabinin zəngin ideya irsi biologiya və iqtisad elmləri sahələrində çalışan alimlərin də tədqiqat obyekti olmuşdur. Biologiya elmləri doktorları H.Fərzəlibəyli, M.Axundov, iqtisad elmləri doktoru, professor A.Nəbiyev öz əsərlərində Zərdabinin təbiətşünaslıq və iqtisadi görüşlərini araşdırmışlar. Professor M.Axundovun “Həsən bəy Zərdabinin təbiətə aid əsərləri haqqında” kitabında alimin əsərləri ətraflı təhlil olunur. Professor Ə.Seyidovun “Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən” adlı kitabı alimin elmi-pedaqoji irsinin öyrənilməsi işində ciddi əhəmiyyətə malikdir.

Həsən bəy Zərdabi irsi və publisistikanın inkişafında xüsusi yeri olan “Əkinçi” qəzeti filoloqlarımızın da böyük marağına səbəb olmuşdur. Firudin bəy Köçərli Azərbaycan ədəbiyyatının inkişaf yoluna nəzər salıb, iftixar hissi ilə yazırdı: “Zaqafqaziyadakı azərbaycanlıların ədəbiyyatının tədrisi inkişaf etdiyindən danışarkən onun inkişafına 70-ci illərdə nəşr olunan “Əkinçi” adlı Azərbaycan qəzetinin göstərmiş olduğu səmərəli təsiri qeyd etməmək olmaz”.

Xalq yazıçısı, akademik Mirzə İbrahimov özünün “Böyük demokrat” adlı kitabında “Əkinçi”nin meydana gəlmə şəraitindən bəhs edərək yazır: “Azərbaycanda mətbuatın yaranması ədəbiyyatın inkişafına olduqca müsbət təsir göstərir, onun mündəricə və formasının genişlənməsinə, kütləviləşməsinə, yayılması və demokratikləşməsinə kömək edir”.

Professor Feyzulla Qasımzadənin “XIX əsr Azərbaycan tarixi” kitabında “Əkinçi”nin nəşri və fəaliyyəti, ədəbi siması barədə verdiyi məlumat və fikirlər qiymətlidir. Professor Məmmədcəfər Cəfərov “Həsən bəy Məlikov Zərdabi” adlı məqaləsində maarifçi alimin elm və mədəniyyət tarixində göstərdiyi xidmətlərdən bəhs edərək yazırdı ki, Həsən bəy Zərdabi xalq səadəti yolunda çarpışan, el üçün yaşayıb-yaradan realist-demokrat bir alim, mübariz yazıçı olmuşdur. Xəlqilik həmişə onun siyasi-ictimai görüşlərinin əsasını təşkil etmişdir.

Zərdabi tədqiqatçılarından professor Sadıq Hüseynov “XIX əsrin qabaqcıl Azərbaycan yazıçıları cəhalət, fanatizm əleyhinə mübarizədə” adlı dissertasiyasında və bir sıra məqalələrində “Əkinçi”nin tənqidi realist ədəbiyyat uğrunda mübarizəsindən geniş bəhs edir.

Azərbaycan ədəbi dilinin, publisistikanın inkişafında “Əkinçi”lərin rolu böyükdür. Qəzetin bu tarixi xidməti professor Ə.Orucovun “Əkinçi”nin dili mövzusunda yazdığı dissertasiyasında işıqlandırılmışdır. Burada qəzetin məzmunu və quruluşu, üslubu, imla tərzi, məqalələrdə işlənmiş əcnəbi sözlər, istilah yaradıcılığı və s. haqqında danışılır.

Qeyd edək ki, maarifçi-publisist haqqında oçerk, şeir və xatirələr də yazılmışdır. Yazıçı R.Məmmədov “Həsən bəy Zərdabi” adlı bioqrafik oçekrində alimin mənalı ömür yolunu bədii dillə qələmə almışdır.

Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov və başqaları əsərlərində Zərdabinin xidmətlərindən dönə-dönə bəhs etmişlər.

“Əkinçi” Azərbaycan milli mətbuatının örnəyidir, sələfidir. Yuxarıda qeyd etdiyimiz kimi, Zərdabinin elmi irsi və onun nəşr etdiyi qəzet barədə tədqiqatçılar bir sıra əsər və məqalələr yazmışlar. Firudin bəy Köçərlinin, Salman Mümtazın, Feyzulla Qasımzadənin, Məmmədcəfər Cəfərovun, Mikayıl Rəfilinin, Əziz Mirəhmədovun, Abbas Zamanovun məqalələri bu qəbildəndir.

Ötən əsrin 60-cı illərində tədqiqatçı Sadiq Hüseynovun “Əkinçi”nin izahlı biblioqrafiyası, Vəli Məmmədovun “Əkinçi” qəzetinin göstərişi” kitabları nəşr olunmuşdur. “Əkinçi”nin faksimilası nəşr olunandan sonra Zərdabi yaradıcılığına, ilk milli qəzetimizə maraq artmış, bir sıra kitab və məqalələr işıq üzü görmüşdür. Bu baxımdan əməkdar jurnalist Tahir Aydınoğlunun Zərdabi irsinə sevgisini xüsusilə qeyd etmək istərdim. O, ilk dəfə olaraq Hənifə xanım Məlikovanın rus dilində qələmə aldığı Zərdabinin bioqrafiyasını tam halda Azərbaycan dilinə çevirmiş, kitab halında çap etdirmişdir.




Sonrakı illərdə Həsən bəy Zərdabinin “Təbiət və insan”, “Elm və həyat” məqalələr topluları onun tərtib və şərhilə çap olunmuşdur. T.Aydınoğlunun tərtibi ilə alimin “Bədəni səlamat saxlamaq düstürüləməlidir” gigiyena əsəri “Həsən bəy Zərdabi və “Əkinçi” sənədlər, məqalələr toplusu da işıq üzü görmüşdür. Tədqiqatçı jurnalistin bu təşəbbüsü Zərdabi irsilə indiki nəsil oxucuları tanış etmək baxımından gərəkli və diqqətəlayiqdir.

Görkəmli alim-publisist Həsən bəy Zərdabinin zəngin yaradıcılığı və çoşaxəli fəaliyyəti geniş və tükənməzdir.

Bununla belə görülən işin, aparılan tədqiqatların elmi məziyyətlərini qeyd etməklə yanaşı, Zərdabinin jurnalist-publisist fəaliyyətini tam şəkildə – bütün kökləri, rişələri, əlaqələri ilə vəhdətlə araşdırıb üzə çıxarmaq zəruri problem kimi həllini gözləyirdi. Bu işi bütövlükdə ilk dəfə bu sətirlərin müəllifi araşdırmışdır.

Maarifçi alimin zəngin yaradıcılığında, jurnalist publisist fəaliyyətində “Əkinçi” böyük və uğurlu bir mərhələdir. “Əkinçi” və Zərdabi irsi azərbaycançılığın və azərbaycanşünaslığın qiymətli qaynaqlarından biridir. Zərdabişünaslıq ildən-ilə inkişaf edir, milli oyanış və istiqlal məfkurəsi tariximizə töhfələrini artırır.

*Vəli MƏMMƏDOV,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*Əməkdar müəllim*

Xuntaçıların məhkəməsi

# Yaralanmış, doğmaları qətlə yetirilmiş, əsir və girovluqda olmuş şəxslər ittiham edirlər

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 21-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Kənan İsayev ifadəsində 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı Füzuli rayonunda Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində qəlpə yarası aldığını bildirib.

Zərərçəkmiş Səfər Hacıyev 2011-ci ildə hərbi xidmətdə olarkən Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində güllə yarası aldığını deyib. O, dövlət ittihamçısı Təranə Məmmədovanın sualına cavabında hadisənin atəşkəsin Ermənistan silahlı qüvvələri tərəfindən pozulması zamanı baş verdiyini qeyd edib.

Zərərçəkmiş Vladislav Alimov ifadəsində 1992-ci ildə döyüşlər zamanı Şuşada qapalı kəllə-beyin travması aldığını, Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülərək Xankəndiyə aparıldığını bildirib. O, oktyabrın 6-dək əsirlikdən azad olunaraq Azərbaycan tərəfinə təhvil verilib.

Vaqif Qənbərov ifadəsində 1993-cü ildə Kəlbəcərdə Ermənistan silahlı qüvvələrinin hərbçiləri ilə döyüşlər zamanı əsir götürüldüyünü, İrəvana aparılaraq Ermənistan DTX-də saxlanıldığını bildirib. Daha sonra Gümrü şəhərinə aparılaraq orada saxlanılıb. Əsirlikdə olduğu vaxt işgəncələrə məruz qalıb. O, Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında 1995-ci il mayın 12-də Azərbaycana qaytarıldığını bildirib. V.Qənbərov təqsirləndirilən şəxs Bako Sahakyanın vəkilinin sualına cavabında isə müharibəyə gedənə qədər Dərin Özüllər Zavodunda çalışdığını qeyd edib.

Ağasəfər Şükürov ifadəsində 1994-cü il fevralın 14-də Kəlbəcər rayonunda döyüşlərdə qapalı kəllə-beyin travması alaraq əsir götürüldüyünü söyləyib. O, əvvəlcə qısa müddət Kəlbəcərdə, sonra isə Xankəndidə istintaq təcridxanasında, Şuşa həbsxanasında ağır şəraitdə saxlanılıb. 1995-ci il iyunun 8-də əsirlikdən azad olunub.

A.Şükürov Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında deyib ki, əsirlikdə olduğu müddətdə bütün azərbaycanlılar - mülki şəxslər və hərbçilər döyülürdü. "Digərləri kimi mən də mütəmadi olaraq döyülürdüm, işgəncələrə məruz qalırdım. Məni avtomatın qundağı ilə, bellə, armaturla, dəyənəklə döyüblər. Ağzımdakı bütün dişlərimi sındırıblar", - deyə o əlavə edib.

Zərərçəkmiş şəxs Şəhla Talıbova 1988-ci ildə Ermənistandakı dədə-baba yurdlarından deportasiya edildiyini, Şuşa rayonunda məskunlaşdıqlarını, həyat yoldaşının Xocalıda işləməsi ilə əlaqədar ora köçdüklərini bildirib. O, azərbaycanlılara qarşı təzyiqlər başlayanda avtobusa daş atılması nəticəsində 10 günlük körpəsinin gözünə şüşə qırığı batdığını söyləyib.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş Xocalı soyqırımı zamanı çətinliklə meşəyə qaçdıqlarını, iki gün orada qaldıqdan sonra Ağdama gedə bildiklərini deyib. O, dövlət ittihamçısı Fuad Musayevin sualına cavabında deyib ki, soyqırımı zamanı onun qayınatası və qayınanası 7 gün girovluqda saxlanılıb. Habelə digər qohumları girovluqda saxlanılıb, bir qismi isə itkin düşüb.

"Övladlarım ciddi travma alıb. Bakıya qayıdandan sonra qızım ulduzları raketə bənzədirdi. Göydə ulduz görəndə deyirdi, ana, raket atırlar, gedək...", - deyə o əlavə edib.

Yeganə İbrahimova deyib ki, Kəlbəcərə hücum olan zaman 1993-cü ilin may ayında "KamAZ" markalı yük avtomobili ilə ərazidən çıxarkən "Tunel" adlı ərazidə maşın Ermənistan silahlı qüvvələri tərəfindən atəşə məruz qalıb. Həmin vaxt "KamAZ"da təxminən 40 nəfər, o cümlədən Y.İbrahimovanın doğmaları (5 nəfər) olub. Hadisə zamanı 15 yaşlı Y.İbrahimova, atası, anası, qardaşları yaralanıb. Özünə 8, 14 yaşlı qardaşı Müşfiqə 5 güllə dəyib. Atası Nadir Əliyev, anası Nüşabə Əliyeva və 11 yaşlı qardaşı Tural Əliyev avtomobildə yaralı vəziyyətdə yandırılaraq qətlə yetiriliblər, onların meyitləri indiyədək tapılmayıb.



O və qardaşı Müşfiq girov götürülüb. Girovların bir qismi, o cümlədən Y.İbrahimova Heyvalı kəndinə aparılıb. Girovluqda olduğu müddətdə Xankəndidə və Xocalıda saxlanılıb. Y.İbrahimova dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında bildirib ki, dəyişdirilməsi üçün 1994-cü ildə əvvəlcə Ermənistana, oradan isə Rusiyanın Rostov vilayətinə aparılaraq azad edilib.

Həsən Qocayev ifadəsində 1994-cü il fevralın 12-dən 13-nə keçən gecə Kəlbəcər istiqamətində döyüşlər zamanı Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülərək Susuzluq kəndinə aparıldığını bildirib. Həmin vaxt o və digər azərbaycanlılar işgəncələrə məruz qalıb, ayaqlarından asılıb. Onun ayağını don vurub. H.Qocayev bildirib ki, hər iki ayağı ermənilər tərəfindən işgəncə verilməklə amputasiya edilib. O, Şuşada və Xankəndidə saxlanılıb, martın 26-da Azərbaycan tərəfinə təhvil verilib.

H.Qocayev təqsirləndirilən şəxs David Manukyanın sualına cavabında hazırda hər iki ayağının protez olduğunu söyləyib.

Rafiq İsmayılov ifadəsində 1993-cü il avqustun 24-də Füzulidə qızğın döyüşlər zamanı 6 güllə yarası alaraq əsir götürüldüyünü bildirib. Deyib ki, Ermənistan silahlı qüvvələrinin hərbçiləri onu yaralı vəziyyətdə döyüb, güllə yaraları aldığı yerləri təpikləyiblər.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran R.İsmayılov həmin il sentyabrın 4-də Ermənistan silahlı qüvvələrinin hərbçilərinə məxsus "Niva" markalı avtomobillə əsirlikdən qaçdığını bildirib.

Zərərçəkmiş Elşən Talıbov ifadəsində 1990-cı il mayın 29-da Ağdamın Əliağalı kəndində həmkəndliləri Nuru Cəfərov və Ziyad Cəfərovla birlikdə ermənilər tərəfindən girov götürüldüyünü bildirib. Onlar girov götürülərkən döyülüb, üzərilərində olan pulları və əşyaları alınıb. 5 gün sonra 55 baş iribuynuzlu heyvan qarşılığında Azərbaycan tərəfinə təhvil veriliblər.

Hüseyn Əliyev ifadəsində 1995-ci il fevralın 1-də hərbi xidmətdə olarkən dumanlı havada yolu azması nəticəsində Tərtərdə Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürüldüyünü bildirib. 1 il 4 ay sonra Azərbaycan tərəfə qaytarılıb.

Ramal Hacıyev ifadəsində 2000-ci il oktyabrın 15-də dumanlı hava şəraitində Füzuli rayonunun Əbdürrəhmanlı kəndində Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürüldüyünü bildirib. 2001-ci il yanvarın 14-də əsirlikdən azad olunub.

Sahidə Ələkbərova ifadəsində Xocalı şəhərində anadan olduğunu, 1992-ci il fevralın 25-dən 26-na keçən gecəyədək orada yaşadığını bildirib. Soyqırımı zamanı Qaraqaya adlandırılan yerdə girov götürülərək Əsgəran Polis Şöbəsinə aparılıb. Şəhərin işğalı nəticəsində evi və bütün əmlakı işğalçılara qalıb.

Bəxtiyar Şəbiyev 1993-cü ildə müharibə zamanı Laçında Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib. Əsirlikdə olduğu zaman İrəvanda saxlanılıb, həmin müddətdə döyülüb, işgəncələrə məruz qalıb. 1994-cü ilin may ayında əsirlikdən azad olunub.

İltizam Abışov ifadəsində soyqırımı zamanı Xocalıdan məcburi köçkün düşən vaxt girov götürüldüyünü, Əsgəran polis şöbəsinə aparıldığını deyib. Bir həftəlik döyülmələrdən və işgəncələrdən sonra girovluqdan azad olunub.

İlqar Abışov ifadəsində özündən əvvəl ifadə vermiş qardaşı İltizam Abışovun dediklərini təsdiqləyib.

İlham Ağamalıyev ifadəsində deyib ki, 1993-cü ilin may ayında Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülüb. Əvvəlcə Basarkeçərə, sonra İrəvana aparılıb. İşgəncələrə məruz qalıb, döyülüb. İki il sonra əsirlikdən azad olunaraq Azərbaycana qaytarılıb.

Cavid Müzəffərzadə, Anar Əliyev, Münasib Mirzəyev, Allahverdi Cabbarov ifadələrində müxtəlif istiqamətlərdə girov götürüldüklərini bildiriblər.

Elgün Ələkbərov ifadəsində pambıq zavodunda traktorçu işləyərkən 2021-ci ildə Tərtərdə Ermənistan silahlı qüvvələrinin basdırdığı tankəleyhinə minaya düşərək xəsarət aldığını söyləyib.

Vasif Quliyev ifadəsində 2020-ci ildə 44 günlük müharibə zamanı yaşadığı Tərtər rayonunun Qapanlı kəndində həyətinə Ermənistan silahlı qüvvələrinin atdığı mərminin partlaması nəticəsində yaralandığını söyləyib.

Polad İsmayılov ifadəsində 2024-cü il aprelin 2-də Tərtər rayonunun Çaylı kəndində heyvan otaran zaman minaya düşdüyünü bildirib. Hadisə zamanı özü və birlikdə olduğu həmyerliləri Arzuman Tağızadə və Elmin Bağırov xəsarət alıb.

Səbuhi Baxşalıyev bildirib ki, 2020-ci ildə 44 günlük müharibə zamanı – sentyabrın 28-də Tərtər rayonunun Əskipara kəndində yaşadığı evə mərminin düşməsi nəticəsində qəlpə yarası alıb, evi dağılıb, mal-heyvanı tələf olub.

Xəyal Babayev bildirib ki, 2021-ci ilin aprel ayında Suqovuşanda minatəmizləmə zamanı Ermənistan silahlı qüvvələrinin basdırdığı minanın partlaması nəticəsində xəsarət alıb.

Fərman Mehdiyev bildirib ki, 2005-ci il fevral ayında yaşadığı Tərtər rayonunun Qapanlı kəndinin Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində yaralanıb.

Vüsal Abbasov ifadəsində 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin atdığı minaatan mərmisinin partlaması nəticəsində ağır xəsarət aldığını bildirib. Hazırda ikinci qrup əlildir.

Fizuli Məmmədov ifadəsində 44 günlük müharibə zamanı – 2020-ci il oktyabrın 15-də vəfat etmiş xalasını Tərtər qəbiristanlığında dəfn edərkən Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində ağır yaralandığını deyib.

Rəşad Quluyev ifadəsində 44 günlük müharibə zamanı - 2020-ci il oktyabrın 16-da Ermənistan silahlı qüvvələrinin Bərdəyə atdığı mərminin partlaması nəticəsində yaralandığını söyləyib.

Qənbər Əsədov ifadəsində Tərtər Rayon Mərkəzi Xəstəxanasının əməkdaşı kimi təcili yardım maşını ilə gedərkən rayon mərkəzinə mərmi düşməsi nəticəsində ağır xəsarətlər aldığını bildirib.

Ağa Süleymanov 2020-ci il oktyabrın 14-də yaşadığı Tərtər rayonunun Düyərli kəndinin Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulması nəticəsində yaralandığını söyləyib.

Müşfiq Fərəcov ifadəsində 2020-ci il oktyabrın 9-da Tərtərdə yaşadığı evə 2 ədəd top mərmisi düşdüyünü bildirib.

Vaqif Əkbərov deyib ki, ANAMA əməkdaşı olaraq minatəmizləmə işləri görərkən 2023-cü il dekabrın 5-də Ağdamda mina partlayışı nəticəsində xəsarət alıb. Nəticədə sağ ayağının bir hissəsi amputasiya olunub.

Mamed Əhmədov ifadəsində 2016-cı il aprelin 2-də Tərtər rayonunda yaşadığı Şıxarx kəndinin artilleriya atəşinə tutulması nəticəsində yaralandığını deyib.

Yaşar Mamedov ifadəsində 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ağdaban faciəsinin şahidi olduğunu bildirib. Onun sözlərinə görə, 130 evlik kənd yandırılıb, dinc insanlar qətlə yetirilib.

Ələddin Məmmədov ifadəsində Aprel döyüşləri zamanı yaşadığı Tərtər rayonunun Qaraağacı kəndinə mərmi düşməsi nəticəsində evinə zərər dəydiyini bildirib.

Kamal Əliyev ifadəsində 1993-cü ildə Laçının işğalı zamanı 14 otaqlı evinin qaldığını, 2016-cı il aprelin 2-də isə yaşadığı Şıxarx kəndində mərmi düşməsi nəticəsində isə evinin yandığını söyləyib.

Zərərçəkənlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi iyulun 24-də davam etdiriləcək.

***XQ***

# Yevlaxda mətbuat nümayəndələri ilə görüş





**"Konstitusiya və Suverenlik İli" çərçivəsində Milli Mətbuatın yaranmasının 150 illik yubileyi və 22 İyul Milli Mətbuat Günü münasibətilə Yevlaxda bir qrup mətbuat nümayəndəsi ilə görüş keçirilib.**

Əvvəlcə anadilli mətbuatın inkişaf tarixini əks etdirən video-çarx nümayiş olundu. Sonra şəhər icra hakimiyyətinin başçısı Anar Tağıyev media nümayəndələrini peşə bayramları münasibətilə təbrik etdi, məsuliyyətli fəaliyyətlərində uğurlar arzuladı.

Natiq ulu öndər Heydər Əliyevin mətbuata və media nümayəndələrinə göstərdiyi diqqət və qayğını Prezident İlham Əliyevin layiqincə davam etdirdiyindən danışaraq bildirdi ki, mətbuatın maneəsiz fəaliyyət göstərməsi, onun dünya təcrübəsi ilə zənginləşdirilməsi, xüsusilə kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, o cümlədən jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və hüquqlarının müdafiəsi üçün dövlətimiz tərəfindən lazım olan bütün addımlar atılır. 150 illik çətin, şərəfli yol keçən Azərbaycan milli mətbuatı daim insanların maariflənməsi, xalqımızın azadlıq amallarının gerçəkləşməsi və mənəvi dəyərlərimizin qorunmasına mühüm töhfələr verib, bütün dövrlərdə cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirib.

Xatırlandı ki, Yevlaxda düz 90 il öncə ilk mətbu nəşr – "Yeni Yevlax" çıxmağa başlayıb. Sonralar "Qələbə", "Mübariz", "Təşəbbüs" kimi ad dəyişmələri olsa da, yerli mətbuat özünün ilkin məramnaməsinə sadiq qalıb. Nəhayət, 1992-ci ildən "Kür" adı ilə çıxan rayon qəzeti müstəqilliyin verdiyi imkanlar sayəsində şanlı ənənələrini davam və inkişaf etdirməkdədir. Ölkəmizin hər yerində olduğu kimi, müntəzəm çıxan bu qəzetdə, eləcə də digər mətbu orqanlarda jurnalistlərin qərəzsiz və obyektiv şəkildə qaldırdığı bütün məsələlər diqqətdə saxlanır, araşdırılır və müvafiq tədbirlər görülür.

"Xalq qəzeti"nin bölgə müxbiri İlqar Həsənov və həmkarları Lazım Quliyev ("Azərbaycan"), Zabit Xəlilov ("Respublika"), "Dialoq.az" xəbər saytının rəhbəri Natiq Əliyev, İTV-nin Qarabağ müxbiri Şöhrət Eyvazov, ELTV-nin Baş direktorunun yaradıcılıq işləri üzrə müavini Rəna İbrahimova çıxış edərək Azərbaycan mətbuatının yüksək dövlət dəstəyi və qayğısı ilə əhatə olunmasından, bu istiqamətdə ardıcıl və məqsədyönlü islahatların həyata keçirilməsi nəticəsində mühüm nailiyyətlərin əldə olunmasından, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra mətbuat sahəsində qazanılan uğurlardan danışdılar, mətbuat nümayəndələrinə göstərilən diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Sonda Milli Mətbuat Günü münasibətilə media təmsilçilərinə Yevlax Şəhər İcra Hakimiyyətinin Fəxri fərmanları və hədiyyələri təqdim olundu.

***XQ***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**"Azərbaycan Rəssamlıq Akademiyası" Publik Hüquqi Şəxsi**

kafedralarda boş olan vəzifələri tutmaq üçün

**MÜSABİQƏ ELAN EDİR**

Akademik rəngkarlıq və kompozisiya – 1 ştat dosent - 1 yer.
1 ştat baş müəllim -1 yer.
Rəngkarlıq və Təsviri incəsənət müəllimliyi – 1 ştat dosent -1 yer.
1 ştat baş müəllim -3 yer.
0,5 ştat baş müəllim -1 yer.
Rəsm – 1 ştat baş müəllim – 1 yer.
Heykəltaraşlıq – 1 ştat baş müəllim – 1 yer.
Memarlıq – 1 ştat dosent – 1 yer.
İncəsənət tarixi – 0,5 ştat dosent – 1 yer,
1 ştat baş müəllim – 1 yer.
0,5 ştat baş müəllim – 2 yer.
Humanitar və ictimai fənlər – 1 ştat baş müəllim – 1 yer.

Müsabiqədə istirak etmək istəyən namizədlər elan dərc olunduqdan sonra 1 ay müddətində aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
5. Elmi və elmi-metodiki işlərin siyahısı.

QEYD- müsabiqə elan olunan müəssisədə çalışan şəxslər ərizə ilə birlikdə yalnız 4-cü və 5-ci bəndlərində qeyd olunan sənədləri təqdim etməlidirlər.

Ünvan- Bakı, H.Əliyev prospekti 58.

***Rektorluq***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 149 (30843) 22 iyul 2025-ci il, çərşənbə axşamı

İDMAN

## Qalib gimnastlar vətənə dönüblər



**Almaniyada keçirilən XXXII Ümumdünya Yay Universiadasında 3 medal qazanmış Azərbaycan bədii gimnastları vətənə dönüblər. Bu barədə Gimnastika Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**

İdmançıları hava limanında federasiyanın nümayəndələri, gənc gimnastlar və ailə üzvləri qarşılayıblar. Güllü Ağalarzadə, Ləman Əlimuradova, Darya Sorokina, Yelizaveta Luzan və Kamilla Əliyevadan ibarət qrup müxtəlif proqramlar üzrə 2 qızıl, 1 gümüş medal qazanıb.

Qeyd edək ki, bu, Universiadalar tarixində komanda yarışlarında gimnastlarımızın ilk uğurudur.

## 1 turnirdən 2 gümüş medal



**Azərbaycan atıcısı Ruslan Lunyov Estoniyanın paytaxtı Tallində Avropa Atıcılıq Konfederasiyasının təşkilatçılığı ilə keçirilən "5-ci Ranno Krusta Memorialı" və "Lapua" Avropa Kubokunda iki gümüş medal qazanıb.**

Atıcılıq Federasiyasının mətbuat xidmətindən bildirilib ki, Ruslan Lunyov əvvəlcə 25 metr məsafəyə sürətli atəş üzrə yarışda 2-ci yeri tutub.

Növbəti uğur isə 25 metr məsafəyə mərkəzi atəş açma növü üzrə fərdi yarışda qeydə alınıb. Bu mərhələdə R.Lunyov, ümumilikdə, 581 xal və 23 daxili onluq (x) nəticəsi ilə çıxış edərək yenidən 2-ci yerə yüksəlib.

## Qubada cüdo seminarı




**Yaponiyada təhsil almış azərbaycanlı cüdo mütəxəssislərinin Qubada region məşqçiləri üçün bu gün ilk seminarı təşkil olunacaq.**

Seminarları Orxan Səfərov, Asiman Allahverdiyev və yunan ekspert Corc Buntakis keçirəcəklər. Seminar Quba Olimpiya İdman Kompleksində olacaq.

*MH ACIXANLI*
*XQ*


"DƏVƏLİ" ASC
səhmdarlarının nəzərinə!

7 sentyabr 2025-ci il saat 11.00-da "DƏVƏLİ" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər :

1. "Dəvəli" ASC-nin 2024- cü maliyyə ili üzrə illik hesabatlarının, mühasibat balansının, mənfəət və zərər hesabatlarının təsdiq edilməsi və mənfəətin bölüşdürülməsi.

2. Cari məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

Əlaqə telefonu -(012) 430-83-52.

Ünvan – Bakı şəhəri.Yasamal rayonu, 2-ci Alatava,-Dadaş Bünyadzadə küçəsi 212.

*İdarə heyəti*


Futbol aləmi

# "Mundial–2026": isti havalar nəzərə alınacaqmı?



**Bu yaxınlarda FİFA-nın təşəbbüsü ilə Amerika Birləşmiş Ştatlarının 11 şəhərində Qitələrarası Dünya Kuboku keçirilib. Turnirdə Avstraliya istisna olmaqla, digər bütün qitələrin ən güclü futbol klublarının oyunçuları qələbə üçün öz bacarıqlarını əzmlə nümayiş etdiriblər. Milyonlarla azarkeş televiziya ekranları qarşısında unudulmaz bir futbol həyəcanı yaşayıb.**

Eyni zamanda məlum olub ki, turnirin yay aylarına təsadüf etməsi meydanda idmançılar üçün xeyli çətinlik yaradıb. İndi bu məsələ qlobal mediada ciddi müzakirə olnur. Axı, gələn il ABŞ, Meksika və Kanadanın birgə evsahibliyi edəcəyi növbəti dünya çempionatı da məhz iyun-iyul aylarında keçiriləcək.

Düzdür, Qitələrarası Dünya Kuboku yarışlarında idmançılara əlavə təşkilatçılar tərəfindən nəmləndirmə fasilələri verilib, matçların keçirildiyi şəhərlərdə oyunçular və fanatlar üçün kölgə ilə təchiz olunmuş soyutma məkanları qurulub və başqa tədbirlər görülüb. Amma reallıq budur ki, isti havalarda keçirilən gərgin oyunlar idmançıları əldən salıb.

2026-cı ildə hava şəraiti ilə bağlı anoloji problemlər yarana bilərmi? Böyük ehtimalla, builki vəziyyət gələn il də təkrar oluna bilər. Təsadüfi deyil ki, turnirin qalibi, İngiltərənin "Çelsi" klubunun yarımmüdafiəçisi Enzo Fernandez Amerikada keçirdiyi oyunlar zamanı isti havaların onda tez-tez başgicəllənmə halları yaratdığını açıqlayıb və gələn yay mundialda oyunların günortadan sonra başlaması üçün FİFA rəsmilərinə az qala "yalvarıb".




Xatırladaq ki, Dünya çempionatının iyun və iyul aylarında keçirilməsi ənənəsi 1930-cu ildə Uruqvayda təşkil olunan ilk turnirə gedib çıxır. Lakin o dönəmlərdə yay ayları indiki qədər sıcaq olmayıb. ABŞ Milli Okean və Atmosfer Administrasiyasının məlumatına görə, planetimizdə orta qlobal temperatur XX əsrin əvvəllərindən üzü bəri 1,05 dərəcə Selsi artıb, Avropada isə yay daha da sürətlə (1,81 dərəcə Selsi) istiləşib.

Futbolun vətəni sayılan İngiltərənin Lidz şəhərindəki İqlim dəyişikliklərini öyrənən mərkəzin direktoru professor Piers Forster FİFA rəhbərliyi də daxil olmaqla, idmanı idarə edən bütün beynəlxalq qurumları futbol yarışlarının sərin payız-qış aylarına keçirilməsi ilə bağlı təklifləri ciddi şəkildə nəzərdən keçirməyə çağırıb.

Bu arada Qlobal oyunçular birliyi olan FIFPRO, 2026-cı ildə futbol üzrə Dünya çempionatına evsahibliyi edəcək 16 şəhərdən 6-nı istilik stressi üçün "son dərəcə yüksək risk" kimi qeyd edərək problemin ciddiliyini vurğulayıb.

FİFA prezidenti Gianni İnfantino isə səslənən bu narahatlıqları etiraf edərək, dam örtüyü olan stadionların gündüz saatlarında keçiriləcək futbol oyunları üçün prioritet olacağını vəd edib. Bununla belə, növbəti mundialda iştirakçı sayının 32-dən 48-ə qədər artması çempionatın qrafikinin kifayət qədər sıx olacağını düşünməyə əsas verir.

2022-ci ildə Qətərdə keçirilən futbol üzrə Dünya çempionatı diqqətəlayiq bir istisna idi. Belə ki, turnir yayın istisindən xilas olmaq üçün noyabr və dekabr aylarına keçirildi. Böyük ehtimalla, Səudiyyə Ərəbistanı da 2034-cü ilin mundialı üçün oxşar düzəliş edəcək. Bəs gələn il Şimali Amerikanın birdən-birə 3 ölkəsində keçiriləcək futbol üzrə Dünya çempionatının təşkilatçıları idmançıları və azarkeşləri istidən qoruya biləcəkmi? Bu suala indidən cavab vermək çətindir.

*MA BDULLAYEV*
*XQ*

# Laçında səyyar tibbi müayinə

**Laçın Rayon Mərkəzi Xəstəxanasının həkim-mütəxəssisləri tərəfindən yaylaqlara mövsümi köçən fermerlərin növbəti səyyar tibbi müayinəsi təşkil edilib.**



Laçın təbiblərinin yolu bu dəfə Şamkənd kəndi olub. Şamkəndlə bərabər, Nağdalı, Ələkçi, Qarabəyli kəndlərinə və yaylaqlara köçən fermerlərin səyyar tibbi müayinəsi keçirilib. Müxtəlif ixtisaslar üzrə həkimlərdən ibarət briqada tərəfindən aparılan müayinələrə ümumilikdə 81 nəfər cəlb olunub. Onlara 168 adda tibbi xidmət göstərilib. Səyyar tibbi müayinələr ucqarlarda keyfiyyətli tibbi xidmətlərə əlçatanlığın artırılması və xəstəliklərin erkən diaqnostikasının təmin edilməsi məqsədi ilə həyata keçirilir.

Qeyd edək ki, Laçın işğaldan azad olunduqdan sonra kəndlərə, yaylaqlara həyat geri qayıdır. Uzun illər boş qalan torpaqlar bu gün yenidən insan nəfəsi, mal-qara səsi ilə canlanır. Fermerlər öz ata-baba yurdlarına dönərək yaylaqlarda təsərrüfatlarını qururlar. Maldarlıq və arıçılıq kimi sahələr yenidən dirçəlir. Dövlətin dəstəyi ilə yollar, elektrik xətləri, su mənbələri bərpa olunur, yeni təsərrüfat imkanları yaradılır.

*XQ*

Hava

## Qızmar bir yay günü...



**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 22-27° isti, gündüz 34-39° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 65-75 faiz, gündüz 45-50 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 22-27° isti, gündüz 36-41° isti, dağlarda gecə 11-16° isti, gündüz 28-33° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

# Dual təhsil iştirakçıları artıb

**Azərbaycanda dual peşə təhsil proqramı sahəsində bu, tələbənin tədris ili boyunca peşə təhsili müəssisələrində nəzəri biliklərlə yanaşı, qabaqcıl şirkətlərdə işəgötürənlərlə birgə praktiki bacarıqlar əldə etməsini təmin edən təhsil yanaşmasıdır - red) iştirak səviyyəsi ildən-ilə artır.**




Bunu Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov peşə təhsili üzrə tələbə qəbulu ilə bağlı keçirilən brifinqdə deyib. O bildirib ki, 2024–2025-ci tədris ili üzrə dual sistemlə təhsilə 1273 tələbə cəlb olunmuşdursa, 2025–2026-cı tədris ili üçün bu göstərici 2160 tələbə səviyyəsində planlaşdırılır.

C.Kərəmov qeyd edib ki, dual təhsil modeli üzrə fəaliyyət göstərən regionlara Bakı, Sumqayıt, Gəncə, Şəki, Şamaxı, Bərdə, İmişli, Qəbələ, Cəlilabad, Xaçmaz, Qax, İsmayıllı, Balakən, Göyçay, Kürdəmir, Neftçala və digər bölgələr daxildir.

Direktor əlavə edib ki, 2022–2025-ci illəri əhatə edən dövrdə peşə təhsili üzrə, ümumilikdə, 62 təhsil proqramı hazırlanıb.

*XQ*


BİLDİRİŞ

"AZNET Technologies" QSC (VÖEN-1308647091) təşkilati-hüquqi formasını dəyişərək "AZNET Technologies" MMC-yə çevrildiyini bildirir və səhmlərin döriyyədən çıxarılmasını (nominal dəyəri 1 manat, ümumi miqdarı 2000 manat, Dövlət qeydiyyat nömrəsi AZ 1001025910) elan edir.



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3249
SİFARİŞ 1511
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00